RUHUM – TANRIM

Səndən sənə ərz eyləyən dilimi kəs,
Sənə sarı uzatdığım əlimi kəs.
Sındır məni, pəsimi kəs, zilimi kəs,
Tək ruhumun bağlarını kəsmə, Tanrım.

Duyğuların bağbanı sən, bağı mənəm,
Ruhum varsa, eşqin uca dağı mənəm.
Ruhum varsa, min illərin sağı mənəm,
Ruhum üstən acı yeltək əsmə, Tanrım!

Ruhsuz qalan baş-bədəni neyləyirəm,
Key baxışı, daş bədəni neyləyirəm,
Mən yoxamsa, onda səni neyləyirəm,
Özündən küs, onda məndən küsmə, Tanrım!

2002, 26 may

YAXŞILIQ DAN YERİ,
SÜBH AZANIDI

Ayların, illərin fırtınasından
Ömrü ömür kimi yaşayan keçər.
Havalı ürəkdən, odlu könüldən
Zamanın şaxtası, qışı yan keçər.

Hər qayğı insana bir yaz anıdı,
Yaxşılıq dan yeri, sübh azanıdı,
Günahın son payı qır qazanıdı,
Körpüdən savabı daşıyan keçər.

Haqqı bayraq eylə, nə əzil, nə əz,
Ayı da, günü də öz içində gəz.
Allah sevgisinə toxuna bilməz,
Şeytanlar atsa da, daşı yan keçər.

2003, 23 iyul

ÖMÜR

Gül soldu, yerində çöp qalasıdı,
Od söndü, yerində kömür qalası.
Yıxılar sarayın daş hasarları,
Dağılar zamanın dəmir qalası.

Qaynayır, yanaqda qan-yaş əriyir,
Həm möhlət tükənir, həm yaş əriyir.
Qum kimi süzülür, daş-daş əriyir,
Torpaqda toz olur ömür qalası.

2003, 19 avqust

VAXT ƏLİNDƏ OYUNCAQSAN

Vaxt əlində oyuncaqsan,
Yazıq bəndə, tifil bəndə.
Doğum günü asta-asta,
Ölüm günü qəfil, bəndə.

Ömür çatmaz kama nədən?
Külək qənim şama, nədən?
Sənə qalmaz zəmanədən
Nə umursan, səfil bəndə?

Dərələrdə sel bükülür,
Gərdən sınır, bel bükülür,
Dağ yıxılır, fil bükülür,
Sən nə dağsan, nə fil, bəndə.

Gül istədin, qanqal gördün,
Dərddən ürəkdə xal gördün,
Ayağında qandal gördün,
Dodağında qıfıl, bəndə.

2003, 1 sentyabr

BİLMƏDİM

Mən ki yeddi bələndə
tükü tükdən seçərdim,
Hardan endi gözümə
çəni, bilə bilmədim.
Həsəd aparardılar
qapqara tellərimə,
Niyə düşdü saçıma
dəni, bilə bilmədim.

Başda fikir dünyası,
könüldə ah dünyası,
Yoxsuldu nökər ömrü,
varlıdı şah dünyası.
Ah, bu qarın davası,
ah, bu tamah dünyası,
Çaşdım səmti, qibləni,
yönü bilə bilmədim.

Cavabı tapılmayan
suallar durdu qəsdə,
Biz niyə bölünmüşük,
islama, xaçpərəstə?
Duyğular yığın-yığın,
fikirlər dəstə-dəstə,
Min bir fikir oxudum,
dini bilə bilmədim.

Yolçuyam, yol gedirəm
əllidən yüzə doğru,
Dağdan aşmış bir Günəm,
enirəm düzə doğru,
Sənə sarı yeridik,
gəlmədin bizə doğru,
Dünya, özümü bildim,
səni bilə bilmədim.

2003, 28 sentyabr

ÖMÜR-GÜN İŞIĞINDA

Şair taleyinin xoş anları var,
Ömür işığında, gün işığında.
İmanlı misralar axır qələmdən,
İman işığında, din işığında.

İşığa, Tanrıya könül verən kəs,
Ancaq İlahidən götürəcək dərs.
İnsan bəxtəvərdi, torpaq müqəddəs,
Sünbül işığında, dən işığında.

Qana nur dolaşar, nurda qan yaşar,
Bir zərrə şəfəqdə min bir can yaşar.
Bir Allah bəndəsi Zəlimxan yaşar,
Axşam şöləsində, dan işığında.

2003, 15 noyabr

ÇAŞQINLIQ

İnsan çaşanda bilmir
nə danışsın, neyləsin,
Sevincəmi gəl desin,
ağrıyamı, ahamı?
Şirin bir xoşbəxtliyi
tapıb yaşamaq üçün
Dar komamı yaxşıdı,
gen saraymı, kahamı?

Göz nurdan, üz işıqdan,
diz heydən ayrılanda,
Hamıdan üz çevirib,
hər şeydən ayrılanda,
Ayaq yerdən üzülüb,
əl göydən ayrılanda,
Nəfsəmi qurban etsin
ömrünü, tamahamı?

İnsan çaşır, İlahi
heç kəsi çaşdırmasın,
Heç kəsin yaxasını
şeytan əli cırmasın.
Neyləsin ki, qəlbini
yağan daşlar qırmasın,
Millətəmi güvənsin,
fərman verən şahamı?

Qapı şübhə qapısı,
kim açmaya, kim açа,
Tərəddüdlər əlindən
oğul istərəm qaça.
Qalıb yolayrıcında,
yol haça, ümid haça,
Şeytanamı əl açsın,
tək olan Allahamı?

2003, 19 noyabr

ZAMANIN İNSANA SÖZÜ

Ey atçapan oğullar,
dayandırın atları,
Siz hara quştək uçub,
yel kimi əsirsiniz?

Özünə dayaq bilib
yəhəri, üzəngini,
Səsləndirib yarışda
havalanmış cəngini,
Nəmər alıb, yer tutub,
mənzillər kəsirsiniz.

Nə ki çapdınız yetər,
boşaldın cilovları,
Bir-bir yəhərdən salıb
ovçu vurar ovları.
Mən zamanam, siz insan,
ey vaxtın girovları,
Siz mənim əllərimdə
əbədi əsirsiniz.

Çox da havalanmasın
göy sularda üzənlər,
Üfüqdə qanad çalıb
buludlarda süzənlər,
Ey bu gün "cıdır" deyib,
"yarış" deyib gəzənlər,
Sabah torpaqda palaz,
ayaqda həsirsiniz!

2003, 20 noyabr

İLAHİ BİL SEVGİNİ

Ay eloğlu, daşı hara atırsan,
İşlərimiz daş atmaqla düzəlməz.
Öz əlindi, öz daşındı, öz başın,
Bərk atmaqla, boş atmaqla düzəlməz.

Tanımasan namərdini, mərdini,
Tapammasan çarəsini, dərdini,
Yüz də oyna bu dünyanın nərdini,
Şeş atmaqla, beş atmaqla düzəlməz.

Ömrümüzün dərəsi var, diki var,
Çiynimizdə qayğıların yükü var,
Doğrunun da, yalanın da kökü var,
Kəllə vurub, baş atmaqla düzəlməz.

İlahi bil, Yaradan bil sevgini,
Evlər yıxar dəvə kini, div kini.
Kim dedi ki, bir bu qədər sev kini? –
Dünya, kini yaşatmaqla düzəlməz.

2003, 24 noyabr

GƏLİN, DOSTLARIM, GƏLİN!

Ayrılıq çağı gəldi,
Gəlin, dostlarım, gəlin!
Ölüm ayağı gəldi,
Gəlin, dostlarım, gəlin!

Torpağa varış gəldi,
Əcəllə barış gəldi,
Haqqa yalvarış gəldi,
Gəlin, dostlarım, gəlin!

Vaxtın üzü boz oldu,
Kəfənimiz bez oldu.
Ayrılıq çox tez oldu,
Gəlin, dostlarım, gəlin!

Baxışda bulud yükü,
Könüldə sükut yükü,
Çiyində tabut yükü,
Gəlin, dostlarım, gəlin!

Dağı aşmaq vaxtıdı,
Dilin çaşmaq vaxtıdı,
Halallaşmaq vaxtıdı,
Gəlin, dostlarım, gəlin!

Çəkin bir az nazımı,
Dilləndirin sazımı,
Qıldırın namazımı,
Gəlin, dostlarım, gəlin!

Axşam oldu sabahım,
Keçin, varsa günahım.
Bağışlasın Allahım,
Gəlin, dostlarım, gəlin!

2003, 28 noyabr

TANRI "YARAT" DEDİ

Bir qarlı gecədə dünyaya gəldim,
Mənim gəlişimi qış salamladı.
Güldüm, dodağımı körpə gülüşü,
Ağladım, gözümü yaş salamladı.

Su nədir – gözündən içəndə bildim,
Od nədir – içindən keçəndə bildim,
Atam bu dünyadan köçəndə bildim,
Ömrü zəhərlənmiş aş salamladı.

Həyat ürəyimdə tər güllər əkdi,
Gördüm duyğularım çiçək-çiçəkdi.
Sevgi əllərini başıma çəkdi,
Göz işarə verdi, qaş salamladı.

Kimlər satqın oldu, kimlər satıldı,
Fikrim çaşqın oldu, qaşım çatıldı,
Hərdən bostanıma daşlar atıldı,
Şair taleyimi daş salamladı.

"İşlə" – qələm dedi, "dillən" – saz dedi,
"Dildən ayrılmasın xoş avaz" – dedi.
Tanrı "yarat" dedi, Allah "yaz" dedi,
Məni bir müqəddəs iş salamladı.

2003, 30 noyabr

HAQQ EŞİTDİ SƏSİMİ

Dağın qarını yardım,
Daşın sirrinə vardım,
Qılınc ağzı suvardım,
İnadım bahasına.

Haqdan aldım dərsimi,
Oldum Babək, Nəsimi.
Haqq eşitdi səsimi,
Fəryadım bahasına.

Dərdi, əzabı yazdım,
Dözümü, tabı yazdım,
Tale kitabı yazdım,
Həyatım bahasına.

Söz taleyim, saz andım,
Dərviş ruhlu ozandım,
Qəbir yeri qazandım,
Vəfatım bahasına.

2003, 3 dekabr

ÖLÜM SAHİLLƏRƏ YAN ALMAQDADI

Heyifdir bu ömür, heyifdir bu gün,
Kül kimi sovurub küləyə vermə.
Bir göz qırpımından tez keçir illər,
Onu küyə vermə, kələyə vermə.

Doğan günəşi var, yanan şamı var,
İçməyə həmişə şirin camı var.
Gör Haqqın nə qədər xoş kəlamı var,
Dili şikayətə, gileyə vermə.

Səndən ətir umur, çiçək istəyir,
Həqiqət gözləyir, gerçək istəyir.
Sevgi zor istəmir, ürək istəyir,
Gücü ürəyə ver, biləyə vermə.

Ölüm sahillərə yan almaqdadı,
Qan töküb, qan salıb, qan almaqdadı.
Fələk addımbaşı can almaqdadı,
Canı tez-tələsik fələyə vermə.

2004, 18 fevral
Kislovodsk

OLMASA

Ömrün yarpaqları yazda tökülər,
Yarpaqtək üstündə əsən olmasa.
Nə ürək qırılar, nə könül sınar,
Küsdürən olmasa, küsən olmasa.
Yüzü, yüz əllini aşırar insan,
Ömrü parça-parça kəsən olmasa.

2004, 19 fevral
Kislovodsk

İTKİ – ETİRAF

Nisgildi ürəkdə, ağrıdı canda,
Bir görün nə qədər vaxt itirmişəm.
Özümü tapmışam vaxtı tapanda,
Vaxtı itirəndə baxt itirmişəm.

Yaza bilmədiyim anlar, saatlar
Qarışdı gözümün yaşına, getdi.
Eşitsə qələmin ürəyi çatlar,
Bu gün də beləcə boşuna getdi.

Nə ay qayıdası, nə il dönəsi,
Yuvadan perikən quşdu, qayıtmaz.
Günəş batasıdı, ocaq sönəsi,
Zaman əllərindən uçdu, qayıtmaz.

Tez yorulur ürək, tez üzülür can,
Ay nə qiymətlidi, gün nə bahadı.
Heyif ki, vaxtında dərk etmir insan,
Sən yağlı tikəsən, vaxt əjdahadı.

Dərd dalğa-dalğadı, qəm şələ-şələ,
Vaxtsız saçımıza ələndi dənlər.
Zamanın tükü də tərpənmir hələ,
Özünü öldürür vaxt öldürənlər.

İtirdim ən şirin arzularımın
Kölgədə birini, gündə birini.
Köçürə bilmədim ağ varaqlara
Qəlbimdən keçənin mində birini.

Yüz yerə baş vurdum, min yerə vardım,
Top kimi daşlardan daşlara dəydim.
Nələr yaradardım, nələr yazardım,
Vaxtında vaxtımı itirməsəydim.

2004, 20 fevral
Kislovodsk

ÖLÜM DURUR

Göz işığın qulluğunda,
Qulaq səsin, dodaq sözün.
Günəş Yerin qulluğunda,
Köz ocağın, ocaq közün.
Toyumuzun qulluğunda
sevinc, şadlıq,
Yasımızın qulluğunda
kədər, hüzn.
Qulluqçular çox olsa da,
Ən axırda qulluğunda
Ölüm durur ömrümüzün.

2004, 20 fevral
Kislovodsk

HƏRƏSİ BİR KÖKDƏ ÇALIR HAVANI

Doğumla, ölümlə gözəldi dünya,
Nə yaxşı hər gecə bir səhər doğur.
Sevincin anası toydu, düyündü,
Hər yasın bətnindən bir kədər doğur.
Sevinc də, kədər də şeiriyyətimdi,
Hərəsi bir kökdə çalır havanı,
Hərəsi bir kökdə nəğmələr doğur.

2004, 3 mart

GÖYÇƏNİN GÖZƏL OĞLU

Sərdar Kərimovun xatirəsinə

Ömrün bir köçəri quşamı döndü?
Baharın çevrilib qışamı döndü?
Səni bu dünyadan aparan günü,
Əcəlin ürəyi daşamı döndü? –
Göyçənin gözəl oğlu!

Yurdumun, elimin öz havasıydın,
Bahar təravəti, yaz havasıydın.
Təcnisdən, qoşmadan yoğurmuşdular,
Sən başdan-ayağa saz havasıydın,
Göyçənin gözəl oğlu!

Qohumun şirini, dostun xasıydın,
Yaralı Göyçənin dərdi, yasıydın.
Sazınla, sözünlə, şeiriyyətinlə,
Yaralı Göyçənin bir parçasıydın,
Göyçənin gözəl oğlu!

Göyçə bütövümüz, Göyçə paramız,
Göyçə sızıltımız, Göyçə yaramız,
Göyçə əlimizdən hansı gün gedib,
O gündən sevinclə yoxdu aramız,
Göyçənin gözəl oğlu!

Dağılan şəhəri, köçən kəndi var,
Yıxılan hasarı, uçan bəndi var.
Nə sən tapa bildin, nə mən açmışam,
Tanrının açılmaz qıfılbəndi var,
Göyçənin gözəl oğlu!

Əcəl nə tez döydü qapını, qardaş,
Üzdü ürəyinin sapını, qardaş?
Cəbrində insaf yox, qəbrində işıq,
Kim yapıb bu qədim yapını, qardaş? –
Göyçənin gözəl oğlu!

Zəmilər sünbülə, dənə gələydi,
Sağlığın qayıda, dönə, gələydi.
Dost dərdi çəkəydim, yüngülləşəydim,
Azarın bir az da mənə gələydi,
Göyçənin gözəl oğlu!

Sevgini min əriş, min arğac eylə,
Canın sağlığını başda tac eylə.
Həkimsən, dərman tap, loğmansan – çara,
Dur özün-özünə bir əlac eylə,
Göyçənin gözəl oğlu!

Məni məndən artıq duyan Sərdarım,
Şeirimə, ruhuma həyan Sərdarım,
Təzə sevgi şeiri yazıb Zəlimxan,
Onu özün oxu, oyan, Sərdarım, –
Göyçənin gözəl oğlu!
Göyçənin çiçək oğlu!
Göyçənin mələk oğlu!

2004, 6 aprel

OXUYA BİLMƏDİM AXIRA QƏDƏR

Kim deyir bu dünya kefdi, damaqdı,
Kefi olanlar da kefdə deyilmiş.
Yüz il bu dünyada yaşasan belə,
Göz açıb görürsən həftə deyilmiş.

Vəfası yalandı, dostluğu kədər,
Ötərgi sevgidir, əbədi kədər.
Oxuya bilmədim axıra qədər,
Dünya kitab kimi rəfdə deyilmiş.

Min ürək qırıla, min könül sına,
Fələyin qılıncı çəkilməz qına.
Verir verdiyini can bahasına,
Tanrının heç nəyi müftə deyilmiş.

2004, 30 aprel

SÖYLƏ

Dərd içini yandıranda,
Apar dağa-daşa söylə.
Bir ömürdə nələr çəkdin,
Nələr gəldi başa, söylə.

Qaldır zilə, endir pəsə,
Səs ver səni duyan kəsə.
Dərdini Haqq eşitməsə,
Gözündəki yaşa söylə.

İllər keçsə sərt, necədir?
Vaxt olsa namərd, necədir?
Desələr ki, dərd necədir? –
Çək əlindən haşa, söylə.

2004, 16 iyul

XATİRƏLƏR YUMAĞI

Dağlar uca, düzlər geniş, dərələr dərin,
Gəl çözələ yumağını xatirələrin.
Hansı dağda qartal ilə süzmüsən qoşa,
Hansı düzdə atdığın ox çıxıbdır boşa?
Hansı dərə səni çəkib qaranlıqlara,
Hansı uçqun günlərini gətirib qara?
Hansı zirvə "gəl dövrəmdə qanad çal", – deyib,
Hansı tala açıb sənə xalı-xalçanı?
Hansı qızın əllərindən aldın dolçanı?
Hansı çeşmə salıb səni eşqin oduna?
Hansı gözəl, hansı gəlin düşüb yadına?
Nə danışıb mamırlı daş, xınalı qaya?
Şair gözü hansı gözlə baxıb dünyaya? –
Üfüq aydın, çəmən yaşıl, bulaqlar sərin,
Gəl çözələ yumağını xatirələrin.

2004, 17 iyul
Truskavets

HEÇ KİM ÖZ YÜKÜNÜ TƏK ÇƏKƏ BİLMİR

Sevgisiz olanda həyatda insan,
Bir qarışqa qədər yük çəkə bilmir.
Sevgiyə açanda qapılarını,
Ürək qorxu bilmir, səksəkə bilmir.

İnsan təklənəndə yanır, ah çəkir,
Meylini Haqq adlı bir dərgah çəkir.
Hamının yükünü bir Allah çəkir,
Heç kəs öz yükünü tək çəkə bilmir.

2004, 21 iyul
Truskavets

MƏNLƏ QƏBRƏ GEDƏN SİRR

Baxtımız haraydı, ündü,
Ən ağlamalı gündü,
İçimdə bir düyündü,
Qəbrə apardığım sirr.

Daşa dəymiş oxumdu,
Haram olmuş yuxumdu,
Cücərməz bir toxumdu,
Qəbrə apardığım sirr.

Dərdim şişər, fil olar,
Ölümüm qəbir olar,
Məzarda qıfıl olar,
Qəbrə apardığım sirr.

Göz yaşım bilməz nədir,
Başdaşım bilməz nədir,
Qardaşım bilməz nədir,
Qəbrə apardığım sirr.

Çörək olub yeyilməz,
Paltar olub geyilməz,
Allaha da deyilməz,
Qəbrə apardığım sirr.

2004, 28 iyul
Truskavets

İLDIRIM

Şimşək elə çaxdı, deyirsən bu an
Yer göyün odunda bişəcək indi.
Qopub Yaradanın ucalığından,
Göy Yerin üstünə düşəcək indi.

Çaxışında ölüm, qəzəbində qan,
Dəyir qayalara, sıldırımlara.
Bəlkə, narazıdı ulu Tanrıdan,
Göylər də dar gəlir ildırımlara!

2004, 29 iyul
Truskavets

ÖLDÜRÜR

Bəxtinə yazılıb insan oğlunun,
Hərəni bir həsrət, bir ah öldürür.
Açıb-bükə bilmir günahlarını,
Çoxunu batdığı günah öldürür.

Üzülür piltəsi, əriyir şamı,
Sökülür sarayı, yıxılır damı.
Səssiz güllələrdi yıxan adamı,
Silahsız olanı silah öldürür.

Harınlar qarındı, qarınlar harın,
Onəlli yapışıb kökündən varın.
Gözü bu dünyadan doymayanların,
İçini kin yeyir, tamah öldürür.

Yerdən də, göydən də silinir izi,
Dizli kişilərin qırılır dizi.
Qıran özümüzük bir-birimizi,
Kim deyir adamı Allah öldürür.

2004, 31 iyul
Truskavets

BAŞ GÖTÜRÜB ƏLLİ BEŞƏ GEDİRƏM

Axşam-axşam dönüb işdən gəlirəm,
Səhər-səhər qalxıb işə gedirəm.
Evdən getdi – kim qayıda, kim qala,
Elə bil ki, son gedişə gedirəm.

Bir gəlmişəm, bir də qoymaz gəlim bir,
Doğum birdi, yaşam birdi, ölüm bir.
Son mənzilə, son məkana yolum bir,
Dərdi edib canda peşə, gedirəm.

İnsan oğlu küsmədi nə, küsdü nə,
Əvvəl-axır dərd vuracaq üstünə.
Qəlb sındıran qocalığın üstünə
Ürəyimi deşə-deşə gedirəm.

Yelli gündə pambığımız atılıb,
Alan alıb, satılanlar satılıb.
Cəhənnəmdə gur ocaqlar çatılıb,
Ciyərimi taxıb şişə, gedirəm.

Qırx körpü var, qırx keçid var, qırx ada,
Salam verdim otuza da, qırxa da.
Bir də gördüm əlli qalıb arxada,
Baş götürüb əlli beşə gedirəm.

2004, 18 avqust

DADALOĞLUNA

Qalxdı, köç eylədi Əfşar elləri,
Ağır-ağır gedən ellər bizimdi.
Dadaloğlu

Yerindən oynadı Oğuz elləri,
Qismətim köç oldu, ay Dadaloğlu.
Barxanam dağıldı, barım talandı,
Yurd-yuvam heç oldu, ay Dadaloğlu.

Cığırlar qızardı, izlər qanadı,
Qanlı yoxuşlarda dizlər qanadı.
Dırnaqlar qanatdı, üzlər qanadı,
Yolunan saç oldu, ay Dadaloğlu.

Çar qılınc oynatdı, fərman verdi şah,
Gülmədi üzlərə açılan sabah.
Nə səndə təqsir var, nə məndə günah,
Şeytanda suç oldu, ay Dadaloğlu.

Çağırsam Tanrı da gəlməz karıma,
Allah da inanmır beh-bazarıma.
Heyif ümidimə, arzularıma,
Hamısı puç oldu, ay Dadaloğlu.

Qıpçaq kişiləri, Oğuz bəyləri,
Ağüzlü tarixin ağüz bəyləri,
İndiki kişilər kağız bəyləri,
Son sözü "qaç" oldu, ay Dadaloğlu.

Yaranı vurdular yaranın üstə,
Yeriş eylədilər Turanın üstə.
Başım nələr çəkdi Quranın üstə,
Qənimim xaç oldu, ay Dadaloğlu.

2004, 27 avqust

DÖRD YANIMIZ HASAR, BARI

Açılmaq gül kimi aydın,
Açılıb-solmayan varmı?
Boz-bulanıq göylər kimi,
Boşalıb-dolmayan varmı?

Qəmli kimdir – boyun bükən,
Dərdli kimdir – qan-yaş tökən.
Ey saçına sığal çəkən,
Saçını yolmayan varmı?

Dörd yanımız hasar, barı,
Gün əritməz yatan qarı.
Biz gedirik qəbrə sarı,
Bizimlə olmayan varmı?

2004, 30 avqust

BÜTÖV AZƏRBAYCAN DÜNƏNDƏ QALDI

Bütün yaralılar baş-başa versə,
Yoxdu mənim kimi yaralanmışı.
Allahın özü də ovuda bilməz,
Yurdundan, elindən aralanmışı.

Qara günlərimin rəngi ağ olmaz,
Belə düyün olmaz, belə dağ olmaz,
Yazıyla, pozuyla yaşatmaq olmaz,
Fələk dəftərindən qaralanmışı.

Xoşbəxtlik nə səndə, nə məndə qaldı,
Nə candan sevinən bir bəndə qaldı.
Bütöv Azərbaycan dünəndə qaldı,
Bu gün mənə çatıb paralanmışı.

2004, 17 sentyabr

HALIMI SORUŞUB NECƏSƏN DEMƏ

Halımı soruşub necəsən demə,
Hər saat qulağı səsdə gəzirəm.
Köksümdən üzülüb düşəcək deyə,
Əlim ürəyimin üstə gəzirəm.

Ağrılar içində əriyir zaman,
Sağalmaz qəlbinə şübhələr daman.
Gözümdən çən getmir, başımdan duman,
Bürünüb dumanda, sisdə gəzirəm.

Ümidi qırıldı, gümanı getdi,
Gümanı gedənin amanı getdi,
Havalı günlərin zamanı getdi,
Havasız dolanıb, xəstə gəzirəm.

2004, 20 sentyabr

KİM BİLİR?

On il bundan əvvəl hardaydı fikrim,
On il bundan sonra harda, kim bilir?
Hansı kök üstündə dillənəcək tar,
Hansı sim susacaq tarda, kim bilir?

İnsan bu dünyayla xəncər-bıçaqdı,
Biri sağ gəzirsə, biri naçaqdı.
Kimlər gün altında qızınacaqdı,
Kimlər üşüyəcək qarda, kim bilir?

İçimi yandırır bozarmış çölüm,
Səhrayam, quruyub dənizim, gölüm.
Nisyədi ölməzlik, nağdıdı ölüm,
Bizi nə gözləyir gorda, kim bilir?

2004, 23 sentyabr

QOY YATIM, YUXUDAN QALDIRMA MƏNİ

Qışda doğulmağım bəs edər mənə,
Məni öldürəndə yaz öldür, Allah!
Bilim hansı gündü gedəcəyim gün,
Ölüm tariximi yaz, öldür, Allah.

Qoy yatım, yuxudan qaldırma məni,
Əcəlin cəngindən saldırma məni,
Zarıya-zarıya öldürmə məni,
Öldürə bilirsən, saz öldür, Allah!

Acı gülüşlərin ürəyimdə xal,
Dodağım qıfıllı, baxışlarım lal.
Alırsan canımı birdəfəlik al,
Bu qədər ağrıyla az öldür, Allah!

2004, 29 sentyabr
Cenevrə

İKİ QAPI

İtaliyanın Assizi şəhərində bir evə iki qapı qoyulur. Qapının biri, hər bir evdə olduğu kimi, giriş-çıxış qapısıdır. O biri qapını isə ancaq evdə adam öləndə açırlar və ev yiyəsinin cənazəsini həmin qapıdan çıxarırlar.

Anar müəllimin dediklərindən

Burda belə qurulur,
belə yapılır yapı,
Bir mənzilə iki yol,
bir evə iki qapı.
Biri qurub-yaratmaq,
coşub-çağlamaq üçün,
Biri vida çağında
yanıb ağlamaq üçün.
Durub dayanmağı yox,
biri hər gün işdədir,
Hey açılar, örtülər,
əbədi gərdişdədir.
Biri ölü sükutda,
Qaş-qabağı buludda,
meyli qəmdə, yasdadı,
Biri Ayla, ulduzla,
Günəşlə təmasdadı.
Birindən gülüş axır
içəriyə, bayıra,
O biri fürsət gəzir
səni səndən ayıra.
İti bir xəncər kimi,
biri qəlbə saplanır,

Biri nura, işığa,
həyata hesablanır.
Birində toy çalınar,
gəlin gələr içəri,
Biri bizə pıçıldar:
“köçərisən, köçəri”.
Biri ömrün baharı,
biri ömrün şaxtası,
Biri beşik laylası,
biri tabut taxtası.
Biri qəmə, həsrətə,
dərdə, yasa açılır,
Biri eşqə, sevgiyə,
ehtirasa açılır.
Baş əyməmək olarmı
bu bölgüyə, bölümə? –
Biri həyata açıq,
biri qara ölümə.

2004, 7 oktyabr

AYAQ SAXLAYAN OLSUN

Bir tabut aparırlar,
saxla maşını, saxla,
Qoy bizim diqqətimiz
dərdliyə həyan olsun.
Bu qəmli səhnəyə bax,
öz ömrünü varaqla,
Elə yaşa dünyada,
Sabah sən köçəndə də
ayaq saxlayan olsun!

2004, 8 oktyabr

MƏN NƏYİNƏ LAZIMAM?

Bəzən acığım tutur,
hirs dağıdır qafamı,
Kar olmaq istəyirəm
hər şeyinə dünyanın.
Dirsək dizdə, əl üzdə,
can odda, baş qovğada,
Boylanmaq istəyirəm
yer-göyünə dünyanın.
Sındırmaq istəyirəm
çaldığım sazı belə,
Nə sazına baxıram,
nə neyinə dünyanın.
Aciz qalıb əlində,
insanlar açа bilmir,
İşlərini kim salıb
sərt düyünə dünyanın?
Əlim sağ, ayağım sağ,
Min düyündən birini
açа bilməmişəmsə,
Mən nəyinə lazımam,
de, nəyinə dünyanın?!

2004, 8 oktyabr

TƏK OLANA ARXALAN

Ucalığı, insanlığı insanın,
Ləyaqətdə, abırdadı, abırda.

Yaradana yaxınlığın yolları,
Dözümdədi, səbirdədi, səbirdə.

Həyat səndən güc-hərəkət istəyir,
Sükut ancaq qəbirdədi, qəbirdə.

Arxalansan, tək olana arxalan,
Hər nə varsa, o Birdədi, o Birdə!

2004, 12 oktyabr

YOLLAR

Fikrin köhlən atını
çapdım, dördnala sürdüm,
Çox arzuya can atdım,
çoxu başa varmadı.
Uzaq-uzaq yolları
gözlərimə köçürdüm,
Ömrüm-günüm tükəndi,
bu yollar qurtarmadı.

2004, 16 oktyabr

ÖZ DİLİNDƏN ÇIXDI XATA

İsməti qınağa çəkib,
Arı günahkar eyləmə.
Üşüdən buz baxışındı,
Qarı günahkar eyləmə.

Gözəllər nazını sata,
Can deyəsən, cana yata.
Öz dilindən çıxdı xata,
Yarı günahkar eyləmə.

Əbədi ünvanı, adı,
Sevgi hər nemətin dadı.
Nə günah var bağbandadı,
Barı günahkar eyləmə.

2004, 20 oktyabr

O GƏLİRSƏ

O gəlirsə, dedi-qodu gəlir, demək,
Baxışda kin, dildə zəhər gətirəcək.

Kim əzildi, kim vuruldu, kim yıxıldı,
Bircə-bircə dildə əzbər gətirəcək.

Ölən varsa, qoymaz bir saat keçə,
Ölüm-itim, qəza-qədər gətirəcək.

Canı çıxar, dilindən bir xeyir gəlməz,
Şərdən deyib, şər oğlu şər gətirəcək.

Ömrü boyu şad xəbərlə arası yox,
O gəlirsə, qara xəbər gətirəcək.

2004, 20 oktyabr

ÇIRPIN, ŞAİR ÜRƏYİ

Çırpın, şair ürəyi, sənə düşəcək bu yük,
Çağır sevda yolunda insanları yarışa.
Bütün yamanlıqları döndər yaxşılıqlara,
Qovuşdur insanları məhəbbətə, barışa.

Niyə düşüb, kim salıb – qara saçda dən ara,
Sən soruş, sən maraqlan, itənləri sən ara.
Kimlər küncə qısılıb, kim çəkilib kənara,
Tapmaq üçün onları gəl çıxaq axtarışa.

Özünü darta-darta heç kəs oxlov udmasın,
Heç kəs qarşıdakını qoy təkəlli tutmasın.
Dünyaya sığmayanlar dünyanı unutmasın,
Onsuz da sığacaqlar beş-altıca qarışa.

2004, 21 oktyabr

İKİ FƏSİL

Ömrümüzdə güllü fəsil başlanır,
Gözlərimiz gözəl yaza baxanda.
Çiçəklərin bir-birinə göz vurub,
Eylədiyi şirin naza baxanda.

Sərt ağrılar qəlbimizə tuşlanır,
Bostanımız yavaş-yavaş daşlanır,
Ömrümüzdə qəmli fəsil başlanır,
Kövrək-kövrək bir payıza baxanda.

2004, 21 oktyabr

CAN ÜSTÜNDƏ

Gördüm bir əl uzandı zülmətdən mənə doğru,
Qapımı döydülər ki, ömrün başa yetişdi.

Neçə dəfə can atdım ölümü öldürməyə,
Fürsət Əzrayıl adlı ağlı çaşa yetişdi.

Aşından çox yemişəm daşını bu dünyanın,
Ağzım aşa yetəndə başım daşa yetişdi.

Yüzdən o tərəfi çox qalmağın şərəfi yox,
Nə olsun insan ömrü neçə yaşa yetişdi.

Çoxunun ürəyindən ölməzlik gəldi-keçdi,
Ona nə xan qovuşdu, nə də paşa yetişdi!!!

2004, 26 oktyabr

SAVAŞ GEDİR

Yaşayırıq ağrıları,
Dərdlə dərman arasında.
Gecə bizə divan tutur,
Axşamla dan arasında.
Can doysa da, könül doymur,
Gecə-gündüz çaxnaşma var,
Ürəklə can arasında.
Vuruşur, əlləşir həkim,
Damarla qan arasında.
Savaş gedir, döyüş gedir,
Yeddibaşlı əjdahayla,
Tək Zəlimxan arasında.

2004, 27 oktyabr

DÖZMÜRƏM BU DAĞIN YIXILMAĞINA

Bu dağ özülündən aşmamalıydı,
Bu dağ öz fikrində çaşmamalıydı.
Başını başlara qoşmamalıydı,
Dözmürəm bu dağın yıxılmağına.

Təpəni özümə dərd eyləməzdim,
Heyrətdən gözümü dörd eyləməzdim,
Vallah, yıxılanı pərt eyləməzdim,
Dözmürəm bu dağın yıxılmağına.

Gülünün neməti, həyası qaçıb,
Halal nemətinin mayası qaçıb,
Kökü silkələnib, qayası qaçıb,
Dözmürəm bu dağın yıxılmağına.

Yadımda dəhşətli bircə an qalıb,
Ondan nə nişanə, nə ad-san qalıb.
Hələ də yerində toz-duman qalıb,
Dözmürəm bu dağın yıxılmağına.

Zümrüd bulaqların şüşəsi getdi,
Palıdı qırıldı, meşəsi getdi.
Bütün canlıların nəşəsi getdi,
Dözmürəm bu dağın yıxılmağına.

Dağlar yıxıldıqca ruhumuz ölür,
Mehimiz can verir, şehimiz ölür.
Təbiət adlanan şahımız ölür,
Dözmürəm bu dağın yıxılmağına.

Bu dağ sinəmdəki Vətən dağıdı,
Ruh dağı, can dağı, bədən dağıdı.
Dərd mənim ruhumu nədən dağıdır?
Dözmürəm bu dağın yıxılmağına.

Qırılar qanadı eşqin, həvəsin,
Tükənər sevinci ruhun, nəfəsin.
İlahi! Dağını yıxma heç kəsin,
Dözmürəm bu dağın yıxılmağına.

2002, 21 yanvar

QALIR

Dünənlər keçmişdədi, sabahlar gələcəkdə,
Olanlar oldu getdi, olacaqlar sirr qalır.
Sualların sonu yox, cavabların nöqtəsi,
Bir fikrə qovuşursan, başda min fikir qalır.
Yaşatdığı ömürdən, yaratdığı həyatdan
Kiminə tərif qalır, kiminə təhqir qalır.
Dünyanın dünya boyda varından, dövlətindən
Hər Allah bəndəsinə sonda bir qəbir qalır.

2002, 23 mart

ÖLÜ BASDIRIRIQ HƏR GÜN ÜRƏKDƏ

Ölü basdırırıq hər gün ürəkdə,
Yalan diriləndə həqiqət ölür.
Ölən həqiqətin qırxı çıxmamış,
Dalınca min cürə xoş adət ölür.

Qurub çadırını, yasxanasını,
Tuturuq ölənin beş gün yasını.
Ürək var, ölüm də yumur pasını,
O, diri qaldıqca ləyaqət ölür.

Görür ki, nahaqdan düşəcək qana,
Abır yavaş-yavaş çəkilir yana.
Elə ki, xəyanət girir meydana,
Çürüyür içindən, cəsarət ölür.

Məkr, dedi-qodu, hiylə, daşqalaq,
Yüz yerdən peyvənddi, min yerdən calaq.
Yığılır üstünə qəm qalaq-qalaq,
Dərdin tufanında təravət ölür.

Allahı, tanrını salmır yadına,
Gedir fitnələrin, gedir badına.
Çağırsan, Allah da çatmır dadına,
Göz açıb görürsən bir millət ölür.

2002, 13 yanvar

EY TƏZƏ QƏBRİN SAHİBİ

Ey təzə qəbrin sahibi,
Sən var idin, yoxsan daha.
Çəkən çəkdi, atan atdı,
Yaydan çıxan oxsan daha.

Suyu torpağa qatdılar,
Göz yaşıyla islatdılar.
Gözünə torpaq atdılar,
Gözü-könlü toxsan daha.

Yunus kimi dərya bizim,
Məcnun kimi səhra bizim,
Bu yalançı dünya bizim,
Sən haqdasan, haqsan daha.

Ey təzə qəbrin sahibi,
Dözümün, səbrin sahibi,
İnsaf, iman, din sahibi,
Beşcə arşın ağsan daha.

Suyu bulanmış dəhnədi,
Bu dünya qanlı səhnədi.
Sənin də qəbrin köhnədi,
Bir ovuc torpaqsan daha.

2001, 15 aprel

BİTMƏDİ Kİ, BİTMƏDİ

İnşallah, bitər dedik
bu ağrılar, acılar.
Nə amanlar, nə ahlar,
bitmədi ki, bitmədi.
Nə dərdi yoxa çıxdı,
nə namərdi tükəndi,
Bağışlanmaz günahlar
bitmədi ki, bitmədi.

Ömrü üzdü, çürütdü,
gözdən axan yaş yedi,
Gül kimi bədənləri
torpaq yedi, daş yedi.
Milləti müharibə,
insanı savaş yedi,
Bu yırtıcı tamahlar
bitmədi ki, bitmədi.

Qol açdıq, əl uzatdıq
neçə ulu dərgaha,
Tapammadıq məlhəmi,
dərd ucuz, dərman baha.
Nahaq ümid bağladıq
ümidsiz bir sabaha,
Ömür bitdi, sabahlar
bitmədi ki, bitmədi.

2001, 20 yanvar
Altıağac

PAYIZI GEYDİM ƏYNİMƏ

Qara saçım gümüşlədi,
Sazımın telləri kimi.
Gələn günlər qəm gətirər
Payızın yelləri kimi.

Gözümdən bulaq tökülər,
Gözümə torpaq tökülər.
Üstümdən yarpaq tökülər
Ömrümün illəri kimi.

Ölümüm gəlmir eynimə,
Payızı geydim əynimə.
Yarpaqlar qonur çiynimə
Anamın əlləri kimi.

Dərd olub neyə, çəkilləm,
Hopub hər şeyə, çəkilləm.
Nur olub göyə çəkilləm,
Göyün qəndilləri kimi.

2001, 2 yanvar

QALIB

Göylərə baxıram,
Nə tərtəmiz bir ulduzu,
Nə ləkəsiz Ayı qalıb.
Yerlərə baxıram,
Nə duru bircə çeşməsi,
Nə bir təmiz çayı qalıb.
Təbiətə baxıram,
Cüyür küsüb, ceyran ölüb,
Meşələrdə ayı qalıb.
Yaradana baxıram,
Boynumuzda, gör, nə qədər,
Halal haqqı-sayı qalıb.
İnsanlara baxıram,
Ziyarətə gedənlərdən
Şikayətə gedəni çox.
Yaxşıları köçüb gedib,
Ortalıqda zayı qalıb.
Dünyaya baxıram,
Deyəsən, bu dünyanın da
Ələnib, hay-hayı gedib,
Axıra vay-vayı qalıb.

2000, 16 dekabr

AĞRI

Üstümə gələn şikayətçilərə

Ürək nədir, zərif tel, incələrin incəsi,
Sən – qarışqa, dərd – dəvə, qəm – ayının pəncəsi.
Hər gün üzünə durur həyatın işgəncəsi,
Səni necə qurtarım ağrıların əlindən?

Fikrində ümid yeri, gözündə yaş gəlirsən,
Ürəyində qəm yükü, bağrında daş gəlirsən.
Bir az ürkək yeriyir, bir az yavaş gəlirsən,
Səni necə qurtarım ağrıların əlindən?

Yol dolaşıq, cığır dar, zaman çətin, vaxt ağır,
Əngəllərin əlində qalmısan mağmın, fağır.
Baxışından üstümə qalaq-qalaq qar yağır,
Səni necə qurtarım ağrıların əlindən?

Torpağın yad əlində, özün çadırda əsir,
Ayaz vurur, dolu döyür, şaxta vurur, qar kəsir.
Hər kəs öz ocağına, öz evinə tələsir,
Səni necə qurtarım ağrıların əlindən?

Üzün payız yarpağı, alnın qırış-qırışdır,
Qəlbin qəmlər əlində gah küsdü, gah barışdı.
Ağladın, göz yaşların göz yaşıma qarışdı,
Səni necə qurtarım ağrıların əlindən?

Dodağını yandıran haraydımı, ündümü?
Kərpic-kərpic sökülən ömürdümü, gündümü?
Bu bulanıq suları durultmaq mümkündümü?
Səni necə qurtarım ağrıların əlindən?

Allahı çağırırsan, eşqin Allaha çatmır,
Eşitmir vəzir, vəkil, əllərin şaha çatmır,
Mənim gücüm çəkdiyin aha, ağrıya çatmır,
Səni necə qurtarım ağrıların əlindən?

Nə şaham, nə Allaham, nə peyğəmbər, nə sultan,
Qəlbindən keçənləri yaratmağa yox imkan.
Təbiətdə qasırğa, cəmiyyətdə sərt tufan,
Səni necə qurtarım ağrıların əlindən?

Sən millətin övladı, mən millətin vəkili,
Ürəyim cadar-cadar, yuxum ərşə çəkili.
Əlim göyə uzalı, gözüm göyə dikili,
Səni necə qurtarım ağrıların əlindən?

2000, 26 noyabr

HƏR ŞEYİN SAHİBİ, AĞASI BƏLLİ

Siyasət içində siyasətə bax,
Ticarət içində siyasətə bax,
Kimi Allaha söyür, kimi bəndəyə,
Söyüşə, təhqirə, şikayətə bax.

Kimdi şəhərlini, kəndlini sayan,
Sözünü kim tutur bir ağsaqqalın?
Hər şeyin sahibi, ağası bəlli,
Böyüyü, kiçiyi, çağası bəlli.
Bazar tacirindi, dükan baqqalın,
Meşənin nəyi var vəhşilərindi,
Ruzu canavarın, toyuq çaqqalın.

Əlilin dükanı əlilin deyil,
Canı sağ-salamat "əlil"lərindi.
Zəlilin yardımı zəlilin deyil,
Diplomlu, savadlı "zəlil"lərindi.

Soruşma bu kimin, bu nəçinindi,
Elə bilmə ki,
Papaqçı dükanı papaqçınındı,
Pinəçi dükanı pinəçinindi.
Aşkarda əl açıb dilənənlərin,
Gizlində piylənmiş dədələri var.
Min yerdən sarsılan bu cəmiyyətin
Ürəkdə sağalmaz zədələri var.
Möcüzə baş verə, qəfil möcüzə,
Görünən adların arxasındakı
Görünməz adları görən tapıla.

Dəli dalğalara, sərt tufanlara
Çıxıb, sinəsini gərən tapıla.
“Yağı yağ üstünə çıxa” millətin,
Ayranı biryolluq ayranlıq ola.
Ya aydınlıq gələ qaranlıqlara,
Ya da birdəfəlik qaranlıq ola.

2000, 23 aprel
Ankara

YERİNİZ YAMAN GÖRÜNÜR

Bu yol sona varan deyil,
Hər yanı duman görünür.
Aşırımlar sınağında,
Çətin bir zaman görünür.

Gözüm gördü hər həkəti,
Tərsinədi hərəkəti.
Göyə çıxıb bərəkəti,
Nə din, nə iman görünür.

Canımıza canlıq deyil,
Nökərlikdi, xanlıq deyil,
Dünya qəzəlxanlıq deyil,
Nə qəzəl, nə xan görünür.

İsti yurdum-yuvam hanı,
Ağır elim, obam hanı.
Qan yatırdan babam hanı,
Hara baxsan qan görünür.

Pələng ürəkli kişilər,
Qaya kürəkli kişilər,
Duzlu-çörəkli kişilər,
Yeriniz yaman görünür.

2000, 14 fevral

YENƏ BAHAR GƏLİB

Yenə bahar gəlib, torpağa bahar,
Mənimsə qəlbimdə bir göynərti var.
Neçə əziz dostum, yaxın sirdaşım,
Qışın sınağından yaza çıxmadı.
Dərd kimi göndərdi cəzanı Allah,
Canımdan, qanımdan qəza çıxmadı.

Soldu yanaqları tər çiçəklərin,
Qurudu budaqda şeh, arı gəlməz.
Neçə payız gedər, bahar qayıdar,
Mənim dostlarımın baharı gəlməz.

Qoyur sapandına, mancanağına,
Bizi hara gəldi atır, yorulmur.
Əcəl yaman dönüb qan çanağına,
Hər gün günahlara batır, yorulmur.

Yenə bahar gəlib, torpağa bahar,
Mənimsə qəlbimdə bir göynərti var.
Torpağa nə qədər toxum səpildi,
Göz yaşı tökürəm bitməyənlərə.
Nə köməyim çatır, nə əlim yetir
Əli bir tərəfə yetməyənlərə.

2000, 9 fevral

HÜSEYN ARİF MƏCLİSİ

Bakıda "Səda" deyilən mədəniyyət evində unudulmaz xalq şairimiz Hüseyn Arifin xatirəsinə həsr olunmuş kövrək bir məclis təşkil edilmişdi. Şairin haqqında yazılan şeirlər toplusunun təqdimat mərasimi keçirilirdi. Kövrələn könüllər, yaşaran gözlər var idi. Məclis məni tutmuşdu. Bütün məclis Hüseynli və Arifli günlərə, Hüseyn Arifli xatirələrə qayıtmışdı. Qağalı, qağasız günlərə köklənən ovqatım misralara düzüldü, sətirlərə döndü. Könül sazımın zilini zil, bəmini bəm, sinəmə müstəhkəm elədim, təbiət aşiqi bir kişinin – şairin, ozanın, aşiqin, səyyahın eşqinə asta-asta oxumağa başladım.

Hüseyn Arif məclisiydi
bir yaz günü,
Öz sözünü bahar deyir,
yaz deyirdi.
Hamı şirin, hamı kövrək,
hamı həssas,
Şair, götür bu lövhəni
yaz deyirdi.

Bu gün məclis Hüseyn Arif
məclisiydi,
Xoş xatirə, şirin tərif
məclisiydi.
Qəlbin yuxa, ruhun zərif
məclisiydi,
Öz sözünü qaş deyirdi,
göz deyirdi.

Biri dedi, səyyah idi,
ozan idi,
Biri dedi, haqq dilində
yazan idi,
Biri dedi, şaxta vurmuş
xəzan idi,
Kim nə desə, haqlı deyir,
düz deyirdi.

Sərraf idi, tükü tükdən
seçən kişi,
Dərdin dolu badəsini
içən kişi.
Sinəsində oğul dağı
köçən kişi,
Öz dərdinə yara üstə
duz deyirdi.

Ah çəkəndə dodaq yanır,
dil əsirdi,
Baş titrəyir, bel bükülür,
əl əsirdi.
Arif deyib, o dünyaya
tələsirdi,
Məni ora tez aparın,
tez, – deyirdi.

Oğul dağı... qara tale,
qara yazı,
Yağdırırdı üstümüzə
qar, ayazı.
Kövrəlmişəm, ay Zəlimxan,
götür sazı,
Pərdələrdə asta-asta
gəz, deyirdi.

Bir dağ kəli yaralandı,
yandı həyat,
Şair qəlbi yeddi yerdən
qat verdi, qat.
Oğulsansa, sinəni gər,
qolunu at,
Bu kədərin dəryasında
üz, deyirdi.

Dar bir koma sarayıydı,
şəhəriydi,
İki gözü Zöhrəsiydi,
Səhəriydi.
Yer üzünün ən ağrılı
xəbəriydi,
Nə zaman ki, Arifdən bir
söz deyirdi.

Ürəyini döndərmişdi
qəmli neyə,
Hey gəzirdi, sığışmırdı
yerə, göyə.
"Sözdə Vurğun, sazda Mirzə"
deyə-deyə,
Onlar haqda az demişəm,
az, deyirdi.

Odda yanıb, suya düşüb,
qardan keçib,
Sınaq görüb, çətin görüb,
dardan keçib,
Bu od-alov ürəyimə
hardan köçüb,
Ocaq dinir, qor danışır,
köz deyirdi.

Güc verirdi dua kimi,
əzan kimi,
Qaynadırdı bizi qaynar
qazan kimi.
Bir şairə "uğurlu yol"
yazan kimi,
Sevinirdi, bir ömrünə
yüz deyirdi.

Qoca dağlar əsdirirdi
küləyini,
Meşəbəyi çırmamışdı
biləyini.
Ləzgi qızı yandıranda
ürəyini,
Qoca şair baxışlara
köz deyirdi.

Qarabağı, qara bağrı
para-para,
Sinəsinə çalın-çarpaz
vurdu yara.
Qanlı fələk, mən çəkdiyim
ağrılara,
Hünərin var, duruş gətir,
döz, deyirdi.

Torpaq dərdi, gözündə yaş,
könlündə qəm,
Alışırdı öndə varaq,
əldə qələm.
Dur, Zal qızı, nə yatmısan,
Qaçaq Kərəm,
Qalx, düşmənin kəlləsini
əz, deyirdi.

Hər kimdə ki ləngər yoxdu,
çəki yoxdu,
Ləngərində yerin-göyün
yükü yoxdu,
İkicə söz işlədirdi –
“kökü yoxdu”,
Köksüzlərə kül deyirdi,
köz deyirdi.

Şeirimizin salxımıydı,
saplağıydı,
Misraları yaman gözün
bıçağıydı.
Yaxşı şeirin xəstəsiydi,
naçağıydı,
Sözü üzə tənbeh kimi
düz deyirdi.

Həmdəm oldu bir gün toya,
bir gün yasa,
Yurdu gəzdi dəmir çarıq,
dəmir əsa.
Əbədiyyət yollarına
qovuşmasa,
İtəsidi sən saldığın
iz, deyirdi.

Yaddaşlarda qalmaq çətin,
ölmək asan,
Kökün yoxsa, dada çatmır
nə ad, nə san.
Öz ruhuna, öz nəslinə
tapınmasan,
Bu dünyadan əllərini
üz, deyirdi.

El bilirdi öz oğlunun
qiymətini,
Yaşadırdı nəfəsini,
hikmətini.
Bir məclisin yetmiş illik
söhbətini
Söz dillənir, söz danışır,
söz deyirdi.

Harda qəmli adam görsə,
qış günüydü,
Harda xoşbəxt insan görsə,
xoş günüydü.
Nə var-dövlət, nə şan-şöhrət
düşkünüydü,
Son qazanca beşcə arşın
bez, deyirdi.

Söz dünyası min naxışlı
əlvan xana,
Bir ovsundu, həyat verir
ruha, cana.
Saf duyğular pıçıltıyla
Zəlimxana,
Hüseyn Arif dastanını
yaz deyirdi.

2001, 20 iyun

HÜSEYN ARİF
SAĞ OLAYDI

Canımdan bir ağrı keçdi,
Hüseyn Arif sağ olaydı.
Solmayaydı şair ömrü,
Yamyaşıl bir tağ olaydı.

Qəlbə yaxın, gözdən uzaq,
Ruhumu göynətdi sazaq.
Söhbətimiz sərin yaylaq,
Başıqarlı dağ olaydı.

Ovlanaydı cüyür, təkə,
Buğlanaydı yağlı tikə.
Meşəbəyi kabab çəkə,
Damağımız çağ olaydı.

Neçə əri, neçə mərdi,
İldırımlar yerə sərdi.
Nə ürəkdə oğul dərdi,
Nə sinədə dağ olaydı.

Ruhu kövrək, qəlbi zərif,
Halalıydı haqlı tərif.
Ölməyəydi Hüseyn Arif,
Yüz il yaşamaq olaydı.

2000, 1 may

MUĞANNADAN GƏLƏN SƏS

Zəng çalındı. Dəstəyi götürdüm. Min illərin arxasından gələn qədim bir səs eşitdim. Səs onun səsi idi. Telefonda böyük Xalq yazıçımız İsa Hüseynov danışırdı. Sakit və müdrik. Asta və usta. "Ayə, yaman dolmuşam, sən haqda yazmaq istəyirəm. Mənə pıçıltılar göndər", – dedi. Dəstəyi asdı. Tanrının işinə bax ki, o anlar mənim də ruhumun pıçıltılı məqamları idi. Duyğularımız üst-üstə düşmüş, qəlbimizin telləri eyni hava üstə köklənmişdi.

Zəng çaldı gecənin bir aləmində,
Köhnə kişilərdən bir nişan kişi.
Ağardıb saçını dünya qəmində,
Yerlərlə, göylərlə danışan kişi.

Zəngin səsini də pıçıltı bildim,
Zərif duyğularla dolub-daşırdım.
Ustad çağıranda yerdə deyildim,
Göydə ərənlərlə pıçıldaşırdım.

Haqqın əsəridi dağlar, dərələr,
Ətəkdə çiçək var, zirvədə qar var.
Selin coşmağında dəli nərələr,
Qarın yağmağında pıçıltılar var.

Dinər pıçıltılar hey sərin-sərin,
Xəyalın qanadı, ruhun səsidi.
Sevirəm deyəndə sevgililərin,
Meh vuran gül kimi titrəməsidi.

Duyub düşünməkdi işin çətini,
Baxdım, yarpaq ilə meh pıçıldadı.
Göylərin yerlərə məhəbbətini,
Çiçəklə öpüşən şeh pıçıldadı.

Əyil, bu hikmətin önündə əyil,
Hay-küy ağ köynəkdə qara yamaqdı.
Nə İncil, nə Quran danışan deyil,
Allahla, bəndəylə pıçıldamaqdı.

Ürəkdə doğuldu, ürəyə yatdı,
Söz ruhun meyvəsi, ilhamın barı.
Nə qədər ölümsüz əsər yaratdı,
Şairin Tanrıyla pıçıltıları.

Qəlbin qulaqları açılsa əgər,
Qarışqa səsi də insana yardır.
Nərələr nə vaxtsa susa da bilər,
Əbədi yaşayan pıçıltılardı.

Həyat gizləmədi məndən varını,
Bar verən payızam, qar verən qışam.
Bir şair qəlbinin duyğularını,
Torpağa qar kimi pıçıldamışam.

2002, 17 yanvar

HAQQ ADAMI

Ömrümün-günümün çoxu yollarda, səfərlərdə, məclislərdə, maraqlı şəxsiyyətlərlə ünsiyyətdə keçib. Yaddaşa yazılan, ürəyə köçən, heyrətli və unudulmaz, dirilən və durulan anlarım, dəqiqələrim çox olub.

Böyük şərqşünas, quranşünas alimimiz Hacı Vasim Məmmədəliyevlə müqəddəs məbədgahlara, Azərbaycanın müxtəlif yerlərinə, Borçalı mahalına olan səfərlərimi alın yazısı, tale xoşbəxtliyi hesab edirəm.

Uzun illər ruhumda, qanımda, varlığımda yaşayan, heç vaxt soyumayan isti və doğma duyğularımı Vasimsevərlərə ərməğan edir, ulu Tanrıya əl açıb deyirəm: Allahım! Hacı Vasimlə müqəddəs yerlərdə yolyoldaşı, könül sirdaşı olmaq xoşbəxtliyini heç vaxt mənim əlimdən alma! Amin!

Nə gözəl səfərdi, ay Hacı Vasim,
Səfər adamısan, yol adamısan.
Gəl səni ürəklə bağrıma basım,
Sən haqqın işığı bol adamısan.

Duymuşam, görmüşəm hər nəfəsində,
Kişi çəkisini, alim zəhmini.
Dəniz ləngərində, dalğa səsində
Təzədən tapmışam Əli Fəhmini.

O da şeirimizin canlı heykəli,
O da bir ayrı cür kainatıydı.
Fərhaddan havalı, Məcnundan dəli,
Söz üstə qaynayan bir həyatıydı.

Şirin məclislərdə, bəlkə, min dəfə,
Sən məni yandırıb, kül eyləmisən.

Misralar dilində düzülüb səfə,
Sevginlə tikanı gül eyləmisən.

Necə vurulmayım, axı, mən sənə,
Əruzdu sirdaşın, hecadı dostun.
Füzuli dostusan, min əhsən sənə,
Tarixin özündən qocadı dostun.

Min çeşmə gözü var bir odlu canda,
Sellərin dilində danışan kişi.
Leylidən, Məcnundan söhbət açanda,
Çöllərin dilində danışan kişi.

Hər dəfə Quranı sən oxuyanda,
İslam işıqlanır, insan nurlanır.
Bir saflıq yaranır ürəkdə, qanda,
Qələm qanad açır, söz qürurlanır.

Qarşında hörmətlə əyilər başım,
O səsə heyranam, ünə heyranam.
Kərbəla sirdaşım, Kəbə yoldaşım,
Səni tanıdığım günə heyranam.

Şərqin şairləri tapıb baxtını,
Min kitab yerləşib dolu qəlbinə.
Tanrı elə qurub orda taxtını,
Şeytan tapa bilməz yolu qəlbinə.

Əgər səndən qabaq getsəm dünyadan,
Quranı sən oxu üstümdə mənim.
"Rəngdir"[1] şeirini oxuyan zaman,
Min Kərəm qovrular tüstümdə mənim.

Söz nə möcüzədi, yoxdan var oldu,
Gəl yenə var eylə yoxu, qardaşım.

[1] Səməd Mənsurun məşhur fəlsəfi şeiri nəzərdə tutulur.

Sabiri, Vahidi, Seyid Əzimi,
Davud avazıyla oxu, qardaşım.

Qoy hələ sönməsin gözlərin nuru,
Qoy hələ çalmasın İsrafil suru.
Oxu Şəhriyarı, Səməd Mənsuru,
Şeirin xalısını toxu, qardaşım.

Zaman diri qalar, bircə an ölməz,
Ruh ruha tapınar, canda can ölməz.
Bir gecə yatmasa Zəlimxan ölməz,
Getməsin gözlərə yuxu, qardaşım.

Şair qulaq assın, Allah dinləsin,
Oxu o sözlərdən, oxu, qardaşım.
Ulu səfərlərin, uzaq yolların,
Hələ qarşıdadı çoxu, qardaşım.

Şirin ləhcəmizin, bal dilimizin,
Dadısan, tamısan, ay Hacı Vasim.
Beləcə, qeydinə qal dilimizin,
Füzuli şamısan, ay Hacı Vasim.

Söz gözün işığı, ürəyin yağı,
Sevginin zirvəsi, həsrətin dağı.
Nəsimi dəryası, Hafiz bulağı,
Mövlana camısan, ay Hacı Vasim.

Qüdrətdən işlənib ilməsi, sapı,
Dağılmaz Quranda yapılan yapı.
Dərgahda üzünə açıqdır qapı,
Allah adamısan, ay Hacı Vasim.

2002, 30 iyul

GÜNLƏRİN AĞSAQQALI

"Ən əziz, ən şirin, ən acı günlər" şeirinin müəllifi Cabir Novruza

1971-ci ildə sevimli Xalq şairimiz Söhrab Tahirin anası Nəsibə xanım 26 illik ayrılıqdan sonra Təbrizdən Bakıya şair oğlunun görüşünə gəlmişdi. Bu gəliş bütün Azərbaycan şairlərini həyəcana gətirmiş, Söhrab Tahirin qələm qardaşları, könül dostları bu göynərtili hadisəyə ən isti misralar həsr etmişdilər. Ən gözəl şeirlərdən birini mərhum Xalq şairimiz Cabir Novruz yazmışdı. "Ən əziz, ən şirin, ən acı günlər" adlı bu şeir mətbuatda dərc olunan günün səhəri ayrılıqla, həsrətlə bağlı iki dost və ustad şairin yaşadığı həyəcanlı duyğuları mən də yaşadım. 32 il bundan əvvəl Cabir Novruza həsr etdiyim bu şeiri bir təsadüf nəticəsində arxivimdən tapmışam. Nəsibə ana da, Cabir Novruz da artıq haqqın dərgahına qovuşublar. Onlara Allahdan rəhmət diləyir, ruhlarını şad eləmək üçün bu şeiri əziz oxucularımın ixtiyarına verirəm.

Şair dostum, canım qurban olaydı,
Sevincimiz bulaq olan günlərə.
Gəlişində görüş, sevgi gətirən,
Hər ağrıdan uzaq olan günlərə.
Səksən yaşlı bir nigaran ananın
Öz evində qonaq olan günlərə.
Ana görən qırx yaşında kişinin
Sevincindən uşaq olan günlərə.
Odun olub atılaydı bədənim
Ürəyimiz ocaq olan günlərə.

***

Öz evində gəldi-getdi olarmı?
Niyə gəldi, niyə getdi bir ana?!
Bahar olmaz, çiçək açmaz bağları,
Dərd əlindən könül qalsa virana.
Şair qardaş, ana əli dəyməsə,
Kimlər gəlib məlhəm qoyar yarana?
Oğul saçı daraq, külək istəməz,
İstər ana barmağıyla darana.
Söylə, kimdi günahkarın, əzizim,
Ayrılığı kim salıbdır arana?!

***

Nə əridin, nə utandın, nə bezdin
Sərt qayalar inadınmı, ayrılıq?!
Başım üstə nə havalı gəzirsən,
Əsən külək qanadınmı, ayrılıq?!
Qardaşımın mənsiz keçən illəri,
Neçə ildi, sanadınmı, ayrılıq?!
Göynədimi, sızladımı ürəyin,
Heç mənimtək qanadınmı, ayrılıq?!

***

Sənin hökmün dağlar çəkdi sinəmə,
Bostan kimi uraladın könlümü.
Qara çəkdin ağ bəxtimin üstünə,
Əllərinlə qaraladın könlümü.
Döyünərmi ürək iki bölünsə,
Qılınc vurdun, paraladın könlümü.
Baş ağılsız, bədən ruhsuz neyləsin?
İstəyindən araladın könlümü.
Tərlan olub havalanmaq istədim,
Qanadından yaraladın könlümü.

***

Bəsdir, daha inadından əl götür,
Qoy, az çoxa, çox da aza qovuşsun.
Bir yerindən qovuşmaqla neyləyər?
Min yerindən Kür Araza qovuşsun.
Od nəfəsi sal buzları əritsin,
Qız oğlana, oğlan qıza qovuşsun.
Aşıq könlü yetim qalar nəğməsiz,
Eşqi, ruhu telli saza qovuşsun.
O taydakı qardaşımın qış günü,
Bu taydakı güllü yaza qovuşsun.

***

De, nə qədər qardaşımız, bacımız
Çörək deyib, özgələrə əl açsın?
Qələm çəkən ayrılığa, həsrətə
Sevincindən daşlar belə dil açsın.
Bayram etsin Azərbaycan torpağı,
Süfrəsini oba açsın, el açsın.
Sözümüzdə o tay-bu tay olmasın,
Əməl bağı başdan-başa gül açsın.

***

Onda qoşaq nəğməsini, şeirini
O oğullu, o analı günlərin.
Rəngi, ruhu bu dünyanı bəzəsin
O bəzəkli, o xınalı günlərin.
Şərik olaq sevincinə, dərdinə,
Dərdimizdən yaxşı hali günlərin.
Hansı gün ki, yola saldıq həsrəti,
O gün olsun ağsaqqalı günlərin!!!

1971

ÜZRXAHLIQ

"Space" televiziya kanalında "Günaydın" səhər verilişində çıxış edirdim. Vəfa adlı bir jurnalist xanımın "Zəlimxan müəllim, dənizlə aranız necədir?" sualına – "Dənizi o qədər də sevə bilmirəm, mənimki dağlardı, mən dağlarda doğulmuşam", – şəklində verdiyim cavab verilişə qulaq asan xalq şairimiz Qabilin haqlı narazılığına səbəb olmuş və "Zəlimxan, dənizdən gəl üzr istə" misrası ilə başlanan bir şeir yazmışdı. Mən də ustad şairimizin diqqətinə minnətdarlıq duyğuları ilə bağlı üzrxahlıq ruhunda bir şeir yazdım.

Əziz oxucular! Buyurun oxuyun!

Oxudum şeirini, Qabil müəllim,
Sözündə danlaq var, hökm var, ərk var.
Ustad bir şairin təfəkküründə
Sulara sevgi var, dənizi dərk var.
"Zəlimxan, üzr istə Xəzərdən", – dedin,
"Salma dənizləri nəzərdən", – dedin.
Bu dağla, bu daşla, torpaqla bağlı
Ruhumda minlərlə şərqi var, ustad!
Mənim istəyimdə, məhəbbətimdə
Dağ ilə dənizin fərqi var, ustad!
Dəniz görməmişdim dağı görəndə,
Dəniz heç yuxuma girməzdi mənim
Dağın ətəyində alı, yaşılı,
Dağın zirvəsində ağı görəndə.
Dənizi sevməyə bilərəmmi mən,
Mənim o kütlüyüm, o keyliyim yox.
Bu dağlar ən doğma duyğularımdı,
Dənizə heç zaman ögeyliyim yox!
Axdım Borçalıdan bir bulaq kimi,
Xəzər sahilində Xəzərə döndüm.

Sazımla, sözümlə, şeiriyyətimlə,
Şəhərdə təzə bir şəhərə döndüm.
Baxdıqca çırpınan qağayılara,
Ruhum da çırpındı ağ qanad kimi,
İçim genişləndi Kainat kimi.
Dünyada hamının Xəzəri yoxdu,
Bu, şair qisməti, şair baxtıdı.
Xəzərin sahili, Xəzərin özü
Təkcə dövlətimin, millətimin yox,
Həm də ürəyimin nur paytaxtıdı.
Gözümün odudu, kənarındakı
Nurlu sahillərdə Bakı var, Bakı!
Bakı! Gəncliyimin sevən çağları,
İşıq dalğaları, nur qaynaqları.
Bakı! Yurdum-yuvam, evim-eşiyim!
Müqəddəs ocağım, isti beşiyim!
Mənim söhbətimin doğma anası,
Mənim taleyimin böyük mənası.
Necə qucaqlaşıb sevgililərtək,
Dəniz şəhərdədi, şəhər dənizdə.
Səpələ ömrünə xoşbəxtlik kimi,
Gör necə açılır səhər dənizdə.
Yaz deyir, gördüyün lövhələri yaz,
Dalğa köpük-köpük, ləpə bəmbəyaz.
Oynadar insanı, atar, yırğalar,
İmtahan yeridir sərt qasırğalar.
Qumlar sığallanar qız əlləritək,
Sular qırçın-qırçın yanar zər kimi.
Hər dalğa söz deyər, şeir oxuyar,
Müşfiqin tarında pərdələr kimi.
İnsan təbiəti dənizə bənzər,
Qabarar, çəkilər, qalxar, uyuyar.
Dəniz təbiəti insana bənzər,
Coşar, sakitləşər, qızar, soyuyar.
Sulara diz çöküb, baş əyməyi var,

Gəzsə də min yolda, min izdə insan.
“Dənizi sevmirəm” – deyən şairə
Bulaq qənim olar, çay qənim olar.
İnciyər göylərin qızıl Günəşi,
Sularla öpüşən Ay qənim olar.
Bir günah dalğası axdı dilimdən,
Qəfil bir xatadı, çıxdı dilimdən.
Dənizi çağırram öz köməyimə,
Yusun, təmizləsin su günahımı.
Səbrin də böyükdü, qəlbin də böyük,
Ey dəniz, ey dalğa, yu günahımı.
Adilsən, qadirsən, ey qadir Allah,
Sən özün bağışla bu günahımı.
Bir qum dənəsi də məndən incisə,
Dağlardan, düzlərdən üzr istərəm!
Xəzərin qəlbinə toxunmuşamsa,
Bütün dənizlərdən üzr istərəm!
Şairim, Qabilim, dostum, qardaşım,
Xəzərə baxanda dolan, kövrələn,
Yaşaran gözlərdən üzr istərəm!
Tanrı çox görməsin mənim ömrümə,
Nə dəniz sevgimi, nə dağ eşqimi.
Bir ovuc torpağa dönənə qədər
Qorusun bir dünya dəniz sevgimi,
Qorusun bir dünya torpaq eşqimi!

2002, 20 sentyabr

RAMİZİN ÖVLADI

2002-ci il aprelin 26-da Musiqi Akademiyasında Xalq artisti Ramiz Quliyevin 55 illiyinə həsr olunmuş yaradıcılıq gecəsi keçirildi. Ramiz müəllim özü boyda oda-alova dönüb dinləyiciləri, tamaşaçıları yandırmaqla məşğul idi. Oğlu Eyyubla səs-səsə, baş-başa verib müqəddəs duyğuların qanadında bizi tanrı dərgahına çağırırdı. Əvvəlcə alqışlar selində itən ata-oğulu məclisin sonunda gül-çiçəklərin içində itən gördüm.

Ürək yüz pay olur, könül min para,
Sıxanda bağrına o tarı, Ustad!
Yenidən qaldırdın ucalıqlara,
"Şüştər"i, "Segah"ı, "Qatar"ı, Ustad!

Güllər dəstə-dəstə dərildi o gün,
Səslər selə döndü, alqışlar çaya.
Qurban da, Əhsən də dirildi o gün,
Sadıqcan yenidən gəldi dünyaya.

Bethoven zirvəsi, Bax ucalığı,
Üzeyir eşqiylə yan-yanaşıydı.
Belə qoruyarlar, bax, ucalığı,
Heyrət – gözlərimin axan yaşıydı.

Barmaq quş lələyi, quş qanadıydı,
Çırpına-çırpına qəlb əsdirirdi.
Bu vergi Tanrının istedadıydı,
Bizi yaşamağa tələsdirirdi.

Bir günlə, gecəylə, sabahla deyil,
Hey axşam oxuyar, hey dan oxuyar.
Dünyanı sevənlər silahla deyil,
İnsana bu tarla meydan oxuyar.

Mum olur qara daş, yumşalır qaya,
Sərtlik zəriflikdən bac ala bilmir.
Gücünü göstərir sənət dünyaya,
Ölüm ölməzliklə bacara bilmir.

Ürəkdi, ağıldı, ruhdu, nəfəsdi,
Yox, sənin çaldığın təkcə tar deyil.
Tarı danışdıran haqq adlı səsdi,
Təkcə Ramiz adlı sənətkar deyil.

Bir də dərk eylədim, səni yandıran
Qarabağ dərdiymiş, Ağdam ahıymış.
Bəxti qan, bağrı qan, yuxuları qan,
Şuşa muğamların qibləgahıymış.

Nə yurd yağmalana, nə ocaq sönə,
Bizim dərdimizə ağlayır o tar.
Bizi əslimizə qaytarır yenə,
Bizi kökümüzə bağlayır o tar.

Könül, bu sevginin önündə əyil,
Bu, ata sərvəti, oğul malıydı.
Ramizin övladı başqa cür deyil,
Elə Ramiz kimi doğulmalıydı.

Sən tara atasan, buna çox şükür,
Eyyub davamçıdı, oğuldu, Ustad!
Cilvələndi Araz, dalğalandı Kür,
Tar o gün yenidən doğuldu, Ustad!

Bu görüş hər zaman düşəcək yada,
O, bir xoş xatirə, o, bir an oldu.
Minlərlə sevənin vardı dünyada,
Biri də çoxaldı, Zəlimxan oldu.

MAHMUDƏLİ
ÇÖHRƏQANLIYA

Millətə can-can deyir,
Zülmətə qan-qan deyir.
Qalx, Azərbaycan! – deyir,
Üz qanlı, çöhrə qanlı.

Düşmən qansız, yağı qan,
Qızardıbdı dağı qan.
Ayranı qan, yağı qan,
Çalxanır nehrə qanlı.

Min bir parçadı ürək,
Qandı yeyilən çörək.
Qılınc, yaba, bel, kürək,
Balta qan, dəhrə qanlı.

Yurda odlar ələndi,
Yerlə göy silkələndi.
Bələk qanla bələndi,
Kök qanlı, pöhrə qanlı.

Ağız açdıq hər yada,
Baxan yoxdu fəryada.
Tahir batdı dəryada,
Yaş tökür Zöhrə qanlı.

Sus, Türk, – deyir, – sus, Turan,
Susmaq bilmir susduran.
Qan qussun qan qusduran,
Baxsın bu sehrə qanlı.

Qardaşım Mahmudəli,
Çoxdu qansoran zəli.
Min ildi Məcnun dəli,
Min ildi səhra qanlı.

Sevindirib yadını,
Qaçırıblar dadını.
Niyə sənin adını,
Qoydular Çöhrəqanlı?!

2002, 26 mart

SƏADƏT BUTAYA

Müasir Azərbaycan poeziyasında, qadın şairlər arasında şeirinin ahəngi, dərdinin rəngi ilə seçilən şairə bacımızdı Səadət Buta!

Yurd ağrısıdı, torpaq nisgilidi, Başkeçid həsrətidi, könül yanğısıdı, göz yaşlarıdı Səadət Buta poeziyası!

Ər yükü daşıyan anadı, himindən yıxılmış binadı, dəstədən üzülmüş durnadı, gölündən ayrılmış sonadı, barmağa həsrət qalmış xınadı, həsrətdən toxunmuş xalıdı, kədərdən qurulmuş xanadı Səadət Butanın şeirləri!

Kövrək bayatıdı, həzin oxşamadı, şirin layladı, toyumuzda naxışdı, yasımızda ağıdı, dərddən danışa-danışa dərdimizi dağıdır Səadət Butanın şeirləri!

Mən onu həmişə sevmişəm gözəl bir şairə, istəkli bacı kimi, adını başımdan uca tutmuşam şahların qızılı tacı kimi, mən onu həmişə duymuşam ruhumun təsəllisi, ağrımın əlacı kimi, Borçalının harayına bir alışıb, bir yanmışıq gur ocağın sacı kimi, o məni həmişə ziyarət bilib, mən onu bağrıma basmışam Məkkədən gəlmiş bir hacı kimi, ikimiz də ucalmışıq duyğuların zirvəsinə, uğurludu yollarımız haqq elçisi Peyğəmbərin müqəddəs meracı kimi!

Şair Zəlimxan Yaqub şairə bacısı haqqında sözlə dediyini sazla deməsə, dili od tutub yanar. Aldı Zəlimxan Yaqub:

Gah yanar, gah sönər söz qovşağında,
Oddadı, sudadı Səadət Buta.
Qəm ilə qohumdu yaranışından,
Dərd ilə qudadı Səadət Buta.

Ruhunu od kimi atıb şeirinə,
Qovuşub ruhuna, çatıb şeirinə.
Torpaqdan götürüb qatıb şeirinə,
Bu tamı, bu dadı Səadət Buta.

Şeiri dan yeridi, yaz havasıdı,
Gözəllik sərgisi, naz havasıdı.
“Başkeçid” adında saz havasıdı,
Daşıyır bu adı Səadət Buta.

Qıymadı mənliyi, vüqarı sına,
Qeyrət qılıncını qoymadı qına.
Atalıq eylədi dörd balasına,
Anadı, atadı Səadət Buta.

Küskün bənövşədi, boynunu bükər,
Şeirinə qul olub, dərdinə nökər.
Dindirsən ağlayıb göz yaşı tökər,
Dindirmə, xatadı Səadət Buta.

Eşqin güllərini yarımçıq dərib,
Duruşu qəmgindi, baxışı qərib.
Tanrı Borçalıya sovqat göndərib,
Sevgidi, butadı Səadət Buta.

2001, 5 fevral

NƏVƏLƏR BÖYÜDƏN VAXTIMIZ GƏLİR

Sahibə xanıma

Dünən yaz günüydük, səhər mehiydik,
Dünən dağ küləyi, çəmən şehiydik.
Dünən iki ömrün, iki talenin,
İki xoşbəxtliyin cavabdehiydik.
Bu gün yavaş-yavaş dağdan aşırıq,
Qarşıdan bir kövrək qocalıq baxır,
Ömrün gəncliyiylə sağollaşırıq.
Nənəli-babalı baxtımız gəlir,
Nəvələr böyüdən vaxtımız gəlir.

Sən nənə, mən baba, iki ixtiyar,
Oğul-qız sarıdan xoşbəxt, bəxtiyar.
Sanbala çox şükür, saya çox şükür,
Allahın verdiyi paya çox şükür.
Tutub körpələrin gül əllərindən,
Bir gün oğul gəlir, bir gün qız gəlir,
Nəvələr gəzdirən vaxtımız gəlir.

İşıqdı ocağa, çıraqdı evə,
"Dövlətdə dəvədi, övladda nəvə".
Oğul kişiləşdi, qız gəlin oldu,
Sevənlər yaratdıq biz sevə-sevə.
Qoca İstanbulda dünyaya gələn
Borçalı nişanlı Turanımız var.
Nənəlik, babalıq gətirib bizə,
Dünyanı təzədən quranımız var.
Nənəli-babalı taxtımız gəlir,
Nəvələr gəzdirən vaxtımız gəlir.

Ömrün gəncliyindən, cavanlığından,
Astaca-astaca uzaqlaşarıq.
Qatar başımızı nəvələrimiz,
Elə özümüz də uşaqlaşarıq.
Sən uşaq, mən uşaq, nəvələr uşaq,
Uşaq bağçasına dönər evimiz.
Körpə nəfəsindən gül ətri gələr,
Çiçək boğçasına dönər evimiz.
Nənəli-babalı vaxtımız gəlir,
Nəvələr böyüdən vaxtımız gəlir.

Qızlara ürəyin odunu verdin,
Əritdin ömrünü oğullar üçün.
Dur sovqat hazırla nəvələrinə,
Hazırla özünü bal bayatılar,
Şirin əfsanələr, nağıllar üçün.
Şirəli torpaqda sağlam toxumdu,
Nağıllar qidadı ağıllar üçün.
Nağıla dönürük ötdükcə illər,
Nağıl danışmalı vaxtımız gəlir,
Nənəli-babalı baxtımız gəlir.

2000, 30 aprel
İstanbul

NƏVƏM TURANA

Evdən ayrılanda beş-on günlüyə,
Məni bir cazibə evə çəkərmiş.
Bütün babaları öz ocağına,
Nəvə çağırarmış, nəvə çəkərmiş.

Yatırmı, durурmu, neyləyir indi?
Başı öz işinə qarışan nəvəm.
Küsəndə titrədib dodaqlarını,
Güləndə yanağı qırışan nəvəm.

Tanrı naxış vurub bu yaraşığa,
O, gülə çevrilib, mən sarmaşığa.
İncə gülüşləri dönüb işığa,
Göydə ulduz kimi sayrışan nəvəm.

İlahi, min şükür, babayam indi,
Könlüm bu eşq ilə dindi, nə dindi.
Yağdan da, baldan da min qat şirindi,
Yarı gül, yarı bal, yarı şan nəvəm.

Sağlam toxum görüm, sağlam dən görüm,
Ruhu oynaq görüm, qəlbi şən görüm.
Bütün nəvələri sevinən görüm,
Olmasın heç zaman pərişan nəvəm.

Çiynimə dırmanan, başıma çıxan,
Küsdürsəm, gözünün yaşını sıxan,
"Babam hanı?" – deyib yollara baxan,
Məni anasından soruşan nəvəm.

Nə ayrılıq ola, nə həsrət ola,
Adının mənası həqiqət ola.
Turan dünyasına bir şöhrət ola,
Öz haqqı uğrunda vuruşan nəvəm.

Dərdi. bir sevdiyi barı Zəlimxan,
Neyləyir sərvəti, varı Zəlimxan.
Yarı Məhəbbətdi, yarı Zəlimxan,
Bizə salxım kimi sarışan nəvəm.

Təsəlli yeridi təkin, yalqızın,
Babalar nəvəsiz, gör, nələr çəkir.
Başı qarışanda oğulun, qızın
Bizi evimizə nəvələr çəkir.

2001, 17 yanvar
Altıağac

NƏVƏLƏR ŞƏHƏRDİ, BABALAR QALA

Mənim gözüm nuru, könlüm işığı,
Sənin doğulduğun şəhərdəyəm mən.
Gözəlim İstanbul açıb qoynunu,
Turan dünyasına səfərdəyəm mən.

Ömrün boğçasında gül tala-tala,
Nəvələr şəhərdi, babalar qala.
Sən mənim ruhumun sazısan, bala,
O sazın kökündə bir pərdəyəm mən.

Torpağım Turandı, yurdum Turandı,
Hayana vardımsa, gördüm Turandı.
Nəvələr içində ordum Turandı,
Babalar içində sərkərdəyəm mən.

2002, 15 iyun

TURANIN ŞEİRİNİ TURANDA YAZDIM

Nəvəm babasından şeir istədi,
Onu ən müqəddəs bir anda yazdım.
Ulu bir şəhərdə ellər-obalar,
Sabah namazına duranda yazdım.

Bir zərrə, bir qətrə, Kainat – nəvə,
Babalar könlündə bu həyat – nəvə.
Gələn sabahlara qol-qanad nəvə,
Mən bu duyğulara varanda yazdım.

Saçan işıq oldu, açan gül oldu,
Nəvə şahlığına canım qul oldu.
Bu şeirin vətəni İstanbul oldu,
Turanın şeirini Turanda yazdım.

2002, 15 iyun

TURANIMA

Ay mənim Turan balam,
İyirmi birinci əsri,
Yenidən quran balam.
Qoy sənə kömək olsun,
Göydəki qadir Allah,
Yerdəki Quran, balam!

NƏVƏM FATEHƏ

Çiçək üstə arımız,
Gül üstündə şehimiz.
Dağlarda küləyimiz,
Bağçalarda mehimiz.
Var olsun türkün ruhu,
Qoy Turan yaşadıqca,
Yaşasın Fatehimiz.

2002, 21 sentyabr

USTALAR

Özümə ev tikir, yuva qururam. Xeyli müddətdir ki, evimizdə ustalar işləyir. Hacı, Mu xtar, Şamil, Ağalar. Hansının adının birinci çəkilməyinə baxmayaraq, hər biri özlüyündə birinciliyə layiqdi. İstər sənətdə, qabiliyyət-də, istər adamlıqda, mərifətdə. Elə bil yüz ildi bir-birimizi tanıyırıq. Doğma qardaş kimi bir-birimizə qaynayıb-qarışmışıq. Onlar artıq mənim tərcümeyi-halımın bir hissəsinə çevrilib, yaddaş və könül dünyama daxil olublar.

Nə zaman gəlirəm
əliniz işdə,
Üstünüz-başınız
toz-torpaqdadır.
İşində heç zaman
xəyanət olmaz,
Haqq iş görənlərin
əli haqdadır.

Hər sığal çəkəndə
daşa, taxtaya,
Sanki saçlarıma
tumar çəkirsiz.
Otaqdan-otağa
işıq teli yox,
Elə bil qəlbimdən
damar çəkirsiz.

Əllər yaraşdırır
kərpici, daşı,
Əllər qaralmasa,
üzlər ağ olmaz.

Sevgidi, ürəkdi,
hər şeyin başı,
Ürəksiz heç nəyi
yaratmaq olmaz.

Gözünüz işıqdı,
qəlbiniz çıraq,
Tanrı ruhunuza
qol-qanad verib.
Allahın verdiyi
xoşbəxtliyə bax,
Gör, sizə nə qədər
istedad verib.

Yaratmaq istəyi
ürəyinizdə,
Bitir sünbül kimi,
dolur dən kimi.
Mişar da, balta da,
mismar da, mıx da,
Sizi başa düşür,
siz deyən kimi.

Nə isə deməyə
ehtiyac olmur,
Fikrimi gözümdən
oxuyursunuz.
Yox, siz bir şairə
ev tikmirsiniz,
Bir sənət xalısı
toxuyursunuz.
Bu, şair evidi,
el qapısıdı,
Gör, bura nə qədər
millət gələcək.

Bura hər gələnin
baxışlarında
Sizə bir əvəzsiz
hörmət gələcək.

Təriniz qarışdı
torpağa, suya,
Hər şeyə baxırdım
mən duya-duya.
Əbədi düşmənəm
başdansovduya,
Baş qoyub, hər şeyi
baş yaratdınız.

Pəncərə dilində,
qapı dilində,
Döşəmə dilində,
tavan dilində,
İlmənin, naxışın,
rəngin, boyanın,
Dili var, dindirib
sevən dilində.
Nə varsa, hər şeyi
danışdırdınız,
Mahir ustalığın
rəvan dilində.
Siz bir möcüzəli
iş yaratdınız,
Dadın bu dünyanın
hər nemətindən.
İştah şəkər olsun,
ağız bal olsun,
Mənə bu zəhməti
halal eyləyin,
Sizə neylədimsə,
qoy, halal olsun.

2002, 13 noyabr

BAKI VAXTI

O vaxt hara, bu vaxt hara,
Orda günün günortası,
burda gecə tən yarıdı.
Bu dəyişmə sənlik deyil,
təbiətin qərarıdı.
Uzaq-uzaq mənzilləri
ömür yolu seçirsənsə,
Qalxıb hava gəmisinə,
Bir qitədən havalanıb
başqasına keçirsənsə,
Dəyiş, dəyiş saatını!
Yerli vaxtın qaydasına
uyğunlaşdır həyatını.
Çərxi döndər, pəri hərlə,
Biləyində bax saata,
əqrəbləri geri hərlə.
Vaxtın zəhmi ağır olur,
az qalır ki, ağıl çaşa.
Hər oğulun ağzı deyil
yerli vaxta uyğunlaşa.
Zaman məndən inciməsin,
mən saatı dəyişmərəm,
Beş-on günün hesabına
Əlli ildir yaşadığım
bir həyatı dəyişmərəm.
Qürbət elə bilməsin ki,
Yerli vaxta uyğunlaşıb
zamanı çaş-baş salmışam.
Bakı vaxtı yada düşüb,
Kirpiyimdən varaqlara
iki damla yaş salmışam.

2001, 9 iyun

BAŞUCALIĞI

Frankfurt-Vaşinqton
təyyarəsində düşüncələr

Əlli il dolandım torpağın üstə,
Heç yanda, heç yerdə mən darıxmadım.
Söhbətdə, harayda, sükutda, səsdə,
Ən uzaq səfərdə mən darıxmadım.

Bir göy uğultusu, bir boşluq səsi,
Darıxdım bu səsdə, küydə darıxdım.
Dəysin ciyərimə yerin nəfəsi,
Darıxdım boşluqda, göydə darıxdım.

Dolaşım torpaqda, kölgədə, gündə,
Məni yerə atın, geri qaytarın.
Qoy göylər dayansın öz göylüyündə,
Mənə öz anamız yeri qaytarın.

Göydə torpaq yoxdu, göydə vətən yox,
Neylərəm gərəksiz, boş ucalığı.
Yüksəklər də çoxdu, ucalar da çox,
Torpaqdı insanın başucalığı.

2001, 8 iyun

TELEFON DANIŞIĞI

Sahibə xanıma

Məndən narahatdı məni sevən kəs,
– Yerin rahatdımı?
– Rahatdır! – dedim.

– Havalar necədir, orda havalar?
– Nə isti, nə soyuq,
babatdır! – dedim.

– Xoşuna gəldimi o mənzərələr?
– Gözəllik, hər yerdə
büsatdır! – dedim.

– Özünü çox yorma, az gəz, az dolan,
– Bu səfər ruhuma
qanaddır! – dedim.

Bu sözlər qoyarmı heç yorulmağa,
Şair sevilirsə, şair sevirsə,
Onun əqidəsi
poladdır! – dedim.

– Günün xoş keçirmi bizdən uzaqda?
– Axırda bir şirin görüşü varsa,
Həsrətin özü də
həyatdır! – dedim.

2001, 9 iyun
Vaşinqton

BƏDBƏXTLİK

İllərlə özünə ailə qura bilməyən, evsiz-eşiksiz qalan, üzünün, başının tükü bir-birinə qarışan, gecələr küçələrdə yatan insanlar da gördüm

Bədbəxtlik deyilmi, oğul olasan,
Bir qız dodağında adın olmaya.
Kişilik yanından xəbərsiz keçə,
Nazınla oynayan qadın olmaya.
Sənincün ləzzəti itə dünyanın,
Damağın olsa da, dadın olmaya.
Bir yuva qızdırıb, yurd isitməyə,
Ocağın olmaya, odun olmaya.
Bədbəxtlik deyilmi, puç yaşayasan,
Yaşadım deməyə dilin gəlməyə.
Bədbəxtlik deyilmi, belə bir ömrün
Başına bir paslı güllə çaxmağa
Barmağın titrəyə, əlin gəlməyə.

2001, 11 iyun
Vaşinqton

YUXUDA AĞ KÖYNƏK GEYMİŞDİM, ANA

Tez-tez kəndimizdə yuxu görərdim,
Yozardım hər şeyi olduğu kimi.
Sənin fikirlərin, düşüncələrin
Məni duruldardı axar su kimi.

Yuxuda ağ köynək geymişdim, ana,
Ağ köynək ağ günün ağ yollarıymış.
Köynək üstündəki yaşıl zolaqlar,
Qoynunda gəzdiyim dağ yollarıymış.

Yuxuda bir ağ at minmişdim, ana,
Gör hara çatdırdı bu ağ at məni.
Vaxtında yetirdi mənzil başına,
Yollarda qoymadı bu həyat məni.

2001, 12 iyun
Vaşinqton

YARADANIN YARATDIĞI

Dünya geniş, yollar uzun, ömür qısa,
Yol gedirik – bir gün toya, bir gün yasa.
Arzulara, istəklərə yetmək üçün
Bəs eyləmir dəmir çarıq, dəmir əsa.

Yorğun düşüb yerlə, göylə bir gəlmişik,
Ağır ellər, uzaq yollar basa-basa.
Bu sonsuzluq Yaradanın qüdrətidir,
Yaradana, yəqin, Allah deməzdilər,
Yer üzünü belə geniş yaratmasa.

2001, 12 iyun
Vaşinqton

ÜŞÜDƏR İNSANI ADI QÜRBƏTİN

Yeri qızıl olsa, göyü zər olsa,
Hər uçuq koması bir şəhər olsa,
Daşları çevrilib ləl-gövhər olsa,
Yenə də qürbətdən vətən yaxşıdır.

Yerini ən uca dərgah eyləsin,
Sənə çox sirrini agah eyləsin,
Səni öz mülkünə padşah eyləsin,
Yenə də qürbətdən vətən yaxşıdır.

Sevgidən yoğrulmuş cənnətində gəz,
Dünyada hüsnünə olmasın əvəz.
Torpağı pir olsun, daşı müqəddəs,
Yenə də qürbətdən vətən yaxşıdır.

Yaxın olan deyil yadı qürbətin,
Üşüdər insanı adı qürbətin.
Baldan şirin olsa dadı qürbətin,
Yenə də qürbətdən vətən yaxşıdır.

2001, 15 iyun
Vaşinqton

TOXLUQ-ACLIQ
MİN İLLƏRİN DAVASIDI

Ölkə geniş, torpaq böyük, dövlət ali,
Yurd kimdədi, yer kimdədi, söz onundu.
Toxluq-aclıq min illərin davasıdı,
Sərvət kimdə, zər kimdədi, söz onundu.

Bu taledi, gah oyanar, gah da yatar,
Bu bazarda kimi alar, kimi satar.
Haqlıların haqqı haqqa çətin çatar,
Güc kimdədi, zor kimdədi, söz onundu.

Güclüsənsə, səni dövlət sayacaqlar,
Xoş sözünü eldən-elə yayacaqlar.
Zəifsənsə, diri-diri soyacaqlar,
Bu gün silah hər kimdədi, söz onundu.

2001, 15 iyun
Vaşinqton

BİLƏN ANCAQ BİR ALLAHDI

Uçub gəldim, keçib gəldim
körpülər, çaylar üstündən,
Qoca dünya bir tamaşa,
insan oğlu bir səyyahdı.
Kim yaratdı bir bu qədər
dəryaları, dənizləri,
İnsan bu işdə acizdi,
tanrı bu sirdən agahdı.

Yaradanın yaratdığı
bu ilahi qüdrət nədir,
Göydən yağıb, yerdən bitən,
bir bu qədər sərvət nədir?
Sonsuzluğa, genişliyə,
ucalığa heyrət nədir,
Hardan biləк, nədən biləк,
bilən ancaq bir Allahdı.

İnsanına, millətinə,
cinsinə bax, irqinə bax,
Bax, baxa bildiyin qədər
qərbinə bax, şərqinə bax.
O baş-bu baş dünyamızda
sən zamanın fərqinə bax,
Bizdə indi axşam düşüb,
burda gülgün bir sabahdı.

2001, 17 iyun
San-Fransisko

DÜNYA NƏHƏNGLƏRİNDİ

Salam, Sakit okeanın gen sahilləri,
Qumlu düzən, meşəli dağ, mamırlı qaya.
Ulu tanrı fürsət verdi bircə günlüyə,
Bu gün sənin gözlərinlə baxdım dünyaya.

Çox görmüşdüm kitablarda, xəritələrdə
Bu gün səni olduğuntək gördüm həyatda.
Ha baxıram, xırdaların yeri görünmür,
Nəhənglərin öz yeri var bu Kainatda.

Babalarım atla gəlib, bəlkə, bir zaman,
Bir quş kimi uçub bu gün qonduğum yerə.
Kimlər qalıb, kimlər gəlib, kimlər göz dikib,
Uşaq kimi heyrətimdən donduğum yerə.

Dəryaların son qatından kim xəbər tutur,
Yəqin, elə göylər qədər qoynun dərindi.
Ölkə kimi, dövlət kimi, şəxsiyyət kimi
Dünya elə tarix boyu nəhənglərindi.

2001, 17 iyun
Sakit okean sahili

İLAHİ, BU DÜNYA NƏ BALACADI

Baxdım bu dünyanın ucalığından,
Baxdım, sonsuzluğun sonu göründü.
Torpağın, günəşin, havanın, suyun,
Cilvəsi göründü, donu göründü.
Gördüm bu axşamı, bu da səhəri,
Bu kəndi, koması, bu da şəhəri.
Ocaqdı, tüstüdü, damdı, bacadı,
İlahi, bu dünya nə balacadı.

Çapdım göy üzündə dəmir atları,
Bu başdan boylandım, o baş göründü.
Bağladım ruhuma yel qanadları,
Tarix varaqlandı, yaddaş göründü.
Bir yanda od tökən yay günəşini,
Bir yanda ələnən qarı da gördüm.
Bir sözün içinə sığışdırmışıq,
Dünya şar kimidi, şarı da gördüm.
Vur-tut bircə sözdü, iki hecadı,
İlahi, bu dünya nə balacadı.

Nə zirvə görünür, nə dağ, nə dərə,
Görünmür gözümə çiçəklər, otlar.
Başımın üstündə at oynadırdı,
Ayağım altında qalıb buludlar.
Fikirdən, xəyaldan geniş bilirdim,
Mən elə bilirdim məndən ucadı,
İlahi, bu dünya nə balacadı.

Yükləri çəkilməz bir yükmüş insan,
Min dəfə dünyadan böyükmüş insan.

İçində tufanlar verib baş-başa,
Dəli dalğalarla qalxır savaşa.
İnsan Kainatı dərk eylədikcə
Özü də böyüyür Kainat qədər.
Ömrü ömürlərin davamındadı,
Diridi, canlıdı bu həyat qədər.
Fikirlər, xəyallar qol-budaqlıdı,
Cahana sığmayan şair haqlıdı.
"Gələn bəzirgandı, gedən xocadı",
Dünya bir uşaqdı, insan qocadı,
İlahi, bu dünya nə balacadı.

2001, 17 iyun
Sakit okean sahili

YENİDƏN VURULDUM AZƏRBAYCANA

Vətən və qürbət mövzuları min illərdi yazılır, nə vətənin, nə qürbətin sözü-söhbəti, şeiri-şeiriyyəti tükənmir ki, tükənmir. Görəsən bu tükənməzlik nəylə bağlıdı. Çörəkdimi, sudumu, havadımı, torpaqdımı, beşikdimi, məzardımı? Unudulmaz görüşdümü, əbədi ayrılıqdımı, nisgildimi, göz yaşıdımı? Deyəsən bu saysız sualların cavabı ancaq o bir sirri-Xudanın işidir. Axı, mən sürgünə getməmişəm, qürbətin zindanında yatmamışam, zorla kimsə məcbur edib göndərməyib, əksinə, böyük bir ölkənin dəvətilə bu ölkəyə gəzməyə, görməyə, duymağa, geniş mənada, tanış olmağa gəlmişik. Ölkə böyük, gəzməli, görməli yerləri çox, gördüyümüz təzadlı mənzərələri bir-birindən maraqlı. Çox qəribə duyğudur. Bir səfərdə bir qitədən başqasına keçəsən, həm Sakit okeanın, həm Atlantik okeanın sularına baş vurasan, körfəzlərə tamaşa edəsən, yenə də vətən üçün darıxasan. Bu nə möcüzədir. 23 günlük səfər bizim üçün 23 il qədər uzun görünürdü.

Vətəndə min dəfə gördüyün insanları, ocaqları, dağları, daşları yenidən dərk edir, yenidən görmək eşqiylə yanıb yaxılırsan. Qürbət sənə vətən sözünü bütün çalarları və genişliyi ilə yenidən göstərir, hər şeyi xəyalında yenidən canlandırır.

Sözün kəsəsi... 23 gün ərzində dilimizdə ikicə söz bitib göyərmişdi: Vətən! Vətən! Vətən! Azərbaycan! Azərbaycan! Azərbaycan!

Can ruhda, ruh canda nə gözəl olur,
Nur gözdə, od canda nə gözəl olur.
Uzaqdan baxanda nə gözəl olur,
Bal kimi süzüldüm pətəyə, şana,
Yenidən vuruldum Azərbaycana!

Bilir dəyərini doğmanın, yadın,
Durur keşiyində ismətin, adın.
Kişisi kişidi, qadını qadın,
İlahi sevgilər can verir cana,
Yenidən vuruldum Azərbaycana!

Qürbətdə nə varsa quru göründü,
Vətən saf göründü, duru göründü.
Vətəndə gözümün nuru göründü,
Axdı məhəbbəti iliyə, qana,
Yenidən vuruldum Azərbaycana!

Hər çəmən bərəkət, hər çiçək ocaq,
Saf könül bir ürək, saf ürək ocaq.
Ağsaqqal and yeri, ağbirçək ocaq,
Baxdım göylərində sökülən dana,
Yenidən vuruldum Azərbaycana!

Bilməm nə hikmətdi, bilməm nə sirdi,
Həsrətdən ürəyim tir-tir əsirdi.
Qürbət ayaq altda boz bir həsirdi,
Vətən min naxışlı, ilməli xana,
Yenidən vuruldum Azərbaycana!

Sızladı, qolumun gücü göynədi,
Ruhumun qalası, bürcü göynədi.
Göynədi, burnumun ucu göynədi,
Ürək coşa-coşa, dil yana-yana,
Yenidən vuruldum Azərbaycana!

Bu, torpaq sevgisi, bu, daş sevgisi,
Bu, tarix sevgisi, yaddaş sevgisi.
Bütün sevgilərin bu, baş sevgisi,
Qoyarmı çevriləm qibləmdən yana?
Yenidən vuruldum Azərbaycana!

Ruhumu bədənsiz eyləmə, Allah,
Ölümü kəfənsiz eyləmə, Allah,
Heç kimi vətənsiz eyləmə, Allah.
Analar içində müqəddəs ana,
Yenidən vuruldum Azərbaycana!
Yenidən vuruldum Azərbaycana!

2001, iyun
Amerika

AMERİKA

Böyükdür bu ölkə, alidir bu ölkə,
Elə bil Allahın əlidir bu ölkə.
Öyrənən öyrənsin, götürən götürsün,
Dünyanın tərəqqi yoludur bu ölkə.
Yadlarla doğmalar qaynayıb-qarışıb,
Gələnlə, gedənlə doludur bu ölkə.
Sağalıb köhnədən vurulan yaralar,
Gəlib bir araya ağlarla qaralar.
Bu yeri kim verib bəşərin oğluna?
Bu yeri kim salıb Kolumbun ağlına?
Sərxoşdur, meyxoşdur, azaddır insanı,
Uçan var, qaçan var, sürünən, ölən var,
Təpədən dırnağa təzaddır insanı.
Qorxu yox onunçün nə Hinddə, nə Çində,
Ölkələr, dövlətlər əmrinə müntəzir,
Dünyanın hər yeri ovcunun içində,
Haranı istəsə uçurur, sökdürür,
Haranı istəsə beş günə çökdürür,
Haranı istəsə yaradır, yaşadır,
Haranı istəsə dağıdır bu ölkə.
Bir olan Allahın xətrinə dəyməsin,
Dünyanın allahlıq çağıdır bu ölkə.

2001, iyun
Nyu-York

BU DA AMERİKADIR

Sevgisini duymuram,
gözdən oxunur kini,
Yazıq bir kökə düşüb,
yaman bir gündə yatır.
Dünyanı qucaqlayan
bir ölkənin sakini
İtini qucaqlayıb,
daşın üstündə yatır.

2001, iyun
Sakramento,
Kaliforniya ştatı

AĞACLAR

Dünyanın heç bir ölkəsində Amerikadakı qədər nəhəng ağaclar görməmişəm

Elə bil göylərə meydan oxuyur,
Qarlı zirvələrlə bu tən ağaclar.
Kökü qayaların qatından keçən,
Başı fələklərə yetən ağaclar.
Maşınla keçirik göy meşələrdən,
Bir-bir xəyalımda dağtək canlanır,
Bir-bir gözlərimdən itən ağaclar.
Bir yarpaq salsalar qiyamət qopar,
Vətənin özütək müqəddəsləşib,
Bu torpaq ağaclar, vətən ağaclar.
Kökü torpaq olar, qır ola bilməz,
Cılız ola bilməz, cır ola bilməz,
Belə bir ölkədə qayğılar görüb,
Belə bir ölkədə bitən ağaclar.

2001, iyun
Vaşinqton

ÜÇ ÇEŞMƏ

23 günlük səfər yoldaşlarım Mais Səfərliyə,
Səyyad Arana, Mixail Zabelinə

Hər yoldaş bir arxa, bir dayaq yeri,
Hər dost uçmaq üçün quş qanadıymış.
İnsanın özüymüş od-ocaq yeri,
Qayğılar insanın baş qanadıymış.

Səfərdə ucalır, balacalaşır,
Səfərdə böyüyür, kiçilir insan.
Saflığı varsa da qaynayır, daşır,
Bulaq suyu kimi içilir insan.

Qaşın çatılanda alır üstünü,
Alışır, səməndər quşuna dönür.
Yandırır ocağı, qovur tüstünü,
Başına fırlanır, başına dönür.

Yolunda yorulsan, "uf" demə qəti,
Gözəl adamların özü ziyarət.
Könül ver, yaxından duy təbiəti,
Duru bulaqların gözü ziyarət.

Yaxşı oğullarla yola çıxanda,
Nə ağrın, azarın, nə sancın olur.
Kişi əllərini möhkəm sıxanda,
Həqiqət, cəsarət qazancın olur.

Sağlamdır özülü, möhkəmdir himi,
Ömrümü verərdim onlara bu dəm.

Kolumb Amerika kəşf edən kimi,
Mən də bu dostları kəşf eyləmişəm.

Gör neçə iqlimdən iqlimə keçdim,
Zərrəcə düşmədim qəmə, dərdə mən.
Qaynar çeşmələrin gözündən içdim,
Üç çeşmə qazandım bu səfərdə mən.

2001, iyun

DANIŞAMMIRAM

Vətənin dilində danışdır məni,
Qürbətin dilində danışammıram.
Tanrı nə dərd verib mühacirlərə,
Hicrətin dilində danışammıram.

Baxdım bir kimsəsiz kəsə, darıxdım,
Qəribdən duyduğum səsə, darıxdım.
Nəsə tasalandım, nəsə darıxdım,
Xiffətin dilində danışammıram.

Dinim söaz dilində, kaman dilində,
Coşum dağ dilində, duman dilində.
Uzun ayrılığın yaman dilində,
Həsrətin dilində danışammıram.

2001, 9 iyul
Vaşinqton

MUSİQİ MAĞAZASI

Nyu-York şəhərində bütün dünyada məşhur olan Brodyev adlı bir küçə var. Bu küçə gecələr başdan-başa işıq selinə, işıq axarına dönür. Baxanda elə bilirsən günəşin bir parçası qopub bu yerin üstünə düşüb. Bu küçədə dünyanın bütün xalqlarının musiqi xəzinəsini özündə əks etdirən çox böyük bir musiqi mağazası var. Qulaqcığı qulağına tax, hansı xalqın musiqisini istəyirsənsə, istədiyin qədər dinlə, sev, ləzzət al. İstədiyin musiqi valını ən qiymətli hədiyyə kimi götür, dünyanın harasına istəyirsən apar. Klassik və müasir musiqi nümunələrinə qulaq asdıqca adama elə gəlir ki, bu geniş salonda, mənəvi dəyərlər mərkəzində bütün dünya xalqlarının ürəyi döyünür, səsi eşidilir, ruhu çırpınır. Ancaq təəssüflər olsun ki, axtarsaq da, bu ruhlar, bu səslər dünyasında Azərbaycan musiqisindən bir dənə də olsun əsər-əlamət görmədik.

23 gün vətəndən ayrı düşən, uzaq Amerika qitəsində Azərbaycanın səsi, sözü, ruhu, müqəddəsliyi üçün darıxan bir ruh adamından ötrü bu yoxluğun nə dərəcədə ağır və nisgilli olduğunu həssas oxucu çox aydın başa düşər.

Bu səslər hamısı tanrı töhfəsi,
Gur səslər içində bir səs gəzirdim.
Qürbət soyuğunda üşüyən kəsi
Ovudan, qızdıran nəfəs gəzirdim.

Bura ayrı yerdi, ayrı həyatdı,
Hanı bu həyatın Azərbaycanı.
Üzeyir ayrıca bir Kainatdı,
Hanı Kainatın Azərbaycanı.

Qəlbin çırpıntısı, ruhun bəstəsi,
Hanı "Kürd ovşarı", hanı "Şur", görən?
Zirvələr fəth edən Xan şikəstəsi
Niyə bu zirvəyə qovuşmur, görən?

Hanı yurdumuzun səs şəlaləsi,
Gələ, daşa burda, tökülə burda.
Hanı saz harayı, kaman naləsi,
Dağlar qaya-qaya sökülə burda.

"Segah" şirinliyi dönüb bal olsa,
Həsrəti çiynimdən ata bilərdi.
"Yanıq Kərəmi"dən bircə xal olsa,
Sevincdən ürəyim yata bilərdi.

Batmış gəmi kimi cumdum dərinə,
Ölürəm, ölənə bir həyat verin.
Çörək əvəzinə, hava yerinə,
Mənə bircə parça muğamat verin.

Yaman darıxmışam bu yad şəhərdə,
Bir "Misri", bir "Cəngi" dirildər məni.
Axsa ürəyimə səs pərdə-pərdə,
O səsin çələngi dirildər məni.

Qədir zənguləsi, Alim cəh-cəhi,
Allah vergisidir, vergim bəs hanı?
Yerin şadlığıdı, göyün fərəhi,
Bu səs dünyasında sərgim bəs hanı?

Bu da Qarabağın taleyidimi,
Min yerdən dolaşıb, düyünə düşə.
Səsimiz çatmaya kar qulaqlara,
Zamanın səsinə, küyünə düşə.

Duy, nədir qəlbimdə coşan nəğmələr,
Tanı Amerika, haqqımı tanı!
Allah ölkələrə salanda nəzər,
Sazından, sözündən, muğamatından,
Səsindən tanıyıb Azərbaycanı!

2001, iyun
Nyu-York

VARLIĞA NƏ DARLIQ

Vaşinqton zooparkında nümayiş etdirmək üçün
Amerikaya Çindən nəsli kəsilməkdə olan ağ ayılar gətirilib.
İlinə bir milyon dollar haqq verilir

Yeri-göyü meşələr, qayalıq, kaha,
Qalxır, yumalaşır, atılır, düşür.
Qiyməti milyon qat özündən baha,
İnsanlar ayıya baxır, gülüşür.

Varlığa nə darlıq, güclüdür ölkə,
Onu düşündürmür pul ağırlığı.
Onun marağına düz gəlsə, bəlkə,
Filə qızıl verər fil ağırlığı.

O elə güclüdür, haranı desə,
O yeri qazantək qaynada bilər.
Hansı bir ölkəni meyli istəsə,
Elə bu ayı tək oynada bilər.

Başında tufanlar, şimşəklər çaxıb,
Millət var – qazancı yumruq, təpikdir.
Ayının qiyməti, gör, hara qalxıb,
İnsan var qiyməti iki qəpikdir.

2001, iyul
Vaşinqton

MƏLƏK KİMİ

Ömrün boyu haqqa tapın, haqqa güvən,
Güclü nə var, haqqı sevən ürək kimi.
Tükənməzdi ilahinin bərəkəti,
Sünbül kimi, zəmi kimi, çörək kimi.

Qayaların duruşunu yadına sal,
Qartal kimi zirvələrə qonsun xəyal.
Bu quzeyin yaddaşında qar kimi qal,
Bu güneyin yaddaşında çiçək kimi.

Ürəyində Allah verən nuru saxla,
İçərini bu şeh kimi duru saxla.
Odu saxla, közü saxla, qoru saxla,
Köçəndə də köç dünyadan mələk kimi.

2001, 10 yanvar
Altıağac

TANRIYLA GÖRÜŞ

Canı haqdan əziz bildik,
Can vermədik Tanrıya, can.
İnsan onda yıxıldı ki,
Yol getmədi Tanrıyacan.

İştahanın cazibəsi,
Göyü çəkdi, yeri çəkdi.
Tamah tutdu ətəyindən,
Var gücüylə geri çəkdi.

Gözümüzə görünmədi,
Baxdıq, Tanrını görmədik.
Dolaşdıq ondan bəridə,
Ondan anrını görmədik.

Din dünənin söhbətidi,
Tanrı sığmaz dünənlərə.
Allahlar da qibtə edir,
O dərgaha dönənlərə.

Yerə baxma, göyə baxma,
Nə kitabda, nə dində gəz.
Uzaqlarda tapammazsan,
Tanrını öz içində gəz.

Atıb mənəm mənəmliyi,
İt nəfsi tərk etmək üçün,
Tanrıyla görüşmək üçün,
İnsanı dərk etmək gərək.

2001, 11 yanvar
Altıağac

KÖMƏYƏ HAQQI ÇAĞIRIN

Gəmisi darda qalanlar,
Zəmisi qarda qalanlar,
Namusu torda qalanlar,
Köməyə haqqı çağırın.

Halal haqqı əzilənlər,
Düzü tərsə yozulanlar,
Bəxti qara yazılanlar,
Köməyə haqqı çağırın.

Güldən çox alaq görsəniz,
Xeyrə şər calaq görsəniz,
Çarmıx, daşqalaq görsəniz,
Köməyə haqqı çağırın.

Əl üzməyin ətəyindən,
Balı süzün pətəyindən.
Çəkinməyin kötəyindən,
Köməyə haqqı çağırın.

Var-dövlət də, ad da yalan,
Damaqdakı dad da yalan,
Dost da yalan, yad da yalan,
Köməyə haqqı çağırın.

Çiyinləri əyəndə yük,
Başda biz-biz duranda tük,
Eşqi uca, səbri böyük,
Köməyə haqqı çağırın.

Bəndənin verdiyi ahdı,
İşi-gücü suç-günahdı.
Haqqın ünvanı Allahdı,
Köməyə haqqı çağırın.

2001, 25 noyabr

NƏZARƏT

İlahi çox gözəl bilir,
Kimin harda nə zibili,
nə zəri var.
Yerə girsən, göyə çıxsan
Elə bilmə gizlənmisən,
Hər zərrədə Yaradanın
nəzarəti, nəzəri var.

2001, 2 iyul

TƏK OLMAMIŞAM

Səsimi həmişə
eşidib zaman,
Mən zərin şeşiyəm,
yek olmamışam.
Ruhumda Allah var,
qəlbimdə insan,
Heç yerdə, heç zaman
tək olmamışam.

2002, 30 sentyabr

ÖMÜR-ZAMAN

Çağladı sellər kimi,
ömrümdən axdı,
Zamanın qarşısında
duruş gətirəmmədi.
Axdı, fəsillər axdı,
Cilovlaya bilmədik
ayları, fəsilləri.
Dayandıra bilmədik,
Balıq kimi sürüşüb
əldən çıxan illəri.
Bu duyğular içində
qəlbimdən qanlar axdı,
Qara sevdalar kimi,
Başımın üzərindən
qara dumanlar axdı.
Həsrətli şeirlərin
gəlhagəli başladı,
Qələmimdən mürəkkəb,
gözümdən yaşlar axdı.
Sal qayalar yenə də
qaldı qayalığında,
Bizi elə əritdi
zaman öz axarında,
Sanki dağ çaylarında
xırdaca daşlar axdı.

2002, 18 yanvar

VUR-TUT, BU DÜNYADA BİR ÖMRÜMÜZ VAR

Vur-tut, bu dünyada bir ömrümüz var,
O da küləklərlə sovrulub gedir.
Qışın şaxtasında üstə yağır qar,
Yayın alovunda qovrulub gedir.

Xal düşür ürəyə, od yağır başa,
Ağrıya, acıya veririk onu.
Qohuma, qonşuya, dosta, yoldaşa,
Qardaşa, bacıya veririk onu.

Bir əli bir başa çatdırmaq olmur,
Bir işi görürsən, min işin qalır.
Qaşın çatılanda canın sağ olmur,
Yoxuşu qalxırsan, enişin qalır.

Ayları, illəri sovurub göyə,
Xəstə dolanırıq, xəstə gəzirik.
Ömür şüşə kimi qırılar deyə,
Ağır yeriyirik, asta gəzirik.

Yüz də iç dərmanı, ömrə nə xeyri,
Ağrı başımızın tükü qədərdi.
Qəddimiz bükülü, belimiz əyri,
Qayğılar dağların yükü qədərdi.

2002, 26 yanvar

DÜNYA, AÇ ÜZÜMƏ QAPILARINI

Yollarım tilsimdi, bənddi, bərədi,
Eşqim bir zirvədi, dərdim dərədi.
Hələ ki, baxdığım dar pəncərədi,
Dünya, aç üzümə qapılarını.

Gələcək ümiddi, keçmiş təsəlli,
Yaş əlli oldusa, iş oldu bəlli.
Tutmuşam yaxandan mən ikiəlli,
Dünya, aç üzümə qapılarını.

Əcəl at üstündə, fərmanı hazır,
Kim beşik düzəldir, kim qəbir qazır.
Görək alnımıza tale nə yazır,
Dünya, aç üzümə qapılarını.

Göstər, boşu göstər, dolunu göstər,
Yolların sağını, solunu göstər.
Qırxıncı qapının yolunu göstər,
Dünya, aç üzümə qapılarını.

Eşqinlə alışdıq, odunla yandıq,
Varlıqda nə varsa sevdik, inandıq.
Zər dolu xəznəsən, sirr dolu sandıq,
Dünya, aç üzümə qapılarını.

Şəriət, təriqət qapıları var,
Mərifət, həqiqət qapıları var.
Dünyanın məhəbbət qapıları var,
Dünya, aç üzümə qapılarını.

2002, 14 yanvar

GÖYLƏR BAŞIMIN ÜSTÜNDƏ

Bu həyatdı sevən məni,
Müqəddəs dərgahım kimi.
Eşqi könlümün sultanı,
Məhəbbəti şahım kimi.

Qəmimlə çatılar qaşı,
Sevgimlə ucalar başı.
Yağışları gözüm yaşı,
Buludları ahım kimi.

Ocağı yanıb sönənim,
Keçmişi külə dönənim.
Xatirəsi xoş dünənim,
Ümidi sabahım kimi.

Yaz var qışımın üstündə,
Gül var daşımın üstündə.
Göylər başımın üstündə,
Dayanıb Allahım kimi.

2001, 13 noyabr

BU YELİ BİR ƏSDİRƏN VAR

Niyə tez soldu deyirsən,
Çiçək özbaşınadımı?
Bu yeli bir əsdirən var,
Külək özbaşınadımı?

İçindədi hisin-pasın,
Ovcundadı dərdin, yasın.
Könül necə ağrımasın,
Ürək özbaşınadımı?

Ağrı nədir, candan soruş,
Zəhər nədir, qandan soruş,
Soruş, Zəlimxandan soruş,
Görək, özbaşınadımı?

2001, 14 dekabr

VARSANSA,
BU DÜNYADA

Yox demə heç bir zaman
yaradanın varına,
İnsan oğlu nə desə,
hər şey löyün-löyün var.
Gördüyün hər nə varsa,
hamısı var deməkdi,
Çəkməyə qayğıların,
yaşamağa öyün var.
Könül vermə şeytana,
könül sirdaşım mənim,
Uçmaq üçün qanadın,
süzmək üçün göyün var.
Heç nə yoxdur deyənlər
qoy səni aldatmasın,
Varsansa bu dünyada,
dünyada hər şeyin var.

2001, 23 mart

ALLAH VERİR

Baharın da, qışın da
ixtiyarı ondadı,
Ömrə çökən payızı,
xəzanı Allah verir.
Harda dəniz, harda dağ,
harda səhra yerləşib,
Yer üzünə qaydanı,
mizanı Allah verir.
Vəhy gəlir Peyğəmbərə,
ilham gəlir şairə,
Göydən yerə ensə də,
yerdən göyə qayıdır,
Məscidə, minarəyə
əzanı Allah verir.
Tamahının əsiri, nəfsinin
qulu insan,
Günahı sən tutursan,
cəzanı Allah verir.

2002, 9 yanvar

SƏMAVİ KİTABLAR

Səmavi kitablar göylərdən gələndi,
Ruhunda ucalıq, eşqində qanad var.
Ürəkdən su içir müqəddəs duyğular,
Fikirdə, xəyalda coşqun bir həyat var.
Tanrıya qovuşmaq imtahan yoludur,
Qarşıda sual var, mizan var, sirat var.
Boşuna ötüşmür zamanın axarı,
Hər əsrin içində dolu bir saat var.
Allahı insana güzgütək göstərən,
Zəbur var, İncil var, Quran var, Tövrat var.

2002, 10 fevral

EY MƏNİM YARADANIM!

Ey mənim yaradanım,
eşit mənim səsimi,
Sevinc, kədər bağışla,
ağrı-acı ver mənə.
Ulu söz qəlbin nuru,
ilham başımın tacı,
Qızıl yox, ilham adlı
qızıl tacı ver mənə.

Şeirim ürəkdən gəlib,
ürəklərə axmasa,
Duymasa, duyulmasa,
yandırmasa, yaxmasa,
Al qələmi əlimdən,
toyumu döndər yasa,
Üstümdə ağlamağa
ana-bacı ver mənə.

İlahidən gələn söz
göz nurum, göz dərmanım,
Söz beşiyim, məzarım,
söz dərdim, söz dərmanım.
Söz sözümə baxmasa,
ölüm olsun fərmanım,
Son hökmü, son qərarı,
son əlacı ver mənə.

2002, 23 mart

GƏL

İlahi, eşit məni,
Ün salmışam ərzə, gəl!
Niyə sənə yetişmir,
Mən yazdığım ərzə, gəl!

Ayran coşdu, yağ itdi,
Düz əridi, dağ itdi.
Bizi yedi, dağıtdı,
İlan, əqrəb, gürzə, gəl!

Yel kimi yollarda əs,
Tələs, gəlməyə tələs.
Öz əlinlə özün kəs,
Bitsin hədyan, hərzə, gəl!

Baxıb, seyrə gəlməsən,
Xeyrə-şərə gəlməsən,
Enib yerə gəlməsən,
Sallam göyə lərzə, gəl!

Çoxdu zəhər içirən,
Çoxdu ocaq keçirən.
Sən deyən, mən köçürən,
Olum haqqa mirzə, gəl!

2002, 31 mart

YORULMASIN HAQQ YOLUNDA YERİYƏN

Qara bulud, örtmə Ayın üzünü,
Göyə baxım, işıq görüm, nur görüm.
Dəli tufan, çalxalama dənizi,
Qoy, dibində inci görüm, dürr görüm.

Yorğun salıb daşa salma yolumu,
Tez yağdırma yağışımı, dolumu.
Qoca dünya, qandallama qolumu,
Tilsim qırım, xəznə tapım, sirr görüm.

Yorulmasın haqq yolunda yeriyən,
Yarımasın ruh sındıran, ər əyən.
Nifrətləri toza dönüb əriyən,
Sevgiləri qaynar görüm, gur görüm.

2002, 22 iyun

ÜMİD YERİM TƏK ALLAHDI

Gözlərimi açan gündən
ağlamışam ömrümə,
Bu dünya bir qəm dənizi,
qəlbim onun adası.

Ürək varsa, çəkməlidir
qayğıların yükünü,
Damaq varsa, qəm suyunu
dadasıdır, dadası.
Quruca bir təsəllidir,
desəm, "ahın dağlara",
Ahın dağda nə işi var,
cana gəlir qadası.

Nə yaxşı ki, acıların
baldan şirin şeiri var,
Dərimizin dərmanıdı,
ruhumuzun qidası.

Sevinci də mənə xoşdu,
həsrəti də, qəmi də,
Ümid yerim tək Allahdı,
canım onun fədası.

2003, 3 yanvar

KÖNLÜ HAQDAN YAYINDIRMA

Könlü haqdan yayındırma,
İş içindən iş çıxar.
Tanrıya ağız büzənin,
Boğazından şiş çıxar.

Hamı deyər mən dərvişəm,
Dərk eyləməz Allahı.
Min ildən bir el içindən,
Yunustək dərviş çıxar.

Dəlilik də, aşiqlik də,
Ozanlıq da bizdədir.
Şair qəlbi haqq evidi,
Çiy gələn bişmiş çıxar.

2002, 21 iyul

HEÇ ZAMAN ALLAHA QOVUŞMAQ OLMUR

Əllərin yetişmir, əl eyləyəsən,
Səsini eşitmir, gəl eyləyəsən,
Axan göz yaşını göl eyləyəsən,
Yenə də Allaha qovuşmaq olmur.

Zərrəcə yer vermə şübhəyə, şəkkə,
Yüz dəfə Kəbə gör, min dəfə Məkkə.
Qaya balınc olsun, daş da mütəkkə,
Yenə də Allaha qovuşmaq olmur.

İşimiz amana, aha çıxsa da,
Gedib gileyimiz şaha çıxsa da,
Astarı üzündən baha çıxsa da,
Yenə də Allaha qovuşmaq olmur.

Ustad ol, dərviş ol, ozan ol, pir ol,
Mələklə, fələklə görüş, əlbir ol,
Lap belə cəldlikdə şir oğlu şir ol,
Yenə də Allaha qovuşmaq olmur.

Məni bağışlasın Məhəmməd, İsa,
Məni bağışlasın məscid, kəlisa,
Meraca qalxasan yol basa-basa,
Yenə də Allaha qovuşmaq olmur.

Axtarma kiminsə getdiyi yolda,
Axtarma kiminsə vurduğu xalda,
Ancaq arzudadı, ancaq xəyalda,
Heç zaman Allaha qovuşmaq olmur.

QİSMƏT

Tanrı nəzərini səndən kəsdisə,
Qapının ağzından girməz içəri,
Çörəyin qayıdar, duzun qayıdar.
Dənlikdən dənini sovurar külək,
Qismətin qayıdar, ruzun qayıdar.
Buz vurar, qar döyər, ocaq yandırar,
Evinə əliboş gələn kişinin,
Əli ətəyindən uzun qayıdar.

2001, 6 avqust

BÜTÜN ƏBƏDİLƏR MÜVƏQQƏTİDİR

Bütün əbədilər müvəqqətidir,
Yalandır Allahın özündən özgə.
Əzəldən axıra, əvvəldən sona,
Kim gördü Allahın gözündən özgə?

Solub getməyi var bütün üzlərin,
Üz yoxdur Allahın üzündən özgə.
Tanrının sözüdür bütün şairlər,
Söz yoxdur Allahın sözündən özgə.

2002, 8 iyul

ŞAİR XOŞBƏXTLİYİ

Şair nə vaxt xoşbəxt olur?
Sözü gültək dərən günü.
Duyğuları ürəklərdə,
Çiçək kimi sərən günü.

Şair nə vaxt xoşbəxt olur?
Haqqa könül verən günü.
Sinəsini tufanlara,
Qaya kimi gərən günü.

Şair nə vaxt xoşbəxt olur?
Yaradanı görən günü.
Onun könül dünyasına,
Tanrı söz göndərən günü.

Şair nə vaxt bədbəxt olur?
Fikrin pərən-pərən günü.
Dəftər, qələm əldən düşüb,
İlham üz döndərən günü.

2002, 11 aprel

RUHNAMƏ

Gəl, səni bağrıma basım,
Təravət ol, ruhum mənim.
Bütün sərvətlərin başı,
Bir sərvət ol, ruhum mənim.

Çətin anda bərki, sərtləş,
Körpəsənsə yetiş, mərdləş.
Harda dərdli varsa, dərdləş,
Həmsöhbət ol, ruhum mənim.

Dost gələndə meh kimi əs,
Düşmən gəldi, qılınc ol, kəs.
Canda tükənməz bir həvəs,
Cəsarət ol, ruhum mənim.

İblislərin burnunu ov,
Şeytanları ürəkdən qov.
Başda tufan, qanda alov,
Hərarət ol, ruhum mənim.

Hərə bir fürsətdə, çəmdə,
Kimi dəmdə, kimi qəmdə.
Pisi yandır cəhənnəmdə,
Bir cənnət ol, ruhum mənim.

Sən də alış, yanan görsən,
Hayqır, haqqı danan görsən.
Bir ruhu çığnanan görsən,
Şikayət ol, ruhum mənim.

Əldən alsalar nurunu,
Tapdasalar qürurunu,
Çal İsrafilin surunu,
Qiyamət ol, ruhum mənim.

"Vücudnamə" vücuddadı,
Öldün, qəlbin sükutdadı.
Ruhun başı buluddadı,
Uç, heyrət ol, ruhum mənim.

Aşiqlərdi sevib-seçən,
Məcnunlardı candan keçən.
Sevgililər alıb içən,
Bir şərbət ol, ruhum mənim.

Qəlbimin odu sevgidi,
Ağzımın dadı sevgidi.
Allahın adı sevgidi,
Məhəbbət ol, ruhum mənim.

Yeri çağır, göyü səslə,
Sabahlara inam bəslə.
Bu nəsildən gələn nəslə,
Əmanət ol, ruhum mənim.

2002, 16 yanvar

ÖLÜMSÜZLÜK ALLAHIN

İştah diş altındadır,
Əsiriyəm iştahın.
Girovuyam ömürlük,
Nəfsin, suçun, tamahın.
İlişmişəm cənginə,
Yaratdığım güllənin,
Yaratdığım silahın.
Dağ boyda dumanı var
Çəkilən dərdin, ahın.
Bəraəti yoxdu, yox,
Qazandığım günahın.
Allahın günahı yox,
Allahın tamahı yox.
Tutduğu işə görə,
Çəkilməli ahı yox.
Bəlkə, ona görə də,
Ölüm mənim qismətim,
Ölümsüzlük Allahın!

2001, 6 yanvar
Altağac

MƏNDƏDİ

Ulu Nəsiminin ruhuna salam olsun!

Yenə könlüm xarabadı,
yenə ruhum talan olub,
Nahaq döyüb, haqq döyülüb,
haqqı gözdən salan olub.
Başımda bir duman var ki,
dağ yanımda yalan olub,
Bulud mənəm, duman mənəm,
amanlar, ahlar məndədi.

Qoca da mən, müdrik də mən,
uşaq da mən, qoca da mən,
Kərəm də mən, Lələ də mən,
xaqan da mən, qağa da mən.
Susan da mən, susduran da,
nökər də mən, ağa da mən.
Varlı da mən, yoxsul da mən,
gədalar, şahlar məndədi.

Bağrım başı dəlik-dəlik,
şiş ucunda kabab mənəm,
Dərman mənim, dərd mənimdi,
ağrı mənəm, əzab mənəm.
İldırım mən, şimşək mənəm,
nifrət mənəm, qəzəb mənəm,
Gecə-gündüz evlər yıxan
qanlı silahlar məndədi.

İblis məkri, şərlə böhtan,
demə, təkcə şeytandadı,
Dəvə kinli, qurd xislətli
insan özü meydandadı.
Vuruşmada, çarpışmada
hər gün həcvi-hədyandadı,
Yırtıcılar, əjdahalar,
vəhşi timsahlar məndədi.

Gərək haqqa inanasan,
çiçək açıb, bar tutasan,
Dərə dolu sellər, sular,
zirvə dolu qar tutasan.
Bu ən böyük günahdır ki,
haqqı günahkar tutasan,
Mən bəndəyəm, o Allahdı,
bütün günahlar məndədi.

2000, 25 fevral

PEYĞƏMBƏR İNAMI MƏNƏ TANIŞDI

Haqqın vergisinə minnətdaram mən,
Tanıdım ruhuma sızanda şeiri.
İçindən Allahın qüdrəti çıxır,
Qara torpaq kimi qazanda şeiri.

Peyğəmbər inamı mənə tanışdı,
Haqqa inanmamaq bir aldanışdı.
Nənəm pıçıldadı, babam danışdı,
Duada, namazda, əzanda şeiri.

Dərdin dizlərini bükə bilirəm,
Ümid körpüləri tikə bilirəm,
Dünyanı özümə çəkə bilirəm,
Özümə çəkilib yazanda şeiri.

2003, 4 aprel

TANRI CAVAN,
QOCA BİLMƏZ

Çox da böyükdü arzular,
Yüzə qoymaz, yüzdən kəsər.
Başqa ömrə calamaqçün,
Tale ömrümüzdən kəsər.

Tufan salar, qan eyləyər,
Gedəni yoldan eyləyər.
Kimini qoldan eyləyər,
Kimini də düzdən kəsər.

Tanrı cavan, qoca bilməz,
Yüz də ağla, yaşı silməz.
Özündən heç nə kəsilməz,
Nəyi kəssə, bizdən kəsər.

2003, 16 mart

HAQQA SİRDAŞ OLA BİLSƏN

Haqqa sirdaş ola bilsən,
Qismətinə bəxt güldürən,
Qızıl bir balıq gələcək.
Dadına Tanrı çatacaq,
Hayına xaliq gələcək.
Haqqa sirdaş ola bilsən,
Üzə ağlıq, qəlbə saflıq,
Başa ucalıq gələcək.
Sənə doğru gülə-gülə,
Sakit könül, rahat ömür,
Şirin qocalıq gələcək.

2003, 21 yanvar

GÖYLƏR

Yağan nur da onundu,
düşən qar da, dolu da,
Min illərdi tükənmir
eşqi ulu göylərin.

Hər dəfə buludundan
gur yağışlar yağanda,
Boşalır saf ürəyi
qəlbi dolu göylərin.

Necə görsün yer üstə
yanan cəhənnəmləri?
Ay-ulduzdu, Günəşdi
sağı-solu göylərin.

Nə qədər yüksəlsə də,
nə qədər ucalsa da,
Şair qəlbindən keçir
səmti, yolu göylərin.

2003, 12 yanvar

İNSANDAN KÜSMƏ

Yer üzündə günah qalmaz,
Vədəsində günahını
Hamı etiraf eyləsə.
Dinsizlər bir dinə gəlib,
Bir azca insaf eyləsə.
Nahaq haqqı əyə bilməz,
Tərəzini tutan kəslər,
Gözünü sərraf eyləsə.
Dünya könül bulandırmaz,
İnsan oğlu öz işini,
Büllur kimi saf eyləsə.
Küsmə insandan, Allahım,
Vaxt dəyişib xislətini,
Onu bir əclaf eyləsə.

2003, 13 yanvar

MƏNİM ÖMRÜM – ADƏM ÖMRÜ

Mənim ömrüm torpaq ömrü,
Kotandan, xışdan gəlirəm.
Bir zərrə qum dənəsiyəm,
Ayrılıb daşdan gəlirəm.

Mənim ömrüm gözəl ömrü,
Xoş bir baxışdan gəlirəm.
Tanrının əlləri çəkən,
Sirli naxışdan gəlirəm.

Mənim ömrüm aşiq ömrü,
Kirpikdən, qaşdan gəlirəm.
Ürəklərdən yanaqlara,
Süzülən yaşdan gəlirəm.

Mənim ömrüm ayaz ömrü,
Qarlı bir qışdan gəlirəm.
Dolub-boşalan buluddan,
Yağan yağışdan gəlirəm.

Mənim ömrüm Adəm ömrü,
İştahdan, aşdan gəlirəm.
Qovulmuşam cənnətimdən,
Qalxıb o başdan gəlirəm.

2002, 28 iyul

İNSAF

Zərif adamların nur kimi çağlar
İnsaf üzərində, barış qanında.
Solan yarpağı da yaş töküb ağlar,
Ruhuna toxunmaz qarışqanın da.

Can atdım dəftərə, qələmə, saza,
Silaha, tüfəngə can atmamışam.
Kimisə, nəyisə verib güdaza,
Bir quş dimdiyi də qanatmamışam.

2000, 13 sentyabr

DAN ULDUZU ÇAĞIRIR

Ömür köhlən at kimi
yol gedir yorta-yorta,
Nə axşamlar dincəlir,
nə səhər, nə günorta.
Axşamın qaranlığı
çəkir ölümə sarı,
Səhərin aydınlığı
örtür qaranlıqları.
Dan ulduzu çağırır,
yarat deyir, yaz deyir,
Yaradanın ölümdən
qorxusu olmaz, deyir.

2002, 27 aprel

İÇİ PARILDASIN GƏRƏK ADAMIN

Ən zərif duyğular ürəkdən gəlir,
Ürək sevinməsə, üz gülər olmur.
Qəlbin işığıdı gözdə görünən,
İçərdə nur yoxsa, göz gülər olmur.

Qəlbin genişdirsə, saraydır damın,
Aydır çilçırağın, Günəşdir şamın.
İçi parıldasın gərək adamın,
İnsanı parladan güzgülər olmur.

Vaxtsız ürəyimi qoydum sapanda,
Sevinci itirdim qəmi tapanda.
Ürək sındıran da, könlü yanan da,
Özümüz oluruq, özgələr olmur.

2000, 13 mart

TANRI PAYI

Şair gec gələndə narahat olma,
Demək, bir gərəkli tədbirdən gəlir.
Səbirdi Allahın birinci adı,
Ucalıq insana səbirdən gəlir.

Ha qaçır, qovuşa bilmir güllərə,
Yemdi tikanlara, qumdu sellərə.
Məcnun min illərdi düşüb çöllərə,
Sorağı səhrada zəncirdən gəlir.

Qidası fikirdi, ölməz acından,
Şeiri qiymətlidi şahın tacından.
Şair var, sədası dar ağacından,
Şair var, sədası kəndirdən gəlir.

Əbədi dünyaya xoş bir an verir,
Canıyla, qanıyla sözə can verir.
Ağır sınaqlara imtahan verir,
Ələnir, ələkdən, xəlbirdən gəlir.

Gəlişi millətə bayram ayıdır,
O, tale sovqatı, tale payıdır,
Müşfiq qırx il sonra xalqa qayıdır,
Cavid qırx il sonra Sibirdən gəlir.

2001, 23 avqust

SÖZ

Söz canlıdı insan kimi,
Sözün sevinən, qəmlənən,
Sözün ağrıyan yeri var.
Söz güclüdü silah kimi,
Asan, kəsən, qıran, tökən,
Sözün doğrayan yeri var.
Söz kəskindi qılınc kimi,
Sərrast vuran oğul gərək,
Qəbzəsində qan yeri var.
Söz nurludu səhər kimi,
Yolda qoymaz yolçuları,
İşığında dan yeri var.

2001, 1 sentyabr

SEVDİ, SEVİLDİ GETDİ

Doğulduğum məkanın,
Yurdu-yuvası bəlli,
Suyu, havası bəlli.
Öldüyüm yerin adı,
Nə olacaq, bilmirəm.
Zaman-zaman dərd kimi,
İçərimdə qovrulan,
Külə dönmüş ümidi,
Küləklərə sovrulan,
Bəlkə, Təbriz olacaq?
Bəlkə, Mərənd olacaq?
Bəlkə, Göyçə, Borçalı,
Bəlkə, Dərbənd olacaq?
Bəlkə, şəhər meydanı,
Bəlkə, bir qanlı səngər,
Bəlkə, bir kənd olacaq?
Nə olacaq, bilmirəm,
Bildiyim bircə şey var:
Bir ustanın əliylə,
Naxış-naxış qazılmış,
Məzarımın üstündə,
Başdaşıma yazılmış,
Belə bir bənd olacaq:
Yer üzündə bəndənin,
Göy üzündə Allahın,
Qədrini bildi getdi.
İşıq ömrü yaşadı,
Sevdi, sevildi getdi.

2000, 10 sentyabr

BU GECƏ YAZDIĞIM ŞEİR

Fikirlərin naxışıdı,
Duyğuların yağışıdı.
Göyün yerə baxışıdı,
Bu gecə yazdığım şeir.

Qayaların inadıdı,
Qartalların qanadıdı.
Külüngümün Fərhadıdı,
Bu gecə yazdığım şeir.

Sözün barlı ağacıdı,
Başın sevgidən tacıdı.
Peyğəmbərin meracıdı,
Bu gecə yazdığım şeir.

Ürəkdə nurdu, ziyadı,
Sağlam ruh, halal mayadı.
Pıçıltılı bir duadı,
Bu gecə yazdığım şeir.

2002, 8 yanvar

ŞEİRİ VARAQDAN OXUMA

Ürəyinə köçür, yaddaşına yaz,
O şeiri varaqdan oxuma, qardaş.
Vallah, o misralar varaqlıq deyil,
O şeiri varaqdan oxuma, qardaş.

Tanrının dilindən keçib o sözlər,
Allahın əlindən keçib o sözlər,
Kərbəla çölündən keçib o sözlər,
O şeiri varaqdan oxuma, qardaş.

Düşüb bir gərəksiz axına, gəlmə,
Məndən uzaqsansa, yaxına gəlmə.
O, gərək ürəkdən oxuna, gəlmə,
O şeiri varaqdan oxuma, qardaş.

Varı tanıyarsan, yoxu bilərsən,
Hardadı ağrının çoxu, bilərsən.
Mənim gözlərimdən oxu, bilərsən,
O şeiri varaqdan oxuma, qardaş.

Ürəkdi, yaddaşdı, ruhdu, nəfəsdi,
Havadı, layladı, nəğmədi, səsdi,
Bütün qəfəsləri qıran həvəsdi,
O şeiri varaqdan oxuma, qardaş.

Ocağı səngimir, közü qaralmır,
Meydanı kiçilib, yeri daralmır.
Varaqlar saralır, yaddaş saralmır,
O şeiri varaqdan oxuma, qardaş.

Sənlə kəlmə kəsməz, söhbət başlamaz,
Sənlə əkin əkib, torpaq xışlamaz.
Allah bağışlamaz, bəndə xoşlamaz,
O şeiri varaqdan oxuma, qardaş.

2002, 8 yanvar

YARATMAQ SEVİNCİ

Bu gecə ömrümün gülən çağıydı,
Könül güldürmüşəm, can ağlatmışam.
Arıtək qonmuşam pətəyin üstə,
Süzmüşəm balımı, şan ağlatmışam.

Atıb tənbəlliyin köhnə dəbini,
Haqq özü coşdurur şair təbini.
Çatdıra bilmirdim mürəkkəbini,
Dəftərə, qələmə qan ağlatmışam.

Boşuna ötmədi bir saat, bir an,
Tale nöqtə qoydu söküləndə dan.
Zəlimxan əl çəkdi öz xanlığından,
Qurd ürəyi yeyib, xan ağlatmışam.

2000, 14 fevral

YAZANLAR QALDI YADDAŞDA

"Sabahım xeyir olsun", – dedim,
Sabahım xeyir olmadı.
Bir gecəm yuxuda keçdi,
Bir misram şeir olmadı.

Yarat deyir dağ da, daş da,
Yarat deyir ötən yaş da.
Yazanlar qaldı yaddaşda,
Yatanlar şair olmadı.

2000, 28 sentyabr

SANMA BİRDƏFƏLİK SUSACAĞAM MƏN

Nə dovşan qaçışı, nə fil yerişi,
Qartal uçuşudur mənim uçuşum.
Dərədə sürünmək deyildir işi,
Dağların başına dolanır quşum.

Son dəfə gözümdə sönəndə işıq,
Sanma birdəfəlik susacağam mən.
Hay vurub, qıy vurub qəbrim qarışıq,
Dağları bağrıma basacağam mən.

2002, 5 fevral

DUYĞULAR
DURNA QATARI

Şaxta, məndən uzaq dayan,
Sevgimin çiçək vaxtıdı.
Bəlkə də bu çiçəkliyin,
Gözəllikdə tək vaxtıdı.

Payız, gəlmə mənə sarı,
Qış, yağdırma vaxtsız qarı.
Duyğular durna qatarı,
Ruhumun lələk vaxtıdı.

Söz var, haqqa demək üçün,
Söz var, haqdan kömək üçün.
Allahdan istəmək üçün,
Ən şirin dilək vaxtıdı.

2002, 22 yanvar

HAQQ VERƏN FƏRMANLA GÖZƏLDİ DÜNYA

Məcnunu olmayan səhra yazıqdı,
Yunusu olmayan dərya yazıqdı,
İnsanı olmayan dünya yazıqdı,
İnsanla, insanla gözəldi dünya.

Köhlən at da verdi, meydan da verdi,
Dərdi verən kişi dərman da verdi.
Doğuma, ölümə fərman da verdi,
Haqq verən fərmanla gözəldi dünya.

Min könül açılar bir xoş avazla,
Təbiət gəncləşər baharla, yazla.
Bir şirin nəfəslə, bir telli sazla,
Bir də Zəlimxanla gözəldi dünya.

SAZBƏND MURADA

Mənim vəfalı sazbəndim,
Dərdimdən halı sazbəndim,
Dil açsın xalı, sazbəndim,
Saz düzəlt bu tutdan mənə.

Kim çalıb dindirib sazı,
Kim kökə mindirib sazı,
Kim göydən endirib sazı,
Xəbər ver Qorquddan mənə.

Yanan nəfəs istəyirəm,
Coşan həvəs istəyirəm,
Şirin bir səs istəyirəm,
Nə fayda sükutdan mənə.

O mənim könlümün varı,
Elimin meyvəsi, barı.
Saz istərəm, durnaları
Endirsin buluddan mənə.

Tut ağacı tutum olsun,
Taxtaları qutum olsun,
Saz özü tabutum olsun,
Pay umma tabutdan mənə.

Sazı şumla, ək, Muradım,
Saza sığal çək, Muradım,
Bu sazı, Kövrək Muradım,
Baha sat yaqutdan mənə.

2002, 20 iyul

QOY ÜRƏYİM DANIŞSIN

Qarşıda bir yaşıl yaylaq,
göydə Allah, yerdə mən,
Dilim, burda sən danışma,
qoy ürəyim danışsın.

Arıya bax, çiçəkləri
necə basıb bağrına,
Gülüm, burda sən danışma,
qoy ürəyim danışsın.

Bu mənzərə Tanrı taxtı,
şah təbiət, qul insan,
Qulum, burda sən danışma,
qoy ürəyim danışsın.

Kimlər keçir xəyalımdan,
nələr keçir içimdən,
Çölüm, burda sən danışma,
qoy ürəyim danışsın.

Aşıq, kiri, söz, dillənmə,
mizrab, dayan, pərdə, sus!
Telim, burda sən danışma,
qoy ürəyim danışsın.

Dəli sevdam, havalanma,
yığ ağlını başına,
Dəlim, burda sən danışma,
qoy ürəyim danışsın.

Huşum uçar, ağlım çaşar,
ruhum çıxar bədəndən,
Ölüm, burda sən danışma,
qoy ürəyim danışsın.

2002, 8 yanvar

İŞİN OLMASIN

"Dünya mənim" deyən şair,
sən dünyanın zərrəsisən.
Özünü bir zərrədə tap,
dünyayla işin olmasın.

Bu dəryalar dünya boyda
ağır gəmilər batırıb,
Sən ondan bir damla götür,
dəryayla işin olmasın.

Məcnunları tək-tək olur
yandım, öldüm deyənlərin,
Leylin yoxsa, kənar dayan,
səhrayla işin olmasın.

Hər sevginin bir xatası,
hər eşqin bir qovğası var.
Canında bır qorxu varsa,
qovğayla işin olmasın.

2002, 8 yanvar

“İNCƏGÜLÜ”

“İncəgülü” çalındı,
Bir səs gəldi incədən.
Sanki, gülab süzüldü,
Təzə açmış qönçədən.

Düşdüm yolun ağına,
Dərəsinə, dağına.
O səsin sorağına,
Keçib getdim Gəncədən.

İncə dərəsində yaz,
Aşıq Avdı, bir də saz.
Ağlı olan ayrılmaz,
Bu şirin düşüncədən.

2002, 24 yanvar

İŞIQ KİMİ

İşıqlı duyğular axır qəlbimə,
Yağır saçlarıma dən işıq kimi.
Ruhumda o qədər ulduz var, Ay var,
Görünür gözümə çən işıq kimi.
Tanrı içərimdə qurub taxtını,
Hopur varlığıma din işıq kimi.
Tükümə toxuna bilməz qaranlıq,
Gəzirəm dünyada mən işıq kimi.
Təpədən dırnağa işığam, nuram,
Allahla Peyğəmbər arasındakı,
Nurlu söhbət kimi, danışıq kimi.

2002, 1 yanvar

HƏR GÜN SAZ RUHUNDA, SÖZ KÖKÜNDƏYƏM

Bütün ömrüm boyu, həyatım boyu,
Hər gün saz ruhunda, söz kökündəyəm.
Qopuzu, şadlığı, bayramı, toyu,
Dədəmiz Qorqudun öz kökündəyəm.

Qaraldar ocağı, doldurar çəni,
Ölüm bulud kimi üstümü haqlar.
Torpaqdan saz ilə qaldırıb məni,
Torpağa söz ilə basdıracaqlar.

2002, 19 mart

MƏNİM DİLİM

Mənim dilim layla dili,
oxşama dili,
Şeir dili, nəğmə dili,
sənət dilidi.
Yer üzündə nə ki dil var,
nə ki dinən var,
Hamısına sevgi dili,
rəğbət dilidi.

Mayalanıb Savalanın
ətəklərində,
Əzizlənib gözümüzün
bəbəklərində,
Qılınc olub bir millətin
Babəklərində,
Hünər dili, kəsər dili,
qeyrət dilidi.

Həsrət ilə pıçıldaşar
xəzəl dilində,
Gözəlləri danışdırar
gözəl dilində,
"Heyrət ey büt!" – nidası var
qəzəl dilində,
Füzulinin danışdığı
heyrət dilidi.

Məcnunlaşıb, Fərhadlaşıb,
Şirinləşib o,
Dərinlərə işlədikcə
dərinləşib o.

Sazda dinib, neydə ötüb,
şirinləşib o,
Dost dilidi, yar dilidi,
ülfət dilidi.

Tikələnib, parçalanıb,
qəlpələnmişik,
Silkələnib, dalğalanıb,
ləpələnmişik.
Vətən dili olub, yer üzünə
səpələnmişik,
Vətən dili qəriblərin
qürbət dilidi.

Meydandadı, künc-bucağa
qısılan deyil,
Özgələrin ətəyindən
asılan deyil.
Kəssələr də, üzsələr də,
basılan deyil,
Dil kəsənə, baş kəsənə
nifrət dilidi.

Oda dönüb damarımda
axan qanımdı,
Qurbanlığı gərək olsa,
qurban canımdı.
Məhsətimdi, Heyranımdı,
Natəvanımdı,
Abır dili, həya dili,
ismət dilidi.

"Ənəlhəq"qi şərhə sığmaz,
bəyana sığmaz,
Sərhədsizdi, məkansızdı,
məkana sığmaz.

Nəsiminin cahanıdı,
cahana sığmaz,
Ər dilidi, xalq dilidi,
millət dilidi.

Taleyimdən axıb keçir
Kür-Araz dili,
Yaşıl duyğu, yaşıl ağac,
yaşıl yaz dili.
Qurbaninin oxuduğu
telli saz dili,
Xətainin yaratdığı
dövlət dilidi.

Hər damlanı bir ümmana
döndərib bu dil,
Hər sevgini bir dastana
döndərib bu dil.
Zəlimxanı Süleymana
döndərib bu dil,
Quşlar ilə danışmaqçün
söhbət dilidi.

2002, 20 may

YOLLAR

Ha yeridik tapammadıq dilini,
Dumanında itdiyimiz yolların.
Sağ-solunda ağac olub, daş olub,
Çiçək olub bitdiyimiz yolların.

Yolçusu var, dərvişi var, qulu var,
Ayağı var, qanadı var, qolu var.
Qəbrimizdən o yana da yolu var,
Eşqi ilə ötdüyümüz yolların.

Səhra dolaş, dağ addımla, düz yeri,
Nişan qalsın ayaq yeri, iz yeri.
Yüz qanadlan, yüz havalan, yüz yeri,
Sonu yoxdu ötdüyümüz yolların.

2002, 6 aprel

DÜNYA MƏNİ BULANDIRA BİLMƏDİ

Ömrüm boyu baxdım duru sulara,
Dünya məni bulandıra bilmədi.
Qan yerinə saflıq axdı damardan,
Dünya məni bulandıra bilmədi.

Fil yıxsa da palçıqları, lilləri,
Ev yıxsa da böhtançının dilləri,
Dağlar söküb, daş oysa da selləri,
Dünya məni bulandıra bilmədi.

Telli sazam, saz üstündə sədəfəm,
Şərəfimlə çoxlarına şərəfəm.
Sən baxma ki, böhtanlara hədəfəm,
Dünya məni bulandıra bilmədi.

Şimşəkləri döydü, çaxdı, gurladı,
Fırtınası fırım-fırım fırladı.
İçərimdə haqq işığı parladı,
Dünya məni bulandıra bilmədi.

Göy çəmənlər paltar biçdi əynimə,
Ulduz axdı ürəyimə, beynimə.
Səhər-səhər mələk qondu çiynimə,
Dünya məni bulandıra bilmədi.

Çirkab atdı, palçıq atdı, lil atdı,
Toz doldurdu, gözlərimə kül atdı.
Çox işlərə, oyunlara əl atdı,
Dünya məni bulandıra bilmədi.

Dənsizlərin dənciyinə dən atdım,
Nə qan saldım, nə bir könül qanatdım,
Mən dünyanı durultmağa can atdım,
Dünya məni bulandıra bilmədi.

2002, 23 may

İNSAN

Vaxt olur, ox kimi çıxır yayından,
Vaxt olur, yay kimi qırılır insan.
Bir gündə neçə yol ölür, qurtarır,
Bir gündə neçə yol dirilir insan.

Batır saray kimi, çökür him kimi,
Talelər sərtləşir sərt iqlim kimi.
Nəm çəkən, qəm çəkən sarı sim kimi,
Zora düşən kimi qırılır insan.

Gözündən vururlar, görmür dünyanı,
Dizindən vururlar, tökülür qanı.
Əriyə-əriyə üzülür canı,
Yeriyə-yeriyə yorulur insan.

Yollarda qazanır günahı, suçu,
Halaldan, haramdan karvanı, köçü.
Palçığa baxanda bulanır içi,
Çeşməyə baxanda durulur insan.

Qisməti savaşdı yaranışından,
Keçdi fəsillərin qarlı qışından.
Dərdlə ayağından, qəmlə başından,
Sözlə ürəyindən vurulur insan.

Pay olur küləyə, yem olur yelə,
Dərd çapır atını belədən-belə.
Yaş olub çevrilir yağışa, selə,
Daş olub divara hörülür insan[1].

2002, 4 iyul

[1] Rəşid əminin dəfn günü yazılıb bu sətirlər.

MƏNİM ÖLÜMÜM DƏ GÖZƏL OLACAQ

Kiminsə başına vaxtsız yağsa qar,
Ruhum oda dönər, buza çevrilər.
Qəlbimdə bir aşiq kövrəkliyi var,
Toxunan oldusa, saza çevrilər.

Tər çiçək ömrünü yaşaya bildim,
Solub gedəcəyəm tər çiçək kimi,
Kəpənək ömrünü yaşaya bildim,
Ölüb gedəcəyəm kəpənək kimi.

Tez-tez dəyişəcək fəsli, iqlimi,
Yamyaşıl yarpaqlar xəzəl olacaq.
Haqqa inanıram, həyatım kimi,
Mənim ölümüm də gözəl olacaq.

2001, 18 aprel

TƏKCƏ BƏLƏYİNİ GƏTİRMİR GƏLƏN

Hər insan özüylə dünya gətirir,
Dünyaya özünü gətirir gəlir.
Çiynində yükünü, başda ağlını,
Dilində sözünü gətirir gəlir.

Uca sarayı yox, qara damı yox,
Yanan çırağı yox, yanan şamı yox.
İnsansız həyatın duzu, tamı yox,
Hər kəs öz duzunu gətirir gəlir.

Görüşür doğulan, ayrılır ölən,
Yasdadı ağlayan, toydadı gülən.
Təkcə bələyini gətirmir gələn,
Kəfənlik bezini gətirir gəlir.

2001, 8 aprel

BƏLKƏ, QOCALIQDA QAR RƏNGİNDƏDİR

Təbiət pay böldü fəsillərinə,
Çiçək yaza düşdü, qar qışa düşdü.
Yer üzü ağardı bircə gecədə,
Yağdıqca qar gözə, qar qaşa düşdü.

Zirvələr gümüşdü, dərələr ağdı,
Qarın yaraşığı qartallı dağdı.
Allaha şükür ki, çöllərə yağdı,
Hələ ki qar dağa, qar daşa düşdü.

Cilovsuz at kimi baş alıb gedir,
Bilmirəm bu qədər kövrəklik nədir.
Bəlkə, qocalıq da qar rəngindədir,
Qorxudan qəlbimə qarğaşa düşdü.

2001, 3 yanvar

GİZLƏNİB

Ürəyimdə neçə-neçə
Yas qarıyıb, vay gizlənib.
Himə bənddi, gözlərimdə
Neçə çeşmə, çay gizlənib.

Ürəyimi kimə açım?
Dərd əlindən hara qaçım?
Duman qoymur işıq saçım,
Buludumda Ay gizlənib.

Dağlar altda nələr yatır,
Yatır, dağ-dərələr yatır.
İçimdə nərələr yatır,
Ruhumda haray gizlənib.

2000, 7 dekabr

ƏBƏDİ YERİNDƏ QALMAZ BİR QALA

Sünbülün saraldı, döyülməlisən,
İştah da, tamah da vəl ağzındadı.
Xırmanlar sovurar, küləklər qovar,
Dən kimi ömrümüz yel ağzındadı.

Ölməzlik eşqinə düşmə nahaqdan,
Ölümün fərmanı haqdandı, haqdan.
Şimşək başdan vurar, dalğa ayaqdan,
Qayalar həmişə sel ağzındadı.

Qaya parça-parça, daş tala-tala,
Əbədi yerində qalmaz bir qala.
Lap belə bu əsri o əsrə cala,
Yenə qəbir evi bel ağzındadı.

2002, 7 iyun

NƏ GƏTİRDİN BU DÜNYAYA?

Yazıq insan, dərdli başın
nələr çəkdi bu dünyada,
Ürək dözmür, nəfəs çatmır,
hay-küydə baş-beyin getdi.
Arzuların arxasınca
qaçmaq oldu işin-peşən,
Gözlərindən nurun getdi,
dizlərindən heyin getdi.
Göz açmamış göz yummaqdı
son qismətin, son qazancın,
Qəfil çaxan ildırımdan
ömrün-günün yeyin getdi.
Niyə gəldin bu varlığa,
niyə getdin bu aləmdən?
Nə gətirdin bu dünyaya,
nəyin qaldı, nəyin getdi?!

2002, 5 aprel

NƏHƏNG ŞAİRLİK

Şairi şairtək göstərən,
Sözün sifəti, sözün rəngi olmalıdı.
Dilin sığalı, tumarı,
Fikrin ahəngi olmalıdı.
Şərin atasını yandırmaq üçün,
Böhtançını vaxtında qandırmaq üçün,
Şeirin yumruğu, qapazı,
İlhamın döyüşü, cəngi olmalıdı.
Tökülən yaşların,
Bəlalı başların,
Qanlı savaşların
Tarixini yazmaq üçün,
Ürəyin böyüyü, qələmin kəskini,
Şairin nəhəngi olmalıdı.

2002, 19 iyun

DOĞMACA QARDAŞ KİMİ

Yanan şamla üz-üzə,
ilhamla baş-başayam,
İlham üzə güləndə
sanki xanam, paşayam.
Gərək hər gəlişinə
səcdə qılam, baş əyəm,
Sözlər çıxır canımdan,
gözdən çıxan yaş kimi.

Dən sünbülə qaytarır,
sünbül dənə nə versə,
Din Tanrıya qaytarır,
Tanrı dinə nə versə.
İlhama pay çıxıram,
Allah mənə nə versə,
Bölürük nəyimiz var
doğmaca qardaş kimi.

2002, 21 iyun

ŞAİR ÖMRÜ

Şairlərin qatarında
bir durnadı,
Durna kimi səf-səf olur
şair ömrü.
Yerdə çiçək, göydə ulduz,
ruhda qanad,
Ağ sularda sədəf olur
şair ömrü.

Ağrı çəkib, dərd daşımaq
canındadı,
Sözlə yatıb, sözlə durmaq
qanındadı.
Yıxılanın, əzilənin
yanındadı,
Tərəfsizə tərəf olur
şair ömrü.

Müqəddəs süd, sağlam özül,
halal maya,
Damla-damla dönür selə,
dönür çaya.
Bir ocaqda göz açsa da,
bu dünyaya,
Bir millətə şərəf olur
şair ömrü.

Haqqa doğru yol getsə də
yavaş-yavaş,
Ağılına nöqsan tutur
hər ağlı çaş.
Ona dəyir hər nadanın
atdığı daş,
Böhtanlara hədəf olur
şair ömrü.

2002, 5 iyul

ŞAİR

Bahar buludundan kövrək,
Nəğmə dolu bir ürək
Düşündükcə düşündü,
Duyduqca duydu.
İlhamı dağ çeşməsi,
Nəfəsi dumduru suydu.
Onu yaşadan Şairlik vergisi,
Peyğəmbərlik fəhmi,
İnsanlıq duyğusuydu.

2002, 13 iyul

HƏYATDAN YAZANLAR GERİ QALIBLAR

Zülüm görməyənlər zülümdən yazır,
Ölüm görməyənlər ölümdən yazır.
Bir dəfə əlini köz yandırmayan,
Əslinin, Kərəmin külündən yazır.

Heç kəs boynumuza minnət qoymasın,
Hər kəsin ölümə bir can borcu var.
Hamı qurbanlıqdı bu dünya üçün,
Hamının dünyaya qurban borcu var.

"Ölüm" ifadəsi, "Allah" kəlməsi,
Şordan ucuz olub söz bazarında.
Allahı, ölümü atıb-tuturlar,
Fındıq bazarında, qoz bazarında.

Günəş yox, işıq yox, nur yox, həyat yox,
Guya ki, hamıya zülmətdi dünya.
Guya heç bir kəsi sevindirmədi,
Hamıya, hamıya zülmətdi dünya.

Ölüm şeirləri baş alıb gedir,
Ölümü əkirlər, səpirlər indi.
Tüpürüb üzünə nurun, həyatın,
Ölümün üzündən öpürlər indi.

Ölüm şeirimizdə şahlıq eyləyir,
Ölüm şeirimizin şahıdı indi.
Həyatdan yazanlar "geri qalıblar",
Ölümdən yazanlar dahidi indi.

2002, 31 iyul

TÜKƏNMƏZ ŞAİRLƏR

Şehdə dəniz görür, güldə gülüstan,
Göyləri gözündə daşıya bilir.
Tükənməz şairlər tükənməzliyi,
Hər sözün ruhunda yaşaya bilir.

Alır dan yerindən nuru, işığı,
Hisslərin təmizi, ruhun pakı var.
Harda bir tükənməz ilham qaynasa,
Orda ilahinin iştirakı var.

Fikri buludların köhlən atında,
Kökləri torpağın yeddi qatında,
Qəzəbi göylərin gurultusunda,
İşığı şimşəyin parıltısında,
Nəfəsi bulağın zümzüməsində,
Nəğməsi torpağın, suyun səsində,
Sel olub çağlayan tükənməz olur.
Eşqini tanrıya, meylini haqqa,
Əbədi bağlayan tükənməz olur.

Hər bir istedadın yanında hazır,
İblisin fitvası, şeytanın şəri.
Nə qədər daş atdı bağa, bostana,
Tükədə bilmədi tükənməzləri.

Günəş Kainatın, ulduzlar göyün,
Çəmənlər, çiçəklər yerindi yenə.
Tükənən şairlər tükəndi, getdi,
Tükənməz şairlər şeirindi, yenə.

2002, 1 avqust

ŞAİR BAŞDAN-BAŞA TƏBİƏT OLUB

Baxmaqla doymuram
bu gözəlliyə,
Gördüyüm nə varsa,
təravət olub.
Bütün arzularım
dönüb gerçəyə,
Bütün xəyallarım
həqiqət olub.

Şairin ruhu var
hər sarı teldə,
Zərrədə, damlada,
yağışda, seldə.
Şairsiz ölkədə,
şeirsiz eldə,
Nə söz gözəlləşib,
nə hikmət olub.

Dəli duyğuları,
dolu həvəsi,
Dağıdar zindanı,
qırar qəfəsi.
Nəyə toxunubsa
şair nəfəsi,
Onda bir tükənməz
bərəkət olub.

Ulduzla doludu
göylərin üzü,
Çiçəklə doludu
dərəsi, düzü.

Ən böyük şairdi
təbiət özü,
Şair başdan-başa
təbiət olub.

Bəndənin nəyi var
Allahındadı,
Hünəri eşq adlı
silahındadı,
Uca söz Peyğəmbər
dərgahındadı,
Bu gün Zəlimxana
bu, qismət olub.

2002, 31 avqust

GƏLƏR

Kövrək duyğuların yeri ürəkdir,
Fikir başdan gələr, beyindən gələr.
Sel döşdə kükrəyər, su yerdən çıxar,
Yağış Yaradanın göyündən gələr.

Dözəni igiddi, ərdi dünyanın,
Daşıyır yükünü mərdi dünyanın.
Göynədər insanı dərdi dünyanın,
Yanğı kamanından, neyindən gələr.

Yaylağın suları axar sərindən,
Dənizin incisi çıxar dərindən.
Səadət tanrının Peyğəmbərindən,
Fəlakət insanın keyindən gələr.

Çiçək torpağındı, ulduz göyündü,
Sel şıltaq, yel dəli, od ərköyündü.
Allahın neməti löyün-löyündü,
Xörəyi gör neçə löyündən gələr.

Çiyinlər zamanın yükünə bağlı,
Səs kökə bağlıdı, kök ünə bağlı.
Nə var, Zəlimxanın kökünə bağlı,
Nə var, Zəlimxanın soyundan gələr.

2000, 24 mart

OXUYUR

Nə şirin məclisdi, nə xoş gecədi,
Ozanlar səs-səsə verib oxuyur.
Kim Ərəbzəngidi, kim Şah İsmayıl,
Ər kimi meydana girib, oxuyur.

Çağlayan çeşməyəm, kükrəyən çayam,
Dirilik suyundan yoğrulub mayam.
Elə bil cənnətin ortasındayam,
Ruhum meyvəsini dərib, oxuyur.

Ürək ağrılıdı, can tələşlıdı,
Qürbətə uzanan yollar daşlıdı.
Tiflisdə Şahsənəm gözü yaşlıdı,
Deyəsən, Hələbdə Qərib oxuyur.

Kəsilməz Allahın verdiyi qismət,
Canlara dərmandı, ruhlara zinət.
Zəlimxan eşqinə Ana təbiət,
Çəmən süfrəsini sərib, oxuyur.

2002, 7 aprel

UCALIQ

Hamının can atdığı,
Az adamın çatdığı,
Əlin yetişmədiyi,
Ruhun at oynatdığı,
Bir məqamdı ucalıq.

Çiyində şahlıq quşu,
Başda şahlıq tacıdı.
İlahi mərtəbəsi,
Peyğəmbər meracıdı.
İnsana haqdan gələn,
Ehtiramdı ucalıq.

Dünyanın bu başında
Çəkərsən nəfəsini,
Dünyanın o başında
Eşidərlər səsini.
Nəfəs kimi dərilən,
Yaradandan alınan,
Yaradana verilən,
Bir salamdı ucalıq.

Haqq yazanda qiyməti,
Ucuzlar baha gəlməz.
Eşqə gələn gözəllik,
Nəfsə, tamaha gəlməz.
Öpər dərviş əlini,
Aldanıb, şaha gəlməz.
Canda Allah eşqinə,
Yanan şamdı ucalıq.

2002, 25 mart

EL YADDAŞI

Ruhum – tər çiçəkdi, zər kəpənəkdi,
Sözüm – bal arısı gül yaddaşında.
Dil sözün ömrüdü, söz dilin ömrü,
Oğulsan, hökm eylə, dil yaddaşında.

İncə duyğularla könlüm isindi,
Kövrək xatirələr dindi, nə dindi.
Kərəmin külü də qalmayıb indi,
Qalan "Kərəmi"di tel yaddaşında.

Sözə şahlıq eylə, nə əyil, nə sın,
Ömrü əbədidi nəğmənin, səsin.
Qoy özündən küssün, eldən küsməsin,
Kim qala bilməsə el yaddaşında.

2002, 30 mart

ZƏLİMXAN

Rahatlıq verməyib şairə Allah,
Hər gün öz ömrünü çapar Zəlimxan.
Buluddan sıyrılar ildırım kimi,
Dağdan qaya kimi qopar Zəlimxan.

Qalxar dan yerindən, günəştək doğar,
İşığı, zülməti parçalar, boğar.
Nur kimi süzülər, yağıştək yağar,
Torpağın bağrına hopar Zəlimxan.

Bir əli yazdadı, biri qışdadı,
Gündə bir mənzildə, bir yarışdadı.
Bütün ömrü boyu axtarışdadı,
Çətin itənləri tapar Zəlimxan.

2000, 22 mart

YAXŞILIQ

Yaxşılıq – insanı
zülmətdən çıxaran işıqdı,
Yaxşılıq – insan oğluna
bir yaraşıqdı.
Yaxşılıq – ürəyi
isidən atəşdi,
Yaxşılıq – dünyaya
nur saçan günəşdi.
Pislik günahdırsa,
yaxşılıq savabdı,
Yaxşılıq pisliyə,
Ən dürüst, ən sərrast,
ən gözəl cavabdı.
Yaxşılıq pisliyin tərsidi,
Müəllim qayğısı,
Peyğəmbər dərsidi.
Hansını istəsən
seç götür,
Dayanma, yubanma,
keç götür.
Yaxşılıq – ömürlük
xoşbəxtlik,
Yamanlıq – ömürlük
əzabdı!

2002, 25 aprel

TALENİN İŞİDİ

Ürəklər zədəli, könüllər yara,
Kim tapar, kim tapmaz dərdinə çara.
Günlər ağ gələcək, yoxsa ki, qara,
Talenin işidi, baxtın işidi.

Kimin qazandığı günah olacaq,
Kimin Əzrayılı tamah olacaq,
Kim vəzir olacaq, kim şah olacaq,
Tanrının işidi, taxtın işidi.

Həqiqət deməkdən qabar olub dil,
Qarışqa çox gülüb, yıxılanda fil.
Bu dünya heç zaman düzələn deyil,
Yalandı, kim desə vaxtın işidi.

2000, 12 avqust

SEVGİ BUDUR

Dağa-daşa düşüb gəzmə sevgi deyə,
Sevgi budur, gözümüzün qabağında.
Külək vurar, yağış öpər, meh sığallar,
Sevgi budur, çiçəklərin yanağında.

Tanrı eşqi baş tacıdı, göz nurudu,
Sevilənlər sevənlərin qürurudu.
Haçan baxsan göz yaşından dumdurudu,
Sevgi budur, baxışların bulağında.

Yerə əyil, yurda sağlam toxumlar ək,
Ətrini duy, suyunu ver, nazını çək.
Öləndə də qəbrin güllər bitirəcək,
Görəcəksən sevgi bitib torpağında.

2000, 3 sentyabr

MƏNİM ÖMRÜM

Durnaları qaqqıldayan,
Buludları şaqqıldayan
Göyü var mənim ömrümün.

Sümüklərə lərzə salan,
Harayını ərzə salan
Neyi var mənim ömrümün.

Bayraq edib Zəlimxanı,
Ötkəm xanı, həlim xanı,
Bəyi var mənim ömrümün.

Nə sünbül, nə dən biləsən,
Qafilsən, nədən biləsən
Nəyi var mənim ömrümün.

Bir dağdı, söykənib dağa,
Neçə min il yaşamağa
Heyi var mənim ömrümün.

2000, 15 sentyabr

KİM DAHA ÇOX SEVİRSƏ

Bu cavan oğlana “qardaşım” de,
Sənin qardaşın olsun.
İnsana sevgiylə dillən,
Ucalan başın olsun.
Bu cavan gəlinə “bacım” de,
Qoy sənin bacın olsun.
Dildən şirin çıxan söz,
Başında tacın olsun.
Bu körpə uşağa “balam” de,
Qoy sənin balan olsun.
İnsan oğluna inan,
Səngərin, qalan olsun.
Bütün ağbirçəkləri,
Öz anan gözündə gör,
Hər biri anan olsun.
Ürəyində inamı,
Qarlı bir dağa döndər,
Dərdə dayanan olsun.
Bütün küsənləri barışdır,
Arada at oynadan,
Savaş yox, barış olsun.
Nifrətləri əritsin,
Eşqin, sevginin odu.
Sevənlər arasında,
Sevgidən yarış olsun.
Kim daha çox sevirsə,
Çevrilsin ziyarətə.
Məhəbbətin yolunda
Əsil axtarış olsun.

2000, 2 oktyabr

GET SÖNƏN OCAĞI TƏZƏDƏN QALA

Baxma bu yolların uzaqlığına,
Qayıt gəncliyinə, uşaqlığına.
Qayıt təbiətin qonaqlığına,
Güllər yağa dönsün, çiçəklər bala,
Get sönən ocağı yenidən qala.

Kədərdən kövrələr, həsrətdən sınar,
Daha da qocalar qocaman çinar.
Vaxtında çatmasan, el səni qınar,
Ömrünün üstünə bir ömür cala,
Get sönən ocağı yenidən qala.

Lap səsin çatsa da ulduza, Aya,
Qarış o əvvəlki çeşməyə, çaya.
Hər səhər üstünə çıxdığın qaya,
Əli çənəsində dalıb xəyala,
Get sönən ocağı yenidən qala.

Susub qapı-baca, küsüb ev-eşik,
Nə şirin layla var, nə isti beşik.
Uçan yuvalara kədərlənmişik,
Sənincün darıxır daş-divar, bala,
Get sönən ocağı yenidən qala.

Qamçı vura-vura, fit çala-çala,
Oraq çəkə-çəkə, ot çala-çala,
Meydan zarafatdan, məzədən qala.
Şəhərdən dördəlli nə yapışmısan,
Get sönən ocağı yenidən qala.

2000, 5 oktyabr

MƏN YOXAM

Mən bir dağam, arxasıyam düzlərin,
Dağım yoxsa, düzüm yoxsa, mən yoxam.
Dar cığırdan çıxdım geniş yollara,
Yolum yoxsa, izim yoxsa, mən yoxam.

Mən bir çöləm, qoynumdadı dərinlik,
Mən bir seləm, suyumdadı sərinlik.
Mən bir diləm, sözümdədi şirinlik,
Dilim yoxsa, sözüm yoxsa, mən yoxam.

Mən bir gücəm, qayaları sındıran,
Mən bir nuram, ayı, günü andıran,
Mən bir odam, könülləri yandıran,
Odum yoxsa, közüm yoxsa, mən yoxam.

Saz oldumu, ud oldumu sözlərim?
Buz ürəkdə od oldumu sözlərim?
Bir damaqda dad oldumu sözlərim?
Dadım yoxsa, duzum yoxsa, mən yoxam.

Yaranandan nəğməliyəm, səsliyəm,
Dünən bahar, bu gün payız fəsliyəm.
Məndən sonra gələnlərin əsliyəm,
Oğlum yoxsa, qızım yoxsa, mən yoxam.

2001, 2 yanvar

ÖRTÜLMƏ, ÖRTÜLMƏ, GÖZ QAPAQLARIM

Yuxu bir ölümdü, yumar gözümü,
Bağlayar dilimi, kəsər sözümü.
Qırılar hardasa misra düzümü,
Sətirlər sərvətim, misralar barım,
Örtülmə, örtülmə, göz qapaqlarım.

Oğul toy gözləyir, qız xınayaxdı,
Muraza yetənin qızıldı baxtı.
Bir az geriyə çək vədəni, vaxtı,
Çox şeylər yarımçıq, çox şeylər yarım,
Örtülmə, örtülmə, göz qapaqlarım.

Yaram var, məlhəmi özün tap, sarı,
Zərif bir ağ üstən incə sap sarı.
Çəmənlər yamyaşıl, güllər sapsarı,
Qoy çəksin ətrini çiçəkdən arım,
Örtülmə, örtülmə, göz qapaqlarım.

Yad ovçu əlində bir ov var hələ,
Əsir var, qaçqın var, girov var hələ.
Vətənin saçında qrov var hələ,
Varlığım narahat, əsəbim tarım,
Örtülmə, örtülmə, göz qapaqlarım.

Yatdığım gecənin çoxu düşmənim,
Sancar ürəyimə oxu düşmənim.
Yatmaq Əzrayılım, yuxu düşmənim.
Puç olar zəhmətim, heç olar varım,
Örtülmə, örtülmə, göz qapaqlarım.

Qazancdı nə qədər dünyaya baxsan,
Baxa bilərsənsə, haqsan ki, haqsan.
Onsuz da bir axşam qapanacaqsan,
Solacaq sevgilim, susacaq yarım,
Örtülmə, örtülmə, göz qapaqlarım.

2000, 8 yanvar

ÖRTÜL, GÖZ QAPAQLARIM

Nə bir yarpaq tərpənir,
nə bir əsim külək var,
Hara baxırsansa bax,
ancaq gül var, çiçək var.
Sənə bu sakitliyi
heç yerdə verməz həyat,
Örtül, göz qapaqlarım,
bir az dincəl, bir az yat.

Daşı çox, kəsəyi çox,
yollar çox hamar olmur,
Başımız ağrı çəkir,
saçımız tumar olmur,
Həmişə təbiətdə
bu sakit damar olmur.
Aramla vur, ürəyim,
rahat ol, bir az rahat,
Örtül, göz qapaqlarım,
bir az dincəl, bir az yat!

Uyu, əsəbim mənim,
soyu, qəzəbim mənim,
Ağrım-acım, yoxa çıx,
qurtar, əzabım mənim,
Çatmır bu qədər yükə,
dözümüm, tabım,
Bir yox, yeddi yerindən
ürəyim çat verir, çat
Örtül, göz qapaqlarım,
bir az dincəl, bir az yat.

Həmişə bahar olmur
qış gəlir, qardan keçir,
Ömür çaxnaşmalardan,
qasırğalardan keçir.
İşimiz addımbaşı
sınaqdan, dardan keçir,
Zəhər qatdığın yetər,
bir az ruhuna bal qat,
Örtül, göz qapaqlarım,
bir az dincəl, bir az yat.

Nə olsun ki, dünyanın
əşrəfisən, zərisən,
Hər nə var əbədidir,
təkcə sən gedərisən.
Tez yanıb kül olarsan,
belə yansan, ərisən,
Onsuz da son zəngini
çalacaq bir gün həyat,
Ruhum, beynim, düşüncəm,
bir az dincəl, bir az yat!

2002, 2 sentyabr

EY MƏNİM SEVDİKLƏRİM

Ömrüm, həyatım boyu
sizə ehtiyacım var,
Siz ehtiyac oldunuz,
ey mənim sevdiklərim.
Gözə işıq, qəlbə nur,
ürəyə od, cəsarət,
Dərdə əlac oldunuz,
ey mənim sevdiklərim.

Udduğum havasınız,
çəkdiyim nəfəssiniz,
Sözsünüz, fikirsiniz,
nəğməsiniz, səssiniz.
Ordulardan güclüyəm,
ordulara bəssiniz.
Başımda tac oldunuz,
ey mənim sevdiklərim.

Sonsuzluq olarsınız,
ömür sürmək istəsəm,
Pilləkən olarsınız,
haqqı görmək istəsəm,
Eşqimin meyvəsini
nə vaxt dərmək istəsəm,
Barlı ağac oldunuz,
ey mənim sevdiklərim.

Sizi duydu varlığım,
sizi gördü gözlərim,
Üstümə dağ çöksə də,
bükülmədi dizlərim.

Əlvan bir xalı kimi
toxunanda sözlərim,
Əriş-arğac oldunuz,
ey mənim sevdiklərim.

Ana qucağı kimi
isti bir qucaqsınız,
Üşüyən ürəyimi
qızdıran ocaqsınız,
Tapındığım qiblətək
haqlısınız, haqsınız,
Sevgimə tac oldunuz,
ey mənim sevdiklərim.
Peyğəmbər yolu kimi
sizə dəydim qayıtdım,
Eşqə merac oldunuz,
ey mənim sevdiklərim.

2001, 8 yanvar
Altağac

XATİRƏLƏRDƏ

Ömür xatirəyə dönər, ya dönməz,
İllərin izi var xatirələrdə.
Keçən əyyamların, ötən günlərin,
Dadı var, duzu var xatirələrdə.

O zaman əkmişdim, indi biçirəm,
Bir körpü salmışdım, üstən keçirəm.
Çörəkdi yeyirəm, sudu içirəm,
Qismət var, ruzu var xatirələrdə.

Öldüm bir dodağı bal qızdan ötrü,
Ölmədi mənimtək yalqızdan ötrü.
Durur o çiçəkli yal, qızdan ötrü,
Bir mələr quzu var xatirələrdə.

Baxtımı sınadım atdığım zərnən,
Nələrnən yaşadım, Allah, nələrnən.
Yenə qucaqlaşdım xatirələrnən,
Bir eşqin közü var xatirələrdə.

Yıxdı yengələri yeli həsrətin,
Yapışdı yaxamdan əli həsrətin,
Ağlımı uçuran dəli həsrətin,
Əriməz buzu var xatirələrdə.

Ruhu buludlara, kəməndə dönən,
Eşqi cıdır vaxtı səməndə dönən,
Bir kənddə doğulub, min kəndə dönən,
Şairin gözü var xatirələrdə.

Öldürür ananı, alır atanı,
Qurtarmaq istəmir çayda batanı.
Taxtın çevriləni, baxtın yatanı,
Vaxtın sərt üzü var xatirələrdə.

Xəyala gələnlər nə dadlı gəlir,
Xəyala nə gəlsə, qanadlı gəlir.
Baxıram, arxadan bir atlı gəlir,
Yolların tozu var xatirələrdə.

Zikr edir, namazı qılan danışmır,
Dərin xəyallara dalan danışmır.
Keçmiş insanlara yalan danışmır,
Hər şeyin düzü var xatirələrdə.

Yanan ocaqların od əmən oğlu,
Çiçək pərvanəsi, çöl-çəmən oğlu,
Bir torpaq dəlisi, bir vətən oğlu
Zəlimxan özü var xatirələrdə.

2002, 10 yanvar

GÖZƏLDİ

İgid yolda, səfərdə,
Ovçu ovda gözəldi.
Ayaqlar üzəngidə,
Əl cilovda gözəldi.
Qar üstünə iz düşər,
Ov qrovda gözəldi.
Ceyranlar qaçaqaçda,
Qovhaqovda gözəldi.
Kimə nə faydası var,
Lal gəlib, mal getməyin?
Alov canın cövhəri,
Can alovda gözəldi.
Vurul, sevil, sev, yaşa,
Belə ömür, belə gün,
Belə sevda gözəldi.

2002, 1 mart

SEVGİSİZ ÜRƏK

Sevgisiz ürəkdə
il quraq keçər,
Gül olmaz açıla,
sel olmaz, axa.
Quru səhralara
sirdaş olarsan,
Tikanlar əlində
cırılar yaxa.

2002, 29 sentyabr

ÇƏKMİŞƏM

Əsən küləklərə vermədim ömrü,
Arıtək güllərdən şirə çəkmişəm.
Göylərə bənzədim ulduzlarımla,
Çiçək bitirməkdə yerə çəkmişəm.

Gəldim könüllərə ustad olmağa,
Gəldim sevgilərə Fərhad olmağa.
Sınan ümidlərə qanad olmağa,
Ocağa çəkmişəm, pirə çəkmişəm.

Canlı təbiətlə durdum göz-gözə,
Bağrım oda döndü, ürəyim közə.
Ruhuma yatanı çevirib sözə,
Qəlbimə yatanı şeirə çəkmişəm.

2002, 20 fevral

SƏS

Tanrı səsi sözdən əvvəl yaratdı,
Təbiətin yağışı səs, qarı səs.
Sel kükrədi, çay gurladı, su daşdı,
Dərələrin qazancı səs, barı səs.

Səs ucaldı həvəsində insanın,
Səs qaynadı nəfəsində insanın.
Nələr yoxdu ləhcəsində insanın,
Kamanı səs, qavalı səs, tarı səs.

Sevgi dedi, dodaq əsdi, dil əsdi,
Gözəllərin gərdənində tel əsdi.
Qarlı dağdan göy çəmənə yel əsdi,
Səs eylədi – kəpənək səs, arı səs.

Səsin varsa, bil, kişisən, bil, ərsən,
Səssizlərin göz yaşını silərsən.
Zəlimxanı tanıyanda bilərsən,
Yarı sazdı, yarı sözdü, yarı səs.

2002, 7 fevral

YARADANI GÖRÜRƏM

Nə vaxt səni görürəm –
Arısı, kəpənəyi,
Çiçəklərlə öpüşən
Göy çəməni görürəm.

Nə vaxt səni görürəm –
Ətri dünyanı tutan,
Qızılgülü, nərgizi,
Yasəməni görürəm.

Nə vaxt səni görürəm –
Qəlbimdə misralanıb,
Sətir-sətir olursan.
Ruhumda, varlığımda,
Allahın yaratdığı
Ən xoş ətir olursan.

Nə vaxt səni görürəm –
Ömür üçün ayrılan,
Yüz ilə az deyirəm.
Dərin dənizlərə də,
Eşqimizin yanında,
Baxıb, dayaz deyirəm.

Nə vaxt səni görürəm –
Qaynar baxışlarında,
Hər dənizi, dalğanı,
Hər adanı görürəm.
Dərk edirəm Allahı,
Yaratdığına baxıb,
Yaradanı görürəm.

2001, 22 mart

DÜNYANIN NƏ GÖZƏL VAXTI GÖRÜŞDÜK

Əridi həsrətim, açıldı buzum,
Cənnət ətri verdi çörəyim, duzum.
Getdi qar-boranım, gəldi Novruzum,
Allah üzümüzə baxdı, görüşdük.
Üz-üzə dayandıq, göz-gözə durduq,
Dünyanın nə gözəl vaxtı görüşdük.

Qarın qar ətri var, barın bar ətri,
Bir çiçək ətri var, bir də yar ətri.
Arzular dalğası, duyğular ətri,
Ürəkdən-ürəyə axdı, görüşdük,
Dünyanın nə gözəl vaxtı görüşdük.

Qurban kəsilirəm mən bu axşama,
Danışdın, dilindən bal dama-dama.
Sənintək işığa, mənimtək şama,
Tale öz odunu yaxdı, görüşdük.
Dünya gözəlləşir gözəl güləndə,
Dünyanın nə gözəl vaxtı görüşdük.

Abadlıq gətirdi bir viranlığa,
Gəlişin son qoydu lal qaranlığa.
Zəlimxan yenə də çatdı xanlığa,
Güldü gözəlliyin taxtı, görüşdük.
Ay salam göndərdi, Gün "əhsən" dedi,
Dünyanın nə gözəl vaxtı görüşdük.

2000, 25 mart

SEVGİ NƏDİR, GÖRƏSƏN?

Qayada mamırdımı?
Daş üstə çiçəkdimi?
Gülə könül bağlayan,
Xallı kəpənəkdimi?
Ay şəfəqi, gün nuru,
Buludmu, şimşəkdimi?
Sevgi nədir, görəsən?

İlk insanın dünyaya
Gəldiyi ilk andımı?
Baxışdakı od-alov,
Damardakı qandımı?
Tanrıya tapındıran,
Dindimi, imandımı?
Sevgi nədir, görəsən?

Sızlayan Əslidimi,
Alışan Kərəmdimi?
Məcnun gözlərindəki,
Bir əbədi qəmdimi?
Həyatdı, yoxsa, ölüm,
Toydumu, matəmdimi?
Sevgi nədir, görəsən?

Götür beli, külüngü,
Qayasını çap görək.
Çırma biləklərini,
Qalasını yap görək.
Oğulsansa, ömür qoy,

Mənasını tap görək,
Sevgi nədir, görəsən?

Nəğmədimi, səsdimi,
Haraydımı, ündümü?
Ruhun zirvələr boyu
Ucaldığı gündümü?
İlahi, bu sualın,
Cavabı mümkündümü?
Sevgi nədir, görəsən?

2002, 4 aprel

ALAQ OTU HARDAN ÇIXDI?

Gülüm, qaratikan bitdi,
İki gülün arasında.
Alaq otu hardan çıxdı,
Cüt sünbülün arasında?

Neçə dağlar, dərələr var,
Haraylar var, nərələr var.
Qarlı dağlar, dərələr var,
İçlə çölün arasında.

Yanaq zərin içindədi,
Buxaq tərin içindədi.
Tül məxmərin içindədi,
Məxmər tülün arasında.

Oynadım məxmərlə, tüllə,
Açıldım hər açan güllə.
Sevgi durur o könüllə,
Bu könülün arasında.

2000, 6 mart

OLDU

Mən də bir zamanlar sevdim, sevildim,
Gözəl sünbül bitdi, gözəl dən oldu.
Əridim, sızladım, yandım, tüküldüm,
Gözəl baxa-baxa göz əldən oldu.

Əridə bilmədim bu qar həsrəti,
Əyə də bilmədi vüqar həsrəti.
Bir qız intizarı, bir yar həsrəti,
Qara saçlarımda gözəl dən oldu.

Sevginin çalısı, çəpəri yoxdur,
Yorğunam, canımın təpəri yoxdur.
Vallah, Əzrayılın xəbəri yoxdur,
Mənə nə oldusa gözəldən oldu.

2000, 10 mart

SONRADAN AĞLAMA ZƏLİMXAN ÜÇÜN

Yanımda sən varsan, üstümdə Allah,
Xətrimə dəyməsən, O, dəyən deyil.
Mənim bu ilahi azadlığıma,
Sən bir söz deməsən, O, deyən deyil.

Şirinsən şöhrətdən, ucasan addan,
Zərif gülüşlərin çıxarmı yaddan?
Sevirəm, qorxum yox alovdan, oddan,
Su məni yandıran, od əyən deyil.

Cəllad günahkardı axan qan üçün,
Ev tikmək çətindi, ev yıxan üçün.
Sonradan ağlama Zəlimxan üçün,
Yüz fikir bir borcu ödəyən deyil.

2000, 11 mart

İÇİM BAŞDAN-BAŞA SƏHRA QUMLARI

Sevincin yolunu tapa bilmirəm,
Dərdin kökü məndə, pöhrəsi məndə.
Gözəl var, könlünü güldürəmmirəm,
Hələ də tutqundu çöhrəsi məndə.

Sular var, gözündən içilmir hələ,
Çaylar var, üstündən keçilmir hələ.
Yağı ayranından seçilmir hələ,
Çalxanır zamanın nehrəsi məndə.

Ay aşıq, canıdır gecə dastanın,
Dastanın, özü də necə dastanın.
Qatı açılmamış neçə dastanın,
Tahiri məndədi, Zöhrəsi məndə.

İçim başdan-başa səhra qumları,
Gördü gözlərimiz çox zulumları.
Yanır Kərəmlərin Ərzurumları,
Yanır Məcnunların səhrası məndə.

2000, 11 mart

DASTAN

Bu qədər qəmlər içində
mən də bir qəm dastanıyam,
Yanağın od, gözün nisgil,
kirpiyin nəm dastanıyam.

Ürəklərdən ürəklərə
axdım haqqın səsi kimi,
Nə dəftərə yazılmışam,
nə qələm dastanıyam.

Aşıqların sazındayam,
gözəllərin nazındayam,
"Leyli-Məcnun", "Fərhad-Şirin",
"Əsli-Kərəm" dastanıyam.

Məcnun öldü, Kərəm yandı,
Fərhad yardı öz başını,
Neçə-neçə talesizin
taleyi kəm dastanıyam.

2000, 14 mart

TƏKİ SƏN ALASAN MƏNİM VAXTIMI

Hamı səndən deyir, səndən danışır,
Gözü açılmamış səhərin, gözəl.
Sənin doğulduğun gündən danışır,
Başqa sözü yoxdu şəhərin, gözəl.

Deyirsən, bağışla, vaxtını aldım,
Təki sən alasan mənim vaxtımı.
Qəlbimdən keçəni oxuya bilsən,
Qəlbinə köçürrəm öz paytaxtımı.

Nə dedi-qodular, qeybət, gileylər,
Nə də boş yalanlar vaxtımı alsın.
Bircə baxışıyla od salıb cana,
Ruhumu alanlar vaxtımı alsın.

Udduğum havaya, içdiyim suya,
Dərindən çəkdiyim nəfəsimə dön.
Yaşamaq nə qədər çətinləşsə də,
Sən mənim yaşamaq həvəsimə dön.

Hazıram mən sənə qurban verməyə,
Bir günün iyirmi dörd saatını da.
Birlə yüz rəqəmi arasındakı,
Şairin ömürlük həyatını da.

2000, 16 mart

SEVGİSİZ OLANDA

Qoru mənliyini od qoruyantək,
İsmət qoruyantək, ad qoruyantək.
Sevgisiz olanda quruyur insan,
Ağac quruyantək, ot quruyantək.

Sığal görməyəndə, meh görməyəndə,
Çəmən görməyəndə, şeh görməyəndə,
Başı dəyməyəndə ildırımlara,
Gözü baxmayanda sıldırımlara,
Mehin sıxlığına vurulmayanda,
Şehin saflığında durulmayanda,
Sellərə, sulara qarışmayanda,
Əsən küləklərlə yarışmayanda
Qara torpağına, qarlı dağına,
Xınalı daşına qayıda bilmir.
İtirir səmtini, azır yolunu,
İtən yaddaşına qayıda bilmir.
Ağlamaq istəsə, çəkilir yaşı,
Gözünün yaşına qayıda bilmir,
Sevgisiz olanda quruyur insan.

Axşamı, səhəri qarışıq düşür,
Yeri nə, yurdu nə, evi nə, bilmir.
Göz yumur göylərin genişliyinə,
Günəşə baxanda sevinə bilmir.
Ömrü ömür kimi yaşamaq üçün,
Həyatda heç nədən güc ala bilmir.
Qəlbini, ruhunu yaşıllaşdırıb,
Dağlara baxanda ucala bilmir,
Dağlara baxanda sərtləşə bilmir,

Dərd olur, heç kimlə dərdləşə bilmir.
Zaman sınağında, vaxt axarında,
Kişiləşə bilmir, mərdləşə bilmir,
Sevgisiz olanda quruyur insan.

Yazda çiçəyi yox, yayda barı yox,
Çör-çöpə çevrilmiş budaq kimidir.
Tüstüsü görünməz, istisi gəlməz,
Külü göz çıxardan ocaq kimidir.
İllərlə şeh dəyib, yağış görməyən,
Quraqda qovrulan torpaq kimidir.
Solar təbəssümü, donar gülüşü,
Su deyib alışan dodaq kimidir,
Sevgisiz olanda quruyur insan.

Vurul, bu ərişi, bu arğacı sev,
Nə fərqi – gülü sev, ya ağacı sev.
Qum dənəsi boyda bir böcəyi sev,
Çölü sev, quşu sev, kəpənəyi sev,
Gəzdiyin, gördüyün dağı-daşı sev.
Yerdə Peyğəmbəri, göydə Allahı,
Vətənin bağrında vətəndaşı sev,
Sonu görünməyən üfüqləri sev.
İnsan ürəyinə, insan beyninə,
Üfüqdən süzülən şəfəqləri sev.
Sev ki, qovuşasan nura, saflığa,
Sev ki, qarışasan bu şəffaflığa.
Sev ki, qaranlıqda günəş görəsən,
Sev ki, kül içində atəş görəsən.
Sev ki, duyğularla aşıb-daşasan,
Sev ki, yaradana yaxınlaşasan.
Sevgiylə başabaş nurdu, nur, insan,
Sevgi tükənəndə qurtarır ömrü,
Sevgisiz olanda quruyur insan.

2000, 1 dekabr

XEYİR-DUA VER, ANA!

Uzun yola çıxmışam,
yol uzaqdan uzaqdı,
Yer var, bürkü, istilik,
yer var, şaxta, sazaqdı,
Xeyir-dua ver, ana!

Acı qatan olmasın
iştahama, aşıma,
Yandır üzərliyini, duzu
çevir başıma.
Bir xətər toxunmasın
zehnimə, yaddaşıma,
Xeyir-dua ver, ana!

Başın çəkib, bilirsən
karvan nədi, köç nədi,
Bu karvanda, bu köçdə
savab nədi, suç nədi,
Xeyir-duası yoxsa,
keçən ömür heç nədi.
Başı bəlalar çəkən
bütün oğullar üçün,
Qəriblərə yar üçün
xeyir-dua ver, ana!

Dünyanın gözyaşıdı
dizəcən batdığın su,
Məni kövrək böyüdüb
göz yaşı qatdığın su.

Ruhumuzu qorusun
arxamca atdığın su,
Dünyanın bu başından
özün yola sal məni.
Dünyanın o başıdı
mən getdiyim yer, ana,
Xeyir-dua ver, ana!
Xeyir-dua ver, ana!

2000, 8 dekabr

QƏFİL GƏLƏN SEVİNC NƏ GÖZƏL OLUR

Özün də bilmirsən harda gizlənir,
Çiçəyə bürünür, qarda gizlənir.
Sanki göy durulur, yer təmizlənir,
Qəfil gələn sevinc nə gözəl olur.

Yoluna göz dikib yorulmağın yox,
Üzücü həsrətə yar olmağın yox.
Qovrula-qovrula qor olmağın yox,
Qəfil gələn sevinc nə gözəl olur.

Yada zəhməti yox, dosta minnəti,
Heç kəsin fikrini soruşmaz qəti.
Nə nağılı sevər, nə məsləhəti,
Qəfil gələn sevinc nə gözəl olur.

İntizar ürəyi hey çəkir dara,
Xəbər var, gəlmir ki, canın qurtara.
Gəlişi muştuluq gətirir yara,
Qəfil gələn sevinc nə gözəl olur.

Nə dan yeri duyur, nə sabah bilir,
Nə insan eşidir, nə dərgah bilir.
Onun gəlişini bir Allah bilir,
Qəfil gələn sevinc nə gözəl olur.

Ruha sığal çəkib əsir meh kimi,
Doğur işıq kimi, düşür şeh kimi.
Taxtına qaldırır səni şah kimi,
Qəfil gələn sevinc nə gözəl olur.

Ona can söylədim, mənə can dedi,
Sevindi, sevgimə bir dastan dedi.
Axır ki, bir gün də Zəlimxan dedi,
Qəfil gələn sevinc nə gözəl olur.

2000, 17 yanvar

İLAHİ SEVGİLƏR

Qəlbində ocaq var, əlində od var,
Mənə öz qəlbini, öz əlini ver.
İlahi sevgidə ilahi dad var,
Mənə sevgilərin gözəlini ver.

İlahi sevgilər coşar, çağlayar,
Çayların səddinə, bəndinə baxmaz.
Yalnız Allahına könül bağlayar,
Qara keşişlərin fəndinə baxmaz.

İlahi sevgilər yaxar-yandırar,
Ahından yer mələr, göy mələr, gözəl.
Alovu göyləri işıqlandırar,
Açılmaz yenə də düymələr, gözəl.

İlahi sevginin qanadları var,
Yaranıb yüksəklər dərinlər üçün.
Külüngə güvənən Fərhadları var,
Süd arxı çəkdirər Şirinlər üçün.

İstəyim işıqlı, eşqim əbədi,
Gözəlim, olmadım sevgidən dayaz.
Məcnundu, Fərhaddı, Kərəmdi-nədi,
Məni də onların cərgəsinə yaz!

İlahi sevgilər eşqə can verib,
Özünü Allahda görənlərindi.
Otuz doqquz dəfə imtahan verib,
Qırxıncı qapıdan girənlərindi!

2000, 21 aprel
Altıağac

SƏN BİLMƏDİN
MƏN KİMƏM

Bulud yardım, duman keçdim, dağ aşdım,
Şimşək bildi, sən bilmədin mən kiməm.
Gur yağış da, büllur şeh də tanıdı,
Çiçək bildi, sən bilmədin mən kiməm.

İştahamda acılanmış aş oldun,
Ömrüm boyu gözlərimdə yaş oldun.
Mamır basmış, kif bağlamış daş oldun,
Çiçək bildi, sən bilmədin mən kiməm.

İldırımı cilovladı inadım,
Ömrü-günü yoxuşlarda sınadım.
Göy üzünü qucaqladı qanadım,
Lələk bildi, sən bilmədin mən kiməm.

Dərd əlində qəlbim yeddi paradı,
Bağrım başı zədən-zədən yaradı.
Sığal çəkdi, saçlarımı daradı,
Külək bildi, sən bilmədin mən kiməm.

Tövbə eylə, xəcalət ol, nə xeyri,
Gecikmiş bir məhəbbət ol, nə xeyri.
Duz-çörək ol, bol sərvət ol, nə xeyri,
Çörək bildi, sən bilmədin mən kiməm.

Məclislər də, meydanlar da tanıdı,
Ariflər də, nadanlar da tanıdı,
İblislər də, şeytanlar da tanıdı,
Mələk bildi, sən bilmədin mən kiməm.

Qulaqları bəm tanıdı, zil bildi,
Dilbilməzlər dil öyrəndi, dil bildi,
Aslan bildi, dəvə bildi, fil bildi,
Milçək bildi, sən bilmədin mən kiməm.

Tapınmadın mən dediyim dərgaha,
Tapınsan da gecdi daha, gec daha.
Zəlimxanın səsi çatdı Allaha,
Fələk bildi, sən bilmədin mən kiməm.

2000, 30 aprel

UÇDUM BİR SEVDANIN QANADLARINDA

Qışın şaxtasında
gəldim dünyaya,
Çiçəklər göndərdi
yaz xəbərini.
Uçdum bir sevdanın
qanadlarında,
Elçilər gətirdi
qız xəbərini.

Doğuldum, böyüdüm
məhəbbət kimi,
Səpildim torpağa
bərəkət kimi,
Haqq özü endirdi
bir sərvət kimi,
Tanrıdan eşitdim
söz xəbərini.

Səs gəldi, səsimə
səda verdilər,
Ruhumu atəşə,
oda verdilər,
Şirin bir yuxuda
badə verdilər,
Qorquddan öyrəndim
söz xəbərini.

Ağrılar dolaşır
ayağa, ələ,
Həyat hər addımda
qurur bir tələ.
Zəlimxan, getməyə
tələsmə hələ,
Ölüm gətirəcək
bez xəbərini.

2002, 5 sentyabr

SEVƏ BİLİRSƏNSƏ

İnsanın eşq adlı bir Allahı var,
Yaşasan gözəldi ömrün hər çağı.
Hər günün sehrli bir sabahı var,
Bu xoruz banıdı, bu səhər çağı.

Sevgidi varlığın ən şirin sözü,
Cilvədi, naxışdı, nəğmədi, səsdi.
Saflıq istəyənə bulağın gözü,
Sevmək istəyənə dan yeri bəsdi.

Sarsılma düşəndə dumana, çənə,
Nə sıxıl, nə darıl, nə üzül, yaşa.
Sevgisiz bir gün də artıqdır sənə,
Sevə bilərsənsə, lap yüz il yaşa!

2000, 29 iyun

AĞLA

Bütün ümidləri qır,
Bütün telləri sındır.
Bütün işıqları söndür,
Bütün yolları bağla.
Sonra, heyf sənə, de,
Yalançı göz yaşıyla,
Ağla, üstümdə ağla.

2000, 31 iyul

SƏNİ BİR ŞAİR SEVİR

Səni bir şair sevir,
Varmı xəbərin, gözəl?
Sözü səndəndir, ancaq,
Bütün şəhərin, gözəl.

Səni bir şair sevir,
Ucaboy, enlikürək.
Başdan-başa məhəbbət,
Özü boyda bir ürək.

Səni bir şair sevir,
Zəriflərin zərifi.
Ona tərif nə gərək,
Allahdandı tərifi.

Səni bir şair sevir,
Eşqinin ozanıdı.
Bircə soyuq baxışın,
Ömrünün xəzanıdı.

Səni bir şair sevir,
Ona çəkdirmə ahı.
Sevməkdi Peyğəmbəri,
Sevilməkdi Allahı!

2000, 10 avqust

BU GECƏ BİR QIZIN NAZ GECƏSİDİ

Nə ağrı-acı var, nə bir dərd-azar,
Nə dedi-qodu var, nə giley-güzar.
Nə quyu qazan var, nə mərdimazar,
Bu gecə ruhumun saz gecəsidi.

Səssizlik içində ilahi bir səs,
Çırpınan bir könül, yanan bir nəfəs.
Gəncliyi geriyə qaytarıb həvəs,
Bu gecə ömrümün yaz gecəsidi.

Yanaq titrəyəydi, dodaq yanaydı,
Zaman dayanaydı, vaxt uzanaydı.
Sevənlər özünü tanrı sanaydı,
Heyif ki, möhlətin az gecəsidi.

Dözdüm, bir zalımın qızına dözdüm,
Gülü gec açılan yazına dözdüm.
Məni öldürsə də, nazına dözdüm,
Bu gecə bir qızın naz gecəsidi.

2000, 15 avqust

DÜŞƏCƏK

Bu istilər gəldi keçdi,
Daha soyuqlar düşəcək.
Əsər payız kölgələri,
Budaqlardan bar düşəcək.

Dağda sükut, daşda sükut,
Səssizliyin yasını tut.
Kövrələndə qara bulud,
Yerə, yurda qar düşəcək.

Ağ ulduzlar asım-asım,
Hansını bağrıma basım?
Rəhmət sənə, Xəstə Qasım,
Yada yenə yar düşəcək.

2000, 30 avqust

ŞAH BAŞINDA TAC KİMİ

İyirmi gün tamamdı,
evimdən uzaqdayam,
Vurnuxuram, hər şeyə,
yerə, göyə ac kimi.
Allah! Bir-birimizə
necə doğmalaşmışıq,
Ev qurulu bir xana,
mən əriş-arğac kimi.
Gedib uzaq elləri
gəzsə də, dolansa da,
Hər kəsə öz evi xoş,
ağrıya əlac kimi.
Buludlarla öpüşüb
başın göyə dəysə də,
Gərək öz həyətində
bitəsən ağac kimi.
Hər kişinin evinə
istəyi, məhəbbəti,
Gərək ucada dursun
şah başında tac kimi.

2002, 19 yanvar

GÜLMƏKDƏN GÖZƏL NƏ VAR?

Təki ürəkdən gələ,
Gülməkdən gözəl nə var?
Gülə-gülə göz yaşı,
Silməkdən gözəl nə var?

Qonaq edə bağına,
Çağıra qız çağına.
Gözəlin ayağına,
Gəlməkdən gözəl nə var?

Qismət tuta, sarıya,
Ömür bəxtdən yarıya.
Yarla canı yarıya,
Bölməkdən gözəl nə var?

Sözün gücü yerində,
Eşqin sirri dərində.
Bir qız qədəmlərində,
Ölməkdən gözəl nə var?

2001, 15 dekabr

GÖZƏL

Dayanma uzaqda, keç otağıma,
Əllərin üşüyər ayazdan, gözəl.
Gəlişin könlümə bahar gətirsin,
Doyunca zövq alım bu yazdan, gözəl.

Gələsən, qışımı yaz eyləyəsən,
Gələsən, ruhumu saz eyləyəsən,
Elə ömrün boyu naz eyləyəsən,
Öləm bu qəmzədən, bu nazdan, gözəl.

Əbədi eşq olur, ötəri həvəs,
Ömür bir udumluq çəkilən nəfəs.
Tələs sevilməyə, sevməyə tələs,
Qocalıq gələcək bir azdan, gözəl.

2000, 5 sentyabr

ÖLDÜRÜR

Məni nə bir dost töhməti,
Nə də bir qarğış öldürür.
Nə başıma dəyən dolu,
Nə yağan yağış öldürür.
Nə rəngi saralan payız,
Nə də ki qar, qış öldürür.
Əzrayılın xəbəri yox,
Mənim iki cəlladım var,
Məni cüt baxış öldürür.

2000, 3 oktyabr

MƏNİ SEVƏ-SEVƏ ÖLDÜR, İLAHİ!

Sevgidən doğuldum, sevdim, sevildim,
Məni sevə-sevə öldür, İlahi!
Allahın gücünü sevəndə bildim,
Məni sevə-sevə öldür, İlahi!

Sellərə çevrilim, kükrəyim, axım,
Buluda çevrilim, gurlayım, çaxım.
Ətəkdən boylanım, zirvədən baxım,
Məni sevə-sevə öldür, İlahi!

Şirindir sevilən hər gün, hər saat,
Dünya gözəlitək, gəl, mənə naz sat.
Kül olmaq ölümdü, köz olmaq həyat,
Məni sevə-sevə öldür, İlahi!

Çəmənin üstündən əsən meh eylə,
Çiçəyin gözündən öpən şeh eylə.
İstər nökər eylə, istər şah eylə,
Məni sevə-sevə öldür, İlahi!

Qara saçlarıma sevgi dən olsun,
Mən bir sünbül olum, sevgi dən olsun.
Elə ölümüm də sevgidən olsun,
Məni sevə-sevə öldür, İlahi!

Həvəsim önündə əsrlər azdı,
Eşqimin yanında sular dayazdı,
Məni sevə-sevə yaşatmaq azdı,
Məni sevə-sevə öldür, İlahi!

2000, 10 noyabr

MƏNƏ BU SÖZLƏRİ YAZDIRAN MƏLƏK

Dilin uzun olsun,
üzün ağ olsun,
Yaşıl duyğuların
yaşıl tağ olsun,
Günahın eşq ilə
yaşamaq olsun,
Qapını vədəsiz
döyməsin külək,
Mənə bu sözləri
yazdıran mələk.

Kimin gücü çatar,
kim agah eylər,
Sevgi insanları
niyə şah eylər?
Eşqimi ən uca
bir dərgah eylər.
Hər incə barmağın
zərif bir lələk,
Mənə bu sözləri
yazdıran mələk.

Dodağı nəğməli,
sinəsi sazlı,
Göy kimi havalı,
yer kimi nazlı.
Göyərçin görkəmli,
durna boğazlı,

Ən şirin arzudu,
ən şirin dilək,
Mənə bu sözləri
yazdıran mələk.

Varlığın başabaş
nurda, işıqda,
Özünsən günəş də,
nur da, işıq da.
Dünyanı dolandım
sən yaraşıqda,
Nə bağda gül gördüm,
nə düzdə çiçək,
Mənə bu sözləri
yazdıran mələk.

Yanağın xalına
xal çatan deyil,
Dodağın balına
bal çatan deyil,
Taxtın çox ucadı,
əl çatan deyil,
Ya uca tanrısan,
ya zalım fələk,
Mənə bu sözləri
yazdıran mələk.

2001, 26 yanvar

GETMƏ

Suya toxundursam, su yuyar, gedər,
Getmə, əllərimin xınası, getmə.
Qorxuram dumanda itib-batasan,
Getmə, göylərimin durnası, getmə.

Bilmirəm tanrısan, yoxsa bir bəşər,
Şair qismətinə gözəllər düşər.
Gedərsən, gözümdə göllər titrəşər,
Getmə, göllərimin sonası, getmə.

Keçilməz sədd olar, aşılmaz hasar,
Qəm bir qapaz olub başımdan basar.
Ləpələr kükrəyər, dalğalar susar,
Getmə, sevincimin dəryası, getmə.

Odlanan ürəyim, nurlanan üzüm,
Çağlayan ilhamım, sellənən sözüm.
Axşamım, səhərim, gecəm, gündüzüm,
Getmə, həyatımın mənası, getmə.

2001, 24 fevral

MƏNİM HƏSRƏT KİTABIM

Ayrılığın həsrət, hüzn,
Mənim həsrət kitabımsan.
Ağrısı çox ömrümüzün,
Mənim həsrət kitabımsan.

Gözümün yaşı duzladı,
Bağrımın başı buzladı,
Qəlbimin teli sızladı,
Mənim həsrət kitabımsan.

Qayğıları başdan aşan,
Fikri-zikri aşıb-daşan,
Gündən-günə qalınlaşan,
Mənim həsrət kitabımsan.

Mən yerdə, sən yeddi qatda,
Fırlanırıq Kainatda.
Qovuşmadıq bu həyatda,
Mənim tale kitabımsan.

Hey səslərəm, soraqlaram,
Nisgilimi qucaqlaram.
Xəyalımla varaqlaram,
Mənim həsrət kitabımsan.

2001, 12 mart

SƏN VARSAN

Bu yetər mənimçün,
sən varsan həyatda,
Dipdiri, yamyaşıl
baharsan həyatda.
Sən varsan səbirdə,
dözümdə, inadda,
Sevginin verdiyi
qırılmaz həyatda,
Düz keçib, dağ yarıb,
daş oya bilərəm.
Sən varsan, Allahın
ey əziz bəndəsi,
Sən varsan, Allaha
baş əyə bilərəm.
Torpağı başımın
üstünə qaldırıb,
Dağları çiynimdə
daşıya bilərəm!

2001, 23 mart

GÖRMƏDİM SƏNİ

Beş ay illər qədər uzandı getdi,
Beş ayda bir dəfə görmədim səni.
Bəlkə, durna kimi üfüqlərdəsən,
Boylandım o səfə, görmədim səni.

Gözləmək dünyanın ən ağır yükü,
Həsrətdən ağardı başımın tükü.
Baxmaqdan saraldı gözümün kökü,
Baxdım sən tərəfə, görmədim səni.

Bahar görünərdi qarlı qış mənə,
Muştuluq verərdim dosta, düşmənə.
Şərəf gətirərdi bu görüş mənə,
Çatıb o şərəfə, görmədim səni.

2001, 11 aprel

ÖMRÜN ŞAH GECƏSİ

Könül, bu gecəni
vermə əlindən,
Bu gecə zövq anı,
ruh gecəsidi.
Bir gözəl gözündə
iki damla yaş,
Bir qız yanağında
şeh gecəsidi.

İlahi bir andı,
gəlib gedəcək,
Qəlbini, ruhunu
dəlib gedəcək,
Hələ ki diridi,
ölüb gedəcək,
Ürəkdən çəkilən
ah gecəsidi.

Gözəldi gözəllə sarışıb
ölmək,
Gözəldi gözəllə barışıb
ölmək,
Bir qız nəfəsinə qarışıb
ölmək,
Bir insan ömrünün
şah gecəsidi.

2002, 1 sentyabr

KÖVRƏK AĞRI

Qızlar keçib gedir belədən-belə,
Baxıram, gözəllər baxır, yan keçir.
De, kimə lazımam mən indən belə,
Hər qız ürəyindən bir oğlan keçir.

Çiyin tab gətirmir hər ağır yükə,
Qayğıdı insanın başından basan.
Dünyada ən kövrək ağrıdı, bəlkə,
Gözəllər gəncləşə, sən qocalasan!

2001, 23 may

KÜSKÜN GÖZƏL

Mürəkkəbləmi yazdı, qanlamı möhürlədi,
Qələmi qırılaydı məni sənə yazanın.
Cəhənnəm atəşidi sənlə üz-üzə gəlmək,
Necə çəkim yükünü mən bu boyda cəzanın.
Çiçəklərin içində bir ürək saxlamışdım,
Günahkarı sən oldun qəlbə düşən xəzanın.
Sən elə qarğamışsan taleyimə, bəxtimə,
Nə namazın xeyri var, nə duanın, əzanın.
Sən öyrətdin dilimi şikayətə, qarğışa,
Pərəni pozulaydı, pərənimi pozanın.

2001, 18 sentyabr

DƏRD ÇOXALSA, DƏVA SIZLAR

Uçub getdi könlüm quşu,
Budaqda bir yuva sızlar.
Görən, harda qərar tutur,
Yurd itirmiş yuvasızlar.

Bulud axdı, göy titrədi,
Gözümdə hər şey titrədi.
Könlümdə bir şey titrədi,
Başımda bir tava sızlar.

Bax saçlara düşən ağa,
Bax sinədə çarpaz dağa.
Gücü çatmaz sağaltmağa,
Dərd çoxalsa, dəva sızlar.

2001, 20 sentyabr

AĞAC QAPI

Bir ağac ustasının
sevimli əsəridi,
O qapını yavaş vur,
asta aç, asta bağla.
Azalmasın bu evin
heç vaxt qonaq-qarası,
Yorulmasın əllərin,
dosta aç, dosta bağla.

2002, 22 iyun

SALAMAT QAL,
AY CAVANLIQ

Bir zamanlar gücüm vardı,
Şir ağzından tac almağa.
Çox güclülər can atardı
Gəlib məndən güc almağa.

Cənnət idi məkanımız,
Tanrı idi təkanımız.
Vardı hər cür imkanımız,
Dərgahlara ucalmağa.

Heyif gənclik, vay cavanlıq,
Varmı sənə tay, cavanlıq?
Salamat qal, ay cavanlıq,
Mən gedirəm qocalmağa.

2002, 6 avqust

BU AXŞAM

Nə sözüm tükənir, nə dilim susur,
Vergimi veriblər mənə bu axşam?
Gözümün önündən gözəllər keçib,
Gəlmişəm imana, dinə bu axşam.

Boylanmaq olmur ki, oba var, el var,
Gözümdə yağış var, qəlbimdə sel var.
Bir hovuz yanında qırx incəbel var,
Od tutub alışır sinə bu axşam.

Ruhum saza dönüb, ürəyim neyə,
Qorxuram ayrılıq xətrimə dəyə.
Fikir dağlarında tikmişəm dəyə,
Qurmuşam özümə binə bu axşam.

Sevgidən, ilhamdan yoğrular maya,
Kövrələr gül-çiçək, məst olar qaya.
Bir şeir süzülüb gələr dünyaya,
Bir şair doğular yenə bu axşam.

2002, 6 aprel

QOCALDIR ADAMI YOLLAR GÖZLƏMƏK

"Get, Ay batandan sora gəl"
Xalq mahnısından

Sənlə bütövəm, sənlə tamam,
Sənsiz sevincimin yarısı yoxdu.
Qocaldır adamı yollar gözləmək,
Həsrətin Allahı, tanrısı yoxdu.

Baxışlar alovlu, kölgələr sərin,
Ürəklər nəğməli, duyğular dərin.
Vaxtında vüsala yetişənlərin,
Rənginin alı var, sarısı yoxdu.

Kərəm yanğısına nə bənd, nə bərə,
Acizdi önündə yoxuş, dağ, dərə.
Sevənə açıqdı qapı, pəncərə,
Sevginin hasarı, barısı yoxdu.

Yumşaldar şaxtanı, əridər qarı
Xəlvəti görüşün pıçıltıları.
Mən sənə çiçəyəm, sən mənə arı,
Yazıq o gülə ki, arısı yoxdu.

Qaranlıq üstümə can atmamış gəl,
Tikanlar qəlbimi qanatmamış gəl.
Ay oğlan, bu evə Ay batmamış gəl,
Bu evin imansız qarısı yoxdu.

2002, 18 aprel

NƏ YAXŞI ZƏNG EYLƏDİN

Ölmüşdü ürəyimdə
çal-çağır, toy, tamaşa,
Solmuşdu gözlərimdə
təbiət başdan-başa.
Sapsarı duyğuları
yamyaşıl rəng eylədin,
Nə yaxşı zəng eylədin!

Kəsilməzdi soyuğu,
əriməzdi buzluğu,
Üzərdi ürəyimi
həsrətin sonsuzluğu.
Sükutla, ayrılıqla
döyüşdün, cəng eylədin,
Nə yaxşı zəng eylədin!

Qaytardı səsin məni
cəhənnəmdən cənnətə,
Dağlar da baş əyərmiş
dağ boyda məhəbbətə.
Ətirli nəfəsini
əlvan çələng eylədin,
Nə yaxşı zəng eylədin!

Gözlərimin önündən
nələr keçdi, ah, nələr,
Cilvələndi ruhumda
tamaşalar, səhnələr.
Cavanlaşdı qocalar,
təzələndi könüllər,
Sən bu qarı dünyanı
qızdan qəşəng eylədin,
Nə yaxşı zəng eylədin!
Nə yaxşı zəng eylədin!

2002, 10 may

ÖLMÜŞƏM, XƏBƏRİN YOX

Sevmək istədim,
Ürəyimi qırdın.
Uçmaq istədim,
Qanadımı qırdın.
Yaşamaq istədim,
Ümidimi qırdın.
Baxmaq istədim,
Gözümü qırdın.
Dinmək istədim,
Sözümü qırdın.
Qırhaqır başladın,
Saldın qırğını.
Ölmüşəm, xəbərin yox,
Rahat ola bilərsən,
Ver mənim yasımın
Üçünü, yeddisini, qırxını.

2002, 20 iyun

MƏNİ ZİRVƏLƏRDƏN ENDİRƏN QADIN

Ayıltmaq istədim səni
min kərə,
Qəflət yuxusundan
heç ayılmadın.
Qəlbin uçurum oldu,
ürəyin dərə,
Məni zirvələrdən endirən qadın.

Boşuna zəhmətdi,
hədərdir, hədər,
Qəbrimin üstündə
çiçəklər əksən.
Bilmədin mən kiməm
bu vaxta qədər,
Bu gündən sonra da bilməyəcəksən.

2002, 23 iyun

EŞQ ÜRƏKDƏ MEYDAN TUTUB

Sevgi şəri yaxın qoymur,
Xoş dinir, xeyir yazdırır.
İşığı paltar yerinə
Əyninə geyir, yazdırır.

Eşq ürəkdə meydan tutub,
Şahdı, əldə fərman tutub.
Bir oğlana divan tutub,
Bir qıza şeir yazdırır.

Əri, deyir, şamtək əri,
Haqq yolunda axıt təri.
Ürəyimdən keçənləri,
Qələmə deyir, yazdırır.

2002, 7 avqust

KİMƏ VERƏCƏKSƏN BU ÇİÇƏKLƏRİ?

Yaşıl yaxalarda
gül dərən gözəl,
Gül olub, könlümü
güldürən gözəl,
Kimə verəcəksən
bu çiçəkləri?

Düşdüyün sevdanın
dadını söylə,
Söylə, doğmasını,
yadını söylə.
Bəlkə, tanıyıram,
adını söylə,
Kimə verəcəksən
bu çiçəkləri?

Dər bu çiçəkləri,
dər, gözəl mələk,
Dərdikcə ruhuma
sər, gözəl mələk.
Sənə min göz ilə
bir şair baxır,
Rəngi tül, yanağı
zər, gözəl mələk.

Duymuşam qəlbindən
keçənləri mən,
Ulu məhəbbətə,
uca sevgiyə,

Dinə verəcəksən
bu çiçəkləri.
Mənim ürəyimdə
doğan sevgiyə,
Günə verəcəksən
bu çiçəkləri.
Bilirəm, getməzsən
məndən uzağa,
Dünyaya gül şeiri
gətirmək üçün,
Mənə verəcəksən
bu çiçəkləri.

.

2002, 6 sentyabr

MƏNİM BİRCƏ DİNİM VAR, DİNİMİN ADI SEVGİ

Dillər ayırır bizi,
dinlər ayırır bizi,
Şeytanlar nifaq salır,
cinlər ayırır bizi.
Sevgilər yox, qəzəblər,
kinlər ayırır bizi.
Həyatımın, ömrümün,
dinimin adı sevgi,
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Ruh Adəmə verildi,
Adəmi ruh yaratdı,
Bəşəri xilas üçün
gəmini Nuh yaratdı.
Savaşı, qan-qırğını,
qara günü yaratdı,
Harayımın, səsimin,
ünümün adı sevgi,
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Xızır, Davud, Süleyman,
Musa, İsa, Məhəmməd,
Hər biri təpə-dırnaq
işıq, sevgi, məhəbbət.
"Vəhdəti-vücud", – dedi,
vücudda tapdı vəhdət,
Namazımın, qibləmin,
yönümün adı sevgi,
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Sevgi Günəş kimidir,
düzə, tərsə bölünməz,
Təriqətə, məzhəbə,
sinfə, dərsə bölünməz.
İngilisə, almana,
rusa, farsa bölünməz,
Türkümün, ərəbimin,
çinlimin adı sevgi,
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Kökümün, budağımın,
dizimin, dirəyimin,
Ruhumun, nəfəsimin,
canımın, ürəyimin,
Təndirimin, təknəmin,
duzumun, çörəyimin,
Sünbülümün, tarlamın,
dənimin adı sevgi.
Mənim bircə dinim var,
dinimin adı sevgi.
Doğulmağım da sevgi,
ölməyim də sevgidi.
Kəfənimin, qibləmin,
sonumun adı sevgi,
Ruhumun, nəfəsimin,
canımın adı sevgi.

2002, 7 sentyabr

SEVMƏK HAQQI

Dalğanı dənizdən,
qumu səhradan,
Zərrəni Günəşdən
ayırmaq olmaz.
Ulduzu qoparıb
göyün üzündən,
İşığı atəşdən
ayırmaq olmaz.

Ləngəri buluddan,
axarı seldən,
Sərtliyi qayadan
ayırmaq olmaz.
İnsan ürəyini,
insan qəlbini,
Eşq adlı mayadan
ayırmaq olmaz.

Rəngi təbiətdən,
ətri çiçəkdən,
Saflığı bulaqdan
ayırmaq olmaz.
Duyğunu ürəkdən,
xəyalı başdan,
Nəğməni dodaqdan
ayırmaq olmaz.

Şairin əlini
dəftər-qələmdən,
Gözünü varaqdan
ayırmaq olmaz.

Hər sözü boy verib
cücərməlidi,
Ruhunu torpaqdan
ayırmaq olmaz.
Dayaqdı söz adlı
silahım mənə,
Sevmək haqqı verib
Allahım mənə,
Məni də bu haqdan
ayırmaq olmaz.

2002, 10 sentyabr

MƏHƏBBƏT ADAMI BAŞQADI, QARDAŞ

Gəncliyin eşqini
canında saxlar,
Ruhu da, qəlbi də
cavan adamlar.
Əlli yaşında da,
yüz yaşında da,
Həmişə sevəcək
sevən adamlar,
Məhəbbət adamı
başqadı, qardaş.

Zəriflik istəsən,
çiçəyə dönər.
Kövrəklik istəsən,
mələyə dönər.
Sığal gərək olsa,
hisslərimizə,
Sərin mehə dönər,
küləyə dönər.
Məhəbbət ruhunda,
barış qanında,
Basmaz qanadını
qarışqanın da,
Məhəbbət adamı
başqadı, qardaş.

Gözü qışa baxsa,
qış çiçəkləyər,
Dağa əli dəysə,
daş çiçəkləyər.

Nəfəsi toxunsa,
sal buz əriyər,
Qayalar gözündə
yaş çiçəkləyər.
Dinəndə sevgisi
dinimiz olar,
Ölən nifrətimiz,
kinimiz olar.
Çəkər işığıyla
öz tərəfinə,
Qibləmiz, səmtimiz,
yönümüz olar,
Məhəbbət adamı
başqadı, qardaş.

Adəmin yoludu,
Nuhun yoludu,
Adı qəlbimizdə
müqəddəsləşən,
Nə qədər müqəddəs
ruhun yoludu.
Qorquddan, Abbasdan,
Dilqəmdən keçir,
Məcnundan, Fərhaddan,
Kərəmdən keçir.
Sevinci hamını
işıqlandırır,
Dərdi dəftər olub
qələmdən keçir.
Məhəbbət adamı
başqadı, qardaş.

Öydüyü el üçün
peyğəmbərləşər,
Sevdiyi Əsliyə,
Şirinə dönər.

Hamını qızdırar
odu, alovu,
Yanan ocaqların
pirinə dönər.
Yatdığı torpaq da
qurduğu ev də,
Millətin ziyarət
yerinə dönər.
Məhəbbət adamı
başqadı, qardaş,
Məhəbbət adamı
başqadı, qardaş.

2002, 15 sentyabr

BİR AZ MƏHƏBBƏTDƏN DANIŞAQ

Bir az məhəbbətdən
danışaq gəlin,
Sevgidən, həsrətdən
danışaq gəlin.
Əyləşək diz-dizə,
nəfəs-nəfəsə,
Verək könlümüzü
həzin bir səsə.
Xəyala gətirək
ucalıqları,
Salaq yadımıza
zirvə qarını.
Salaq yadımıza
bizə göz vuran,
Yanan qızılgülün
yanaqlarını.
Salaq yadımıza
saf bulaqları,
Bir az təzələnib
durulmaq üçün.
Yenidən boylanaq
köhnəliklərə,
Dünyaya təzədən
vurulmaq üçün.
İlahi nemətdən
danışaq gəlin.
Bir az məhəbbətdən
danışaq gəlin.

Əkək tarlasını
yaxşılıqların,
Sevgi sünbül olsun,
sevgi dən olsun.
Nifrətdən aralı,
qeybətdən uzaq,
Sözbaşı fikrimiz
sevgidən olsun.
Kim kimi aldatdı,
kim kimi yıxdı,
Kim kimi sürüdü,
sonuna çıxdı,
Taxtdan kim gedəcək,
taxta kim gəlir,
Kim məhkum olacaq,
kim hakim gəlir.
Kim öndə dayanır,
kimi arxada,
Kim kimi məhv edib
verəcək bada.
Nə ki siyasətdən
danışdıq, yetər,
Siyasi qeybətdən
danışdıq, yetər.

Ataq başımızdan
bu sualları,
Hamının dünyası,
hamının yarı
Əbədi qismətdən
danışaq gəlin,
Bir az məhəbbətdən
danışaq gəlin.

Əridək Füzuli
qəzəllərini,
Süzək ruhumuza
şirin bal kimi.

Nəsimi zirvəsi
qaldırsın bizi,
Uçaq səmalarda
bir qartal kimi.
Şeyx oğlu Şahımız
gəlsin məclisə,
O desin, biz duyaq
əhli-hal kimi.
Şirin söhbətimiz,
şirin sözümüz,
Bir vəfa gətirsin
vəfasızlara.
“Görmədim” desə də,
çox şeyi görən,
Vaqifin gözüylə
baxaq qızlara.

Millətdən, qeyrətdən
dəm vurmaq yetər,
Sabir kifayətdi
götürə bilsək.
Dəyər yaşamağa,
dəyər yazmağa,
Dədə Ələsgəri,
ata Vurğunu,
Bu ruh məclisinə
gətirə bilsək.
Hər kəs öz səmtini,
yolunu tapsın,
Çay dənizə axsın,
söz ürəklərə,
İsti yuvalardan
aralanmışıq,
Yenidən qayıdaq
biz ürəklərə.

Şeirdən, sənətdən
danışaq gəlin.
Bir az məhəbbətdən
danışaq gəlin.

Sevgi vəfalıdı,
ömür vəfasız,
Sanki, bir atımlıq
barıtdı ömür.
Göz açıb-yumunca
qurtarır ömür,
Kimi axıracan
yarıtdı ömür?
Allah nə veribsə,
alacaq geri.
Verdiyi nə varsa,
əmanət verir.
Yüzdən o tərəfə
zəmanəti yox,
Birlə yüz arası
zəmanət verir.
Arzunu, ümidi,
eşqi, niyyəti,
Oğulsan, bu vaxta
sığışdır indi.
Kərəmi bu yerdə
ağlamaq tutur,
Oğulsan, ağlayan
Xan Kərəmlərin
Gözünün yaşını
yığışdır indi.
Acizdən acizik
vaxtın əlində,
Bizim əlimizdə
nə var ki, qardaş,
Nə varsa taleyin,
vaxtın əlində.

Bizim bəxtimizə,
qismətimizə,
Ayrılan möhlətdən
danışaq gəlin.
Bir az məhəbbətdən
danışaq gəlin.

Hərə baş götürüb
qaçır bir yana,
Kim dağdan qayıdır,
kim dağa çıxır.
Bəxtəvər başına
böyük şairin,
Deyirlər Füzuli
yaylağa çıxır.
Hərənin ruhunda
bir qəmli nəğmə,
Canımız yaralı,
qanımız qara.
Canda Kür hönkürür,
Araz ağlayır.
Yəhəri qırılan,
ayağı sınan,
Vaxtın köhlənidi,
vaxtın atıdı.
Bahar buludunda
bol olar yağış,
Hər kəs bulud kimi
bir bayatıdı.
Ömür yollarında
səhralar geniş,
Karvanımız ağlar,
köçümüz ağlar.
Dəsmal əlimizdə,
yaş gözümüzdə,
Elə ömrü boyu
içimiz ağlar.

Allah bağışlasın
günahımızı,
Günahımız ağlar,
suçumuz ağlar.
Ağlamaq ki vardı,
mərhəmətdəndi,
Bax, bu mərhəmətdən
danışaq gəlin.

Çıxaq nağıllardan,
əfsanələrdən,
Canlı həqiqətdən
danışaq gəlin.
Axarı-baxarı
dünyaya sığmaz,
Zəngin təbiətdən
danışaq gəlin.
Alaq yolçulardan
yol halallığı,
Alaq arılardan
bal halallığı.
Sevgi özümüzə
qaytarsın bizi,
Nurlu gözümüzə
qaytarsın bizi,
Gözələ heyrətdən
danışaq gəlin.
Bir az təzələnək
köhnə dünyada,
Bir az məhəbbətdən
danışaq gəlin!!!

2002, 16 sentyabr

OYAN, SABAHDI

Dadmısan sevincdən kədərə qədər,
Yatmısan axşamdan səhərə qədər.
Onsuz da yatmaq var məhşərə qədər,
Ömrü yuxulara vermək günahdı,
Oyan, sabahdı!

Baxma dan yerinə mürgülü gözlə,
Qarış təbiətə nəğməylə, sözlə.
Vaxt səni gözləmir, sən vaxtı gözlə,
Hədər keçən günlər ağrıdı, ahdı,
Oyan, sabahdı!

Çiçəklər danışır çiçək diliylə,
Böcəklər danışır böcək diliylə.
Danış təbiətin gerçək diliylə,
Gözəllik həmişə şah oğlu şahdı,
Oyan, sabahdı!

2000, 16 sentyabr

TƏBİƏTƏ VURĞUNAM

Ağacların içində
ən çox palıdı sevdim,
Vaxta meydan oxuyan
qətiyyətinə görə.
Qorxusu yox, pəki yox
şimşəkdən, ildırımdan,
Sevdim şax duruşuna,
şux qamətinə görə.

Hər barmağın vurduğu
bir şirin xalı sevdim.
Yeddi rəngin içində
yaşılı, alı sevdim.
Saysız quşlar içində
ən çox qartalı sevdim,
Hücum vaxtı yenilməz
cəsarətinə görə.

Hər əvvəlin sonu var,
gec günlər tez olacaq.
Hər küləyə yem olan
ayaqda toz olacaq.
Ağdısa ağ qalacaq,
bozdusa boz olacaq.
Qayaları sevmişəm
bir sifətinə görə.

Nəyə baxdımsa, onda
müqəddəs nuru gördüm,
Düzdə bir böyüklüyü,
dağda qüruru gördüm,
Həmişə təmiz, aydın,
saf gördüm, duru gördüm,
Təbiətə vurğunam
təbiətinə görə.

2001, 20 yanvar
Altıağac

AZADLIQ VER ARZULARA

Gözü, könlü intizarda,
Qəlbi köynəkdə saxlama.
Qılınc qında pas atmasın,
Sazı köynəkdə saxlama.

Səsin varsa, qaldır zilə,
Endirib pəsdə saxlama.
Tor-top olar, uça bilməz,
Quşu qəfəsdə saxlama.

Dara düşüb, dardan qurtar,
İgidi darda saxlama.
Burax əldən cilovunu,
Fikri cidarda saxlama.

Ürəyini deşə bilər,
Sözü ürəkdə saxlama.
Gücün çatmır, tulla getsin,
Yükü kürəkdə saxlama.

Öp günəşi zərrə-zərrə,
Fürsəti Aya saxlama.
Bəlkə, heç Ay görünmədi,
Vaxtı sonraya saxlama.

Qıfıl, zəncir, buxov, qandal,
Parçala, canda saxlama.
Azadlıq ver arzulara,
Ruhu zindanda saxlama!

2001, 3 yanvar

OLAYDI

Yıxılıb qalaydım bir dağ döşündə,
Bir damda tüstülü bacam olaydı.
Dərəydim lilparı çeşmə başında,
Suyunu içməyə bir cam olaydı.

İtib getməyəydi o haqqı-saylar,
Qat-qat açılaydı içimdə laylar.
Gümüş sətirlərim, gümüşü çaylar,
Bulaqlar qafiyəm, hecam olaydı.

Qartək əriyəydi qəzəbim, kinim,
Nə adım olaydı, nə rütbəm, çinim.
Həqiqət Allahım, şeiriyyət dinim,
Təbiət ustadım, xocam olaydı.

2001, 8 yanvar
Altıağac

DAN YERİNƏ BAX

Duyğunu təmizlə, hissi təmizlə,
Başından dumanı, sisi təmizlə.
Ruhundan tüstünü, hisi təmizlə,
Hər gözdə çağlasın bir qaynar bulaq,
Dan yerinə boylan, dan yerinə bax.

Kütləşir beyin də, qaralır qan da,
Yorulur ürək də, üzülür can da.
Həyatdan bezdiyin günlər olanda,
Ümid çırağıdı, sönməz o çıraq,
Dan yerinə boylan, dan yerinə bax.

Yerdə zəlzələ var, yerdə vəlvələ,
Göylər yaxasını heç vermir ələ.
Üzü pis üzləri görməyib hələ,
Gəlintək həyalı, qıztək utancaq,
Dan yerinə boylan, dan yerinə bax.

Silinsin yaddaşdan hər dedi-qodu,
Sönsün hər qəzəbin, hər məkrin odu.
Bəlkə də, insanın Allahı odu,
O, səni çağırır Günəşdən qabaq,
Dan yerinə boylan, dan yerinə bax!

2001, 13 yanvar
Altıağac

XƏYALIMDA BİR ULDUZLU GECƏ QALIB

Bu kənd daha mən gördüyüm o kənd deyil,
Nə ocaq var, nə tüstülü baca qalıb.
Oğul-uşaq səpələnib uzaqlara,
Ortalıqda qarı qalıb, qoca qalıb.

Dörd göz ilə saza baxmır uşaqları,
Məclislərdə qoşalaşmır aşıqları,
Orda-burda öləziyir işıqları,
Xəyalımda bir ulduzlu gecə qalıb.

Yetim evlər qəlbə ağrı, ürəyə yük,
Qıfıllanmış qapıların dərdi böyük,
Gedənlərin çoxu sönük, çoxu dönük,
Qalanların çoxu başı uca qalıb.

2002, 1 fevral

YOLA ÇIXMAQ NƏ GÖZƏLDİ

Yola çıxmaq nə gözəldi,
Yollara yoldaş olasan.
Səndən ötrü gen açılan,
Qollara yoldaş olasan.

Ağlayasan, kiriyəsən,
Dincələsən, yeriyəsən.
Yazda qarnan əriyəsən,
Sellərə yoldaş olasan.

Fikir düzlərdən atlana,
Dağların dili qatlana.
Dəli könül qanadlana,
Ellərə yoldaş olasan.

Yana-yana, duya-duya,
Qarışasan oda, suya.
Gedəndə şirin yuxuya,
Güllərə yoldaş olasan.

Atasan nəfsin çulunu,
Həm varını, həm pulunu.
Tapasan haqqın qulunu,
Qullara yoldaş olasan.

2001, 11 fevral

İŞIQLA DOLUDU DÜNYA

Dost işığı, yar işığı,
Gün işığı, qar işığı,
Bütün dünya başdan-başa,
İşıqların qarışığı,
İşıqla doludu dünya.

Arıdadı, çiçəkdədi,
Gözəldədi, göyçəkdədi,
Qara bulud içindədi,
Qəfil çaxan şimşəkdədi,
İşıqla doludu dünya.

Alnı işıq, üzü işıq,
Dünyanın sağ gözü işıq.
Yaradanın öz adıdı,
İlahinin özü işıq,
İşıqla doludu dünya.

Ulduzdu, Aydı, Günəşdi,
Oddu, ocaqdı, atəşdi.
Necə ki, yanar işığı,
Bu dünyanın işi beşdi,
İşıqla doludu dünya.

Saf ürəkdi, sağlam candı,
Damardakı qızıl qandı.
Şeirdi, sözdü, nəğmədi,
Bir parça da Zəlimxandı,
İşıqla doludu dünya.

İşıqlığa çıxaracaq,
Yer üzündə hər nə varsa,
İşığın yoludu dünya.
İşıq ilə müqəddəsdi,
İşıqla uludu dünya.
Əgər yanırsa işığı,
Ömrü yaşamağa dəyər,
İşıqla doludu dünya.

2001, 24 mart

GÖZƏLLİK

Gözəllik bu yer üzünə,
Göydəki işıqdan düşür.
Eşq adamın ürəyinə,
Bəzən bir gül ləçəyindən,
Bircə sarmaşıqdan düşür.
Doğmayanda ulduzları,
Öpməyəndə Ay qızları,
Gözəllərin gözlərində,
Dünya yaraşıqdan düşür.

2000, 23 aprel
Ankara

ANKARADA YAĞIŞ

Qoymur ki, gözəlliyə könül verək,
göz açaq.
Ankaranın yağmuru hey yağır
saçaq-saçaq.
Gözüm üzündə qaldı, gül açmadı
yanağı,
Günəşində çimmədi, incik gedir
qonağı.

2000, 21 aprel
Ankara

BİLMİRƏM

Dənizi üzdən görürəm,
Altında nə var, bilmirəm.
Neçə qatdı dalğaları,
Qatında nə var, bilmirəm.

Duzu gözünün yaşında,
Qayası əli qaşında.
Bu dənizin yaddaşında,
Yadında nə var, bilmirəm.

2000, 17 avqust

MÜBARƏK

Yağdır nurunu üstümə,
Dan yeri, üzün mübarək.
Gecikmə, açıl, ey səhər,
Gələn gündüzün mübarək.

İşığını qəlbimə saç,
Gözə nur ol, qəlbə əlac.
Ey sabahım, gözümü aç,
Açılan gözün mübarək.

Çıxaq ömrün səfərinə,
Gedək eşqin şəhərinə.
Bir şairin dəftərinə,
Yazılan sözün mübarək.

2000, 31 avqust

EŞİTMƏZ

Su versəydim, qurumazdı
bu ağacın budaqları,
Su versəydim, çatlamazdı
bu meyvənin dodaqları.
Allahınmı qarğışıdı,
bəndəninmi günahıdı,
Yoxa çıxdı, qaynamadı
dağ döşünün bulaqları.

Balta çaldıq tarixinə,
yara vurduq yaşına biz,
Zirvəsində qartal vurub
qan çilədik daşına biz.
Elə oyunlar açmışıq
təbiətin başına biz,
Eşitməz insan oğlunu
təbiətin qulaqları.

2000, 31 avqust

TƏBİƏT DEYİRDİN

Təbiət deyirdin, bu da təbiət,
Bu işıqdan götür, bu nurdan götür.
Gələk, ya gəlməyək bir də – ya qismət,
Şehdən, mirvaridən, büllurdan götür.

Qarışır şəhərdə adamın başı,
Kövrək duyğulara şah ola bilmir.
Qaralır qanımız hər addımbaşı,
Durulub bir damla şeh ola bilmir.

Burda süd ağlığı, qar təmizliyi,
Orda kömür rəngi, his qarası var.
Burda təbiətin müqəddəsliyi,
Orda cəmiyyətin üz qarası var.

Təbiət deyirdin, bu da təbiət,
Fikrini torpağa səp, göyərəcək.
Dizinə güc gələr, qoluna qüvvət,
Nəfəsin dəyəndə çöl göyərəcək.

Oğulsan, şeirinlə bir oxucuya
Bir dağ çeşməsini içirə bilsən.
Oğulsan, saflığı sən duya-duya,
İnsan ürəyinə köçürə bilsən.

2001, 10 yanvar
Altıağac

SALAM, YENİ ƏSRİN İLK YAĞAN QARI

Salam, yeni əsrin ilk gələn qışı,
Salam, yeni əsrin ilk yağan qarı.
Bu qədər təmizlik tale naxışı,
Qoru ruhumuzda bu ağlıqları.

Qarın paklığını geysin əyninə,
Üstünə qaradan kölgə düşməsin.
İnsan ürəyinə, insan beyninə,
Çirkab bulaşmasın, ləkə düşməsin.

Ana təbiətin gözləri gülür,
Baxdıqca baxıram bu yağan qara.
Göydən qar qarışıq sevinc tökülür,
Bizi də çıxarır aydınlıqlara.

Ağardır üzünü aranın, dağın,
Bərəkət yağdırır sakit yağan qar.
Qışda ciyərinə hopar torpağın,
Yazda təbiəti havalandırar.

Qardı qış fəslinin bəhrəsi, barı,
Yağdın ürəyimcə, yağdın, nə yağdın.
Yeni əsrimizin ilk yağan qarı,
Əlli bir yaşımın üstünə yağdın.

Bu yeni minillik, bu yeni axşam,
Bu gün də, bu qış da, bu qar da haqdı.
Yaxşı, pis – ömrümü necə yaşasam,
Sənin ayağına yazılacaqdı.

Oyna damar kimi, ləpələn, ey qar,
Qəlbimi, ruhumu ağappaq eylə.
Dirilik suyutək səpələn, ey qar,
Qoru saflığımı, şairliyimi.
Mən ölüb getsəm də, mənsiz dünyada,
Şeiri təmiz saxla, sözü sağ eylə.

2001, 15 yanvar
Altağac

TƏBİƏTİN BİR ANI

Göy üzü dünyaya açıq,
Göy üzündə bulud yoxdu.
Yer üzü dünyaya açıq,
Heç bir yerdə kilid yoxdu.
Eşidən qulaqlar açıq,
Dodaqlarda sükut yoxdu.
Bu, hurilər dünyasıdı,
Belə yerdə dirilik var,
Ölü yoxdu, tabut yoxdu.
Təbiətin bu qədər ki,
Yaşatmağa imkanı var,
Yalan sözdü, hər kim desə,
Yaşamağa ümid yoxdu.

2002, 19 yanvar
Altıağac

BAX, OĞLUM, YAXŞI BAX, TƏBİƏT BUDUR

Dağı ucalığın, tarixin yaşı,
Düzü genişliyin ulu yaddaşı.
Ətəyi bürkülü, zirvəsi sərin,
Uçrumu amansız, dərəsi dərin.
Yağışı göz yaşı, qarı bakirə,
Pətəyi tərtəmiz, arı bakirə.
Şahinin, qartalın baxışında nur,
Bax, oğlum, yaxşı bax, təbiət budur!

Dəvəsi ləngərli, dovşanı ürkək,
Pələngi yırtıcı, ceyranı mələk.
İlanı zəhərli, arısı ballı,
Tülküsü minsifət, bəbiri xallı.
Bayquşu bədnəfəs, bülbülü heyrət,
Qarğası qarıltı, qırğısı qeyrət.
Baxışlar havalı, buynuzlar şeşə,
Maralı dağlarda yeriyən meşə.
Gəl, bu mənzərənin tamaşasına,
Zirvələr yanında zirvə kimi dur,
Bax, oğlum, yaxşı bax, təbiət budur!

Yerin yer dili var, yurdun yurd dili,
İtin it dili var, qurdun qurd dili.
Gülün gül dili var, otun ot dili,
Quşun quş dili var, atın at dili.
Yerdə köklər durar, göydə budaqlar,
Yaddaşı yaddaşa xatirə saxlar.
Qaya dilləndirmək, dağ ovsunlamaq,
Daşı danışdırmaq sənin əlində.

Tarixi, zamanı, vaxtı, vədəni,
Yaşı danışdırmaq sənin əlində.
Görən çox olsa da, götürən azdı,
Kim yadda saxlayar, kimi unudar,
Bax, oğlum, yaxşı bax, təbiət budur!

Damcıda ümman var, ümmanda damcı,
Buludda şimşək var, şimşəkdə qamçı.
Yağışda həyat var, seldə hərəkət,
Sünbüldə zəmi var, dəndə bərəkət.
Yarpaq əlimizdi, torpaq canımız,
Şəlalə hissimiz, həyəcanımız.
Külək sığalımız, meh tumarımız,
Çeşmə ürəyimiz, çay damarımız.
Çatılan qayalar çatıq qaşımız,
Ucalan zirvələr qarlı başımız.
Həyatın, varlığın canı, cövhəri
Havadır, torpaqdır, atəşdir, sudur,
Bax, oğlum, yaxşı bax, təbiət budur!
Yaradan deyilən o hikmət budur!

2001, 5 fevral

GÜL

Gülümsəyən gözəlliksən,
könül açan talesən,
Xoş gəlmisən bu bahara,
xoş gəlmisən yaza, gül.

Bu qədər ki, yaraşıqsan
təbiətə, varlığa,
Ancaq sənin haqqın çatır
hər qəmzəyə, naza, gül.

Torpaq canın, Günəş dostun,
su sirdaşın, od ruhun,
Gül ömrünü şaxta vurub
döndərməsin buza, gül.

Ətrin, qoxun nə deməkdi,
onu sevənlər bilər,
Hədiyyəsən hər oğula,
hər sevilən qıza, gül.

Gül yanaqlar, gül dodaqlar,
gül nəfəslər içində,
Gördüm, dönüb gül olmuşam
səndən yaza-yaza, gül.

2001, 20 mart

BAHAR GƏLİR

Bahar gəlir, nazlı bahar,
Saçlarıma sığal çəkən mehdə gəlir.
Nur damlası, dürr damlası, canlı həyat,
Gözlərimə işıq verən şehdə gəlir.
Müjdə verən qaranquşun qanadında,
Bülbüllərin vurduğu cəh-cəhdə gəlir.
Arıya bax, darıxıbdır çiçək üçün,
O, çiçəyə, o, şirəyə şehdə gəlir.
Bahar ayaq basan yerdə kədər olmaz,
Bahar gəlir ömrümüzə,
Sevgidə, fərəhdə gəlir.

2001, 21 mart

OĞULSAN, YAŞA

Birdən-birə qırdılar
Yamyaşıl meşələri.
Meşə ağacsız qaldı,
Ağac budaqsız,
Budaq quşsuz,
Quş yuvasız.
İndi oğulsan, yaşa
Meşəsiz,
Ağacsız,
Torpaqsız,
Havasız!

2001, 23 mart

GÖZƏLLƏR ŞAHI

Çək şirin nazını bu ağacların,
Açsın çiçəyini, bar versin sənə.
İpək yarpaqların, yaşıl saçların,
Sərin kölgəsində yer versin sənə.

Ağaca Allahın özü kimi bax,
Barlı budaqlardan pay versin sənə.
Yaşıl duyğulardan yaşıl qanad tax,
Ağac özü kimi boy versin sənə.

Kim daşa tapınır, kimi torpağa,
Ağac Allahına tapınan mənəm.
Ruhumu verdiyim müqəddəs bağa,
Gözəllər şahına tapınan mənəm.

2001, 3 may

QARIŞQA

Bir dırnaq toxunsa, üzülə bilər,
Bir barmaq toxunsa, əzilə bilər.
Bir əl qarışdırsa axırı çatar,
Yuvası dağılıb, pozula bilər,
İşi nə çətindi bu qarışqanın.

Yazda sel ağzında, qışda qar altda,
Taleyi həmişə ayaqlar altda.
Yemi ömrü boyu çiynində yükdü,
Özü xırdaların dərdi böyükdü,
Yükü nə ağırdı bu qarışqanın.
Öldür, səsi çıxmaz, sədası gəlməz,
Tapdala, heç kəsə xatası gəlməz,
Ruhu nə fağırdı bu qarışqanın.

2001, 23 avqust

GƏRƏK O GÜNLƏRDƏN AYRILMAYAYDIQ

İndi çalxanmışıq nehrələr kimi,
İndi tozlanmışıq səhralar kimi,
İndi bulanmışıq dəryalar kimi.
Allahın nuruydu içimizdəki,
Birimiz ulduzduq, birimiz Aydıq,
Gərək o günlərdən ayrılmayaydıq.

Dilimiz şikayət toranlığında,
Qəlbimiz siyasət qaranlığında,
Ruhumuz əsarət şoranlığında.
Biz nahaq bu ömrü gərəkli saydıq,
Tanrısı təmizlik, ruhu gözəllik,
Gərək o günlərdən ayrılmayaydıq.

O günlər ömrümün ilk əfsanəsi,
Qədəmi uğurlu, səyalı günlər.
Gün kimi işıqlı, nurlu, müqəddəs,
Gül kimi ətirli, həyalı günlər.
Yerə də, göyə də hökm oxuyardı,
Göylərə çəkərdi xəyalı günlər.

Dumduru, tərtəmiz bir aləm idi,
Halal duyğulardan mayalı günlər.
Baş-başa verərdik təbiətlə biz,
Nəğməli çeşməydik, nərəli çaydıq.
Heyf, könlümüzdən köçdü gözəllik,
Gərək, o günlərdən ayrılmayaydıq.

2001, 15 sentyabr

ÇƏKƏRSİNİZ

Arılar, gül mənəm, qonun üstümə,
Məndən nə çəksəniz saf çəkərsiniz.
Başına götürər ətrim dünyanı,
Sözün gülşənində kef çəkərsiniz.

Durnalar, yerləri göylərə qatdım,
Sizinlə uçmağa hər gün can atdım.
Elə ki, torpağın altında yatdım,
Məzarım üstündə səf çəkərsiniz.

İnsanlar, ürəyim quzutək mələr,
Başım nələr çəkdi, dünyada nələr.
Hansı gün Zəlimxan ölüb desələr,
O gün bircə dəfə of çəkərsiniz.

2001, 25 avqust

ÜRƏK SEVİNƏNDƏ

Sabah var, axşamdan
qaranlıq gəlir,
Axşam var, sabahdan
nurlu, işıqlı.
Ürək sevinəndə,
ürək güləndə,
Ömür naxışlıdı,
gül yaraşıqlı.

2002, 22 iyun

NƏ XOŞBƏXTDİR BU MEŞƏNİN AĞACLARI

Buludlarla öpüşür,
ulduzlarla görüşür.
Qol açır Günəşə,
qucaq açır Aya.
Budaqların diliylə
salam aparır,
Yerdəki dünyadan
göydəki dünyaya.

Biz heç yüz il də
baxa bilmirik,
Min illərdi
boylanır göylərə sarı,
Nə xoşbəxtdi
bu meşənin ağacları.
Qışı yazından gözəldi,
yazı payızından,
Kölgəsində dağlar oğlu
söz salır dağlar qızından.
Yeyir torpağı, içir suyu,
geyinir qarı,
Nə xoşbəxtdi
bu meşənin ağacları.
Gəlin, təbiətin seyrinə,
ürəklə gəlin,
Çiçəklərə, güllərə baxın,
Kimisi həyalı qızdı,
kimisi xanım-xatın gəlin.
Qayalara baxın,
ölümü, itimi yox,
Allahın yaratdığı
bu möhtəşəm heykəlin,
Tökülüb sağa-sola
gümüşü telləri, qızılı saçları,
Nə xoşbəxtdi
bu meşənin ağacları.

2002, 18 iyun

ZƏLZƏLƏ

Harda zəlzələ var,
orda ölüm var.
Bu gücün sahibi
bilirmi, görən,
Yoğurduğu nədir,
yapdığı nədir?
Bilirmi nə qədər
evlər uçurub,
Taladığı nədir,
çapdığı nədir?
Ancaq yaratdığı
xarabalıqdı.
Görən, xarabalıqda
tapdığı nədir?

2002, 12 sentyabr

ŞAİR QAZANCI

Gözüm çiçəklərin
görüş yeridi,
Üzüm şəfəqlərin
öpdüyü yerdi.
Bu yaşıl gözəllik
qadir Allahın,
Nurunu üstümə
səpdiyi yerdi.

Ruhuma, qəlbimə
meh sığal çəkər,
Küləklər saçımın
nazınnan oynar.
Təbiət könlümü
qanadlandırar,
Gözəllik könlümün
sazınnan oynar.

Rəssamı tanrıdır
bu lövhələrin,
Sevməmək olarmı
bu gülüstanı?
Güllərin hamısı
qan rəngindədir,
Bəlkə, ona görə
coşdurur qanı?

Qərib bir qonağam
bu gözəlliyə,
Çiçək sirdaş bilər,
çeşmə yar, məni.
Budur son qazancı
şair olmağın,
Gözəllik hər yerdə
ağladar məni.

2002, 12 sentyabr

KÖKLƏR ÖMRÜ BOYU QARANLIQDADI

Köklər budaqlarla
görüşə bilməz,
Göyə qovuşmağa
yer həsrət çəkir.
Köklər ömrü boyu
qaranlıqdadı,
Budaqlar günəşlə
kef-ləzzət çəkir.

2002, 12 sentyabr

AYAĞIN TUTDUQCA GƏZ TƏBİƏTİ

Bax bu gözəlliyə,
bax, gözəl insan,
Ürəyi təmizlə,
işi təmizlə.
Şeytandan uzaqda
sənindi meydan,
Günahı təmizlə,
suçu təmizlə.

Zərif fikirdədi,
kövrək duyğuda,
Hər güldə çəmənin
bir ilməsi var.
"Bir zərrə şəfəqdə,
bir damla suda"1,
Ölmüş duyğuların
dirilməsi var.

İlahi, bu boyda
zənginlik nədir?
Kim duya, duymaya –
qismətə, baxta.
Gözəllik adamı
öldürməkdədir,
Gözəllər adamı
yaralamaqda.

Tanrı fürsətini
vermə əlindən,
Qayna bulaqlarla,
qarış sulara.

Şirin bir görüş al
dağ gözəlindən,
Bir cüt qanad olsun
xoş arzulara.

Uludu, təmizdi
şair niyyəti,
Bahadı, sevgimiz
qoy baha qalsın.
Ayağın tutduqca
gəz təbiəti,
Demə ki, gəzərəm,
sabaha qalsın.

2002, 14 sentyabr

O, ANA YURDUNA ARXA ÇEVİRMƏZ

Kimin dodağında
qımqıması var,
Kimin ki ürəkdə
zümzüməsi var,
Kimin gözlərində
haqqın işığı,
Kimin qulağında
haqqın səsi var,
O, ana yurduna
arxa çevirməz.

Kimin xəyalında
ana laylası,
Anadan bir kövrək
bayatı varsa,
Zərif körpəliyin,
saf uşaqlığın,
Yaddaşda bir parça
həyatı varsa,
O, ana yurduna
arxa çevirməz.

Kimin baxışında
bağların əksi,
Burnunda çiçəyin
ətri qalıbsa,
Udduğu havanın,
içdiyi suyun

Dəyəri, qiyməti,
qədri qalıbsa,
O, ana yurduna
arxa çevirməz.

Ölənin, itənin
arxası olar,
Göyərib bitənin
arxası olar,
Qürbətdə Vətənin
arxası olar,
Qaçar arxasınca
arxasızların,
O, ana yurduna
arxa çevirməz.

Lap belə dünyanın
o başında da,
Doxsan yaşında da,
yüz yaşında da,
Fikrində, hissində,
yaddaşında da
Sözü Vətən olar,
sözü Yurd olar,
Vətənsiz yaşamaq
ona dərd olar.
O, ana yurduna
arxa çevirməz,
Heç vaxt silahını
xalqa çevirməz.

2002, 9 sentyabr

MƏN ÖLƏNDƏ ÜZÜMÜ BORÇALIYA ÇEVİRİN

Orda duydum el ruhumun sazını,
Orda sevdim bir kişinin qızını.
Orda çəkdim gözəllərin nazını,
Mən öləndə üzümü
Borçalıya çevirin.

İçərimdə həsrət adlı yükü var,
Ürəyimdə yaraların kökü var.
Ləlvəri var, Ağlağanı, Lökü var,
Mən öləndə üzümü
Borçalıya çevirin.

Mənim könlüm bu torpağı sevirdi,
Qürbət ellər ömrü yelə sovurdu.
Bəlkə, elə Allah özü çevirdi,
Mən öləndə üzümü
Borçalıya çevirin.

Öpsün əsən yellər, yağan yağışlar,
Oxşasın sevdiyim şirin baxışlar,
Məkkə də, qiblə də məni bağışlar,
Mən öləndə üzümü
Borçalıya çevirin.

Su vətəndi, balıq torda qəribdi,
Eldən ayrı qəbir, gor da qəribdi.
Mən qürbətdə, Vətən orda qəribdi,
Mən öləndə üzümü
Borçalıya çevirin.

Qoyun məni torpağının altına,
Torpağının, yorğanının altına,
Üzüm olsun ayağının altına,
Mən öləndə üzümü
Borçalıya çevirin.

2002, 6 iyul

BORÇALIYLA AZƏRBAYCAN ARASINDA

O elimdi, o kəndimdi, bu şəhərim,
O həsrətim, bu sevincim, bu qəhərim,
Bəlli deyil nə axşamım, nə səhərim,
Mən qalmışam axşamla dan arasında.

Üfüqlərdə o bir qartal, mən bir ələk,
Zirvələrdə o bir qaya, mən bir çiçək.
Yaralıyıq – o bir candı, mən bir ürək,
Yaşayırıq ürəklə can arasında.

Bədən birdi, ət dırnaqdan ayrı deyil,
Torpaq birdi, kök budaqdan ayrı deyil.
O məmləkət bu torpaqdan ayrı deyil,
Ayrı nə var ürəklə can arasında.

Biz bilirik təklənməyin əzabı nə,
Biz dözürük ayrılığın əzabına.
Biz gəlmişik şahın, xanın qəzəbinə,
Dava düşüb xalq ilə xan arasında.

Qürbət ellər gözümüzün qıpıq yeri,
Kimsəsizlər bağrımızın yanıq yeri,
Sınıq körpü könlümüzün sınıq yeri,
Hökm oxunub saatla an arasında.

Duyğularım enər bəmə, qalxar zilə,
Bu yollarda dərdim düşüb dildən-dilə.
Bir ömürdü, əridirəm gilə-gilə,
Borçalıyla Azərbaycan arasında!

2001, 6 mart

O YERLƏR

Dolansanız doğulduğum yerləri,
Yaddaşımdan xəbər verər o yerlər.
Hansı gündə sevda dolub başıma,
Ataşımdan xəbər verər o yerlər.

Mənim kimi selə dönüb axsanız,
Baxışlarda şimşək olub çaxsanız,
Bulaq üstə gözəllərə baxsanız,
Göz-qaşımdan xəbər verər bu yerlər.

Nur payladım qohumlara, yadlara,
Sevinc verdim qəmginlərə, şadlara,
Nə zaman ki ömrüm getdi badlara,
Qan-yaşımdan xəbər verər o yerlər.

Dar günümdə anam olub ağlayar,
Bacım olub yaralarım bağlayar,
Xatirələr çeşmə kimi çağlayar,
Sirdaşımdan xəbər verər o yerlər.

Hər görüşdən bir heyrətə gələrsiz,
Vətən deyib ziyarətə gələrsiz,
Zaman gələr, ibadətə gələrsiz,
Başdaşımdan xəbər verər bu yerlər.

2000, 23 mart

GƏLƏNDƏ

İnsan necə rahatlanır, dincəlir,
Öz evinə-eşiyinə gələndə.
Bir alışan ocaq olur təzədən,
Ocağına, beşiyinə gələndə.

Duyğuları dil-dil olur, dil açır,
Ürəklərdən ürəklərə yol açır.
Ana yurdu, ata qəbri gül açır,
Oğul yurdun keşiyinə gələndə.

2000, 4 aprel

ÜMİDLƏRİN TÖKÜLƏCƏK

Ürəyini batırmısansa,
Zamanın çirkabına, xıltına,
Gözlərdən tökülən yaşlar kimi,
Ümidlərin tökülәcək,
Ayaqlarının altına.

2000, 8 iyul

ONDA DİRİ SAYMA

Yenə qoynundayam, ay ana kəndim,
Bağçanın açılan gülü bil məni.
Üşüyən əlini qızdırammasam,
Ocağın qaralan külü bil məni.

Qoynunu sehrli cənnət sanmışam,
Közlə ərimişəm, şamla yanmışam.
Elə yumşalmışam, rahatlanmışam,
Çəmənin məxməri, tülü bil məni.

Bir damla suyunu arxa çevirdim,
Xalq oldum, üzümü xalqa çevirdim.
Nə zaman mən sənə arxa çevirdim,
Onda diri sayma, ölü bil məni.

2000, 6 dekabr

YAZ

Jurnalist dostuma

Dostum, nə kağız, nə qələm götür,
Nə də bir dəftərin qırağına yaz.
Mənim bu yamyaşıl duyğularımı,
Yaşıl bir ağacın yarpağına yaz.

Yansın yarpaq üstə fikrim zər kimi,
Yağsın duyğularım ətirlər kimi,
Ayaq izlərimi sətirlər kimi,
Bu yurdun bir ovuc torpağına yaz.

Ayağa salmasın ötən eşqimi,
Ruhumda göyərib bitən eşqimi,
Mənim el sevgimi, Vətən eşqimi,
Vətənin ucalan bayrağına yaz.

Nökəri özüməm, eşqin şah olsa,
Ölmərəm, sevgimdən el agah olsa.
Bu müqəddəs işdə bir günah olsa,
Zəlimxan Yaqubun ayağına yaz.

2002, 29 iyul

ULDUZLARA BAXA-BAXA

Göylərin bəxtəvər çağı,
Ulduz ulduzu çağırır.
Elə bil ki, gecə vaxtı,
Hər oğlan bir ulduz olub,
Sevdiyi qızı çağırır.

Dağa çıxsaq, külək bizim,
Düzə ensək, çiçək bizim.
Gözəllər ulduz topası,
İçində bir mələk bizim.
Hara getsək, harda olsaq,
Sevənlər bizi çağırır.

Bir ulduz da mənimkidir,
Göylər mənə açıb yaxa.
Ulduzları düşünürəm,
Ulduzlara baxa-baxa.

2001, 5 yanvar

YARAT,
QARDAŞIM, YARAT!

Ad ilhamdı, ad kitab,
ad əsərdi, ad yazı,
Ruhuma nemət verər,
yazı daddı, dad yazı.
Qəlbimizə qovulmaz,
ruhumuza yad yazı,
Əriyəcək qar kimi,
saxta şöhrət, saxta var,
Yarat, qardaşım, yarat,
nə var, yaratmaqda var.

Şairi addımbaşı
sevinc atar, qəm izlər,
Kirpiyini göz yaşı,
yanağını nəm izlər.
Dünyanın çirkabını
şair sözü təmizlər,
Eşqimiz bir dənizdi,
ömür gəmi, vaxt avar,
Yarat, qardaşım, yarat,
nə var, yaratmaqda var.

İçi boş şöhrətləri
yel götürər aradan,
Zaman verər qiyməti,
seçər ağı, qaradan.
Tanrının bir adı da
Yaradandı, Yaradan.

Demə ki, yaradaram,
demə, hələ vaxta var,
Yarat, qardaşım, yarat,
nə var, yaratmaqda var.

Gec olacaq düşünmək,
ruh bədəndən uçanda,
Varaq səndən soyuyub,
sən varaqdan qaçanda.
Gec olacaq qapını
ölüm gəlib açanda,
Göz açıb görəcəksən
bədənində bez, kəfən,
Tabutunda taxta var,
Yarat, qardaşım yarat,
nə var, yaratmaqda var.

Allah dözər şairin
hər nazına, ərkinə,
Bir sevgiylə cavab ver,
hər nifrətə, hər kinə.
Gör bir nələr yaratdı,
güc ver haqqın dərkinə.
Qış səni qorxutmasın,
demə, yolda şaxta var,
Yarat, qardaşım, yarat,
nə var, yaratmaqda var.

2002, 3 sentyabr

ÖMÜR YAMAN GÖDƏKDİ

Gözü gözdü dünyanın,
odunu, alovunu,
Əldə tuta bilmədi
bəxtinin cilovunu,
Zaman ovçuya döndü,
tez ovladı ovunu,
Həyat çox oğulların
başında bostan əkdi,
Ömür yaman gödəkdi.

Ağzın aşa yetməmiş,
başın başa yetməmiş,
İllər göz qırpımında
gəlib başa yetməmiş,
Harayın nə oğula,
nə qardaşa yetməmiş,
Başımızda turp əkən
gözümüzdə od əkdi,
Ömür yaman gödəkdi.

İnsan qurar, yaradar
dişiylə, dırnağıyla,
Döyüşər ömrü boyu
həyat adlı yağıyla.
Layla ilə başlanan
sona çatar ağıyla,
Bu dünya başa kimi
kimin nazını çəkdi?
Ömür yaman gödəkdi.

Allaha tək desək də,
hökm onda, fərman onda,
Verən də O, alan da,
dərd onda, dərman onda.
Bizim heç nəyimiz yox,
mülk onda, cahan onda.
Nəyi var ki, insanın,
o da tək oğlu, təkdi,
Ömür yaman gödəkdi!!!

2002, 3 sentyabr

ALLAH – BƏNDƏ

Dağ Tanrının əsəridi,
dəmir-dümür bəndənin,
Uzun ömür Tanrınındı,
gödək ömür bəndənin.
Allah elə böyükdür ki,
heç kəsə şübhəsi yox,
Gecə-gündüz ürəyinə
şübhə damır bəndənin.
Min illərdi bataqlıqdan
çıxa bilmir paklığa,
Əli kirli, nəfsi haram,
qəlbi çamır bəndənin.

2000, 27 fevral

İSTƏMİRƏM CƏHƏNNƏMİ

Baxışların ölüsüydüm,
səni görüb dirilmişəm,
Sən ki varsan, yaxın gəlməz
ağrı mənə, acı mənə.
Həkimim də, təbibim də,
xilasım da sən özün ol,
Mən nə bilim hansı həkim
nə dərmanı yazır mənə.

Dayan sevinc, qaçma məndən,
ayaq saxla bir anlığa,
İşıqsız, sevgisiz, ruhsuz
könül dönər qaranlığa.
Bülbül çəkər abadlığa,
bayquş çəkər viranlığa,
Qəm götürüb külüngünü
hər gün qəbir qazar mənə.

Baş buludda, can sükutda,
yanaq yaşdı, kirpik nəmdi,
Harda olsa sevənlərin
qisməti az, bəxti kəmdi.
Sənlə cənnət olan dünya
sənsiz mənə cəhənnəmdi,
İstəmirəm cəhənnəmi,
qismət olsun məzar mənə.

2000, 19 mart

GÜVƏNƏNDƏ BU TORPAĞA

Yerə-göyə nahaq yerə,
Vurulmur adam, vurulmur.
Ömrü boyu dağlar aşır,
Yorulmur adam, yorulmur.

Günəş kimi çıxmayanda,
Şimşək olub çaxmayanda,
Çeşmələrə baxmayanda,
Durulmur adam, durulmur.

Qarışanda vaxta, çağa,
Söykənəndə qarlı dağa,
Güvənəndə bu torpağa,
Qırılmır adam, qırılmır.

2002, 14 sentyabr

GÖRÜŞÜMÜZ BAŞ TUTMASA

Yollarımı gözləməkdən,
Dağlar baxa-baxa qalıb.
Yurd həsrəti ürəyimi,
Oda yaxa-yaxa qalıb.

Öpəm ocağın gözünü,
Deyəm dağların sözünü.
Bulud öldürür özünü,
Şimşək çaxa-çaxa qalıb.

Dada çatmaz əldə əsa,
Toy-düyünün dönər yasa.
Görüşümüz baş tutmasa,
Mənimki Allaha qalıb.

2001, 17 aprel

AĞIL – ÜRƏK

Bu ölkədə nə qədər
şəhid qəbri var, Allah!
Bu millət ağrıların
əlindən haşa çəkir.
Haqqımı almaq üçün
döyüşməliyəm deyib,
Qəzəbin qılıncını
hər axşam daşa çəkir.

Tamah – sonu görünməz
mağaraymış, kahaymış,
Nəfsimiz özümüzü
yeyən bir əjdahaymış.
Mədəmiz bu Vətəndən,
bu torpaqdan bahaymış,
Qeyrətimiz qılınca,
qarnımız aşa çəkir.
Vətən yanır gözümün
ağında, qarasında,
Məlhəm ola bilmirəm
sızlayan yarasına.
Qalmışam ürəyimlə
ağlımın arasında,
Ağıl barış istəyir,
ürək savaşa çəkir.

2002, 8 sentyabr

ÖPDÜM GÜL YANAQLARI

Bir bağbanı çağırdım,
Bağından gilas aldım.
Tutmadı ovuclarım,
Əlimdən gilə saldım.

Havalandım səsiylə,
İsindim nəfəsiylə,
Bülbülün nəğməsiylə,
Sevgimi dilə saldım.

Bağ çiçəkdi, mən arı,
Baldı bağbanın barı.
Öpdüm gül yanaqları,
Meylimi gülə saldım.

2002, 29 iyul

OĞULSAN, VURULMA BU GÖZƏLLİYƏ

Gözümüz dünyadan
doymadı qəti,
Bu dünya əbədi,
biz müvəqqəti.
Enirsən dərəyə,
qalxırsan dağa,
Dağlar tamaşadı,
başdan ayağa.
Hara baxırsansa
çağırır səni,
Ürək heyran olur,
ağıl mat qalır.
Bizik tamaşaçı
bu səhnə üçün,
Biz köçüb gedirik,
bu həyat qalır.
İçimdən yanıqlı
bir sual keçir:
Niyə gödək oldu
ömrümüz, niyə?
Oğulsan, vurulma
bu gözəlliyə!
Zirvədə ağarır
qar aşırımları,
Torpaqda seyr eylə
qara şumları.
Ulduzlar göylərin
nurlu qəndili,
Yarpaqlar ağacın
danışan dili.

Qarışqa karvanı
öz işindədi,
Arı öz müqəddəs
vərdişindədi.
Torağay meşədə,
qartal zirvədə,
Düşüncə dərində,
xəyal zirvədə,
Bağlanıb torpağa,
boylanıb göyə –
Oğulsan, vurulma
bu gözəlliyə!
Sular pıçıldaşıb,
sellər səslənib,
Budaqlar üstündə
quş oxuyursa,
Qayalar səsini
qaytarıb sənə,
Kəkliyə qoşulub
daş oxuyursa,
Damlalar toy çalıb,
çadırlar üstə,
Buludlar yağışı
gur yağdırırsa,
Günəşin işığı,
Ayın sevgisi,
Hər gün üstümüzə
nur yağdırırsa,
Bulud axarında,
göy ləngərində,
Küləklər güllərin
tumarındasa,
Təbiət şairin
tək gözündə yox,

Qəlbində, ruhunda,
damarındasa,
Səs olub, söz olub,
rəng olub həyat,
Köçürsə ürəyə,
köçürsə gözə,
Duyduğun, gördüyün,
baxdığın nə var,
Olursa hər anı
heyrət, möcüzə,
Tanrının əsəri,
bax, budur, deyə –
Oğulsan, vurulma
bu gözəlliyə!
Oğulsan, vurulma
bu gözəlliyə!!!

2002, 5 sentyabr

SƏHRADI

Gülü çox olan yer bağçadı, bağdı,
Qanqalı boy verib bitən səhradı.
Məcnunu qoynunda itirən, itən,
Məcnunun içində itən səhradı.

İlahi sevgilər göylərə təndi,
Yaşıl budaqlarda bülbül ötəndi.
Sevəni çoxdursa, səhra vətəndi,
Sevəni yoxdursa, vətən səhradı.

2000, 4 sentyabr

BİR OVUC TORPAQ

Bu şeirin ilk dinləyicisi
Həsən Əziz oğlu Həsənova

Qulaqlarım sükutun,
səssizliyin pasında,
Gözlərim ayrılığın
nisgilində, yasında.
Qalmışdım Qərib kimi
yolun tən ortasında,
Səs gəldi qulağıma:
yaxşı-yaxşı bax, götür,
Atımın dırnağından
bir ovuc torpaq götür!

Arxadan Xızır adlı,
xilaskar atlı gəldi,
Yetişdi harayıma,
nurdan qanadlı gəldi,
Yorğun yolçuya dünya
şəkərdən dadlı gəldi.
Əmr eylədi, qəlbini
oda, közə yax, götür,
Atımın dırnağından
bir ovuc torpaq götür!

Aşiqlik yollarında
haq verən dərsi keçdim,
Çıxdım oddan-alovdan,
əridi qar, su, keçdim.
Yaxaladım Tiflisi,
addadım Qarsı keçdim,

Səs gəldi qulağıma:
səsdən qanad tax, götür,
Atımın dırnağından
bir ovuc torpaq götür!

Evdə səni gözləyən
kor olmuş bir ana var,
Canında can yanğışı,
qəlbində qəmxana var,
Əriş-arxacı solmuş,
sökülmüş bir xana var.
Ovcunu qayalara
şimşək kimi çax, götür,
Atımın dırnağından
bir ovuc torpaq götür!

Yanımda bir kimsə yox,
bu səs hardan gəlirdi,
Hansı eldən-obadan,
nə diyardan gəlirdi?
Bəlkə, buluddan qopub,
səmalardan gəlirdi.
O səs mənə deyirdi:
haqqa əyil, haqq götür,
Atımın dırnağından
bir ovuc torpaq götür!

Bu səs torpaq həsrəti
görənlərin səsiydi.
Bu səs torpağa bağlı
ərənlərin səsiydi.
Görürdüm o torpağı,
baxdım onun rənginə,
Bu dünya gözlərimdə
döndü gül çələnginə.

Qəriblər qürbət eldən
döndü, vətənə döndü,
Yetişdi göy zəmilər,
sünbüllər dənə döndü.
Əllərimin içində
yaz dindi, qış danışdı,
Doğan günəş, düşən nur,
yağan yağış danışdı.
Qürbətim vətən oldu,
yurdum-yuvam dəyişdi,
Bir az içim duruldu,
bir az havam dəyişdi.
Yol çəkən gözlərimin
qarasıydı, ağıydı,
Götürdüyüm o torpaq
Borçalı torpağıydı!

* * *

Anamın gözlərinin
dərmanı, sürməsiydi,
Çeşmənin zümzüməsi,
çayın hönkürməsiydi.
Tarixin həqiqəti,
həqiqətin səsiydi,
Qorqud nəfəslilərin
oxuduğu dualar,
Oğuz ərənlərinin
isitdiyi yuvalar,
Qopuz qoruyanların
yaşatdığı havalar,
Bir xalqın, millətin yox,
bir dünyanın bəsiydi.
Ruhum ölməz ruhların
sağlamıydı, sağıydı.
Götürdüyüm o torpaq
Borçalı torpağıydı!

* * *

Qaladığım ocaqda
yollar qızınmamışdı,
Hələ Sınıq körpünün
ürəyi sınmamışdı.
Yağlıcadan Loruya1
dərdimizin dərmanı,
Nə Nadir şah var idi,
nə də şahın fərmanı.
İndi mənim olmayan
o zaman mənim idi,
Suyum, havam, çörəyim,
sünbülüm, dənim idi.
Qarayazı, Qaraçöp
çölüm, çəmənim idi,
Südüm, sümüyüm, mayam,
ruhum, bədənim idi.
Şeyx Sənan dağları,
Başkeçid yaylaqları,
Gümrünün bulaqları,
Ürəyimin təpəri,
gözlərimin yağıydı.
Götürdüyüm o torpaq
Borçalı torpağıydı!

Yolu uzun, dolaşıq,
qisməti az, bəxti kəm,
Canda yolların tozu,
ürəkdə dərd, gözdə nəm.
İllər həsrəti çəkdim,
mən Qərib, o Şahsənəm,
Qəlbimizin qubarı,
sinəmizin dağıydı.
Götürdüyüm o torpaq
Borçalı torpağıydı!

* * *

Tarixə pərdə çəkib,
adını dəyişdilər,
Aşına ağı qatıb,
dadını dəyişdilər.
Doğmasına yad deyib,
yadını dəyişdilər.
Qəmgin edib, qəm verib,
şadını dəyişdilər.
Onda hələ o yurdun
bəxtəvərlik çağıydı,
Götürdüyüm o torpaq
Borçalı torpağıydı!

Onda hələ Göyçətək
gözüm tökülməmişdi,
Onda hələ Şuşatək
qəddim bükülməmişdi.
Onda Qarabağ kimi
bağrım sökülməmişdi.
Onda hələ yağılar
üstümə gülməmişdi.
Soyum Qıpçaq soyuydu,
dağım Tanrı dağıydı.
Götürdüyüm o torpaq
Borçalı torpağıydı.

2003, 18 may

DƏRDİN DASTANI

Mən bu yurdun ozanıyam, sazıyam,
Tel dərdini gəlib mənə danışır.
Doqquz teldən doqquz gümüş çay axır,
Sel dərdini gəlib mənə danışır.

Bu, Kərəmdi, bu, "Kərəmi", bu, Leyli,
Hamısı da yerdən, göydən gileyli.
Çay nisgilli, sel haraylı, su meyli,
Göl dərdini gəlib mənə danışır.

Budaq üstə narın-narın qar qonur,
Saflıq qonur, sərvət qonur, var qonur.
Nə zaman ki, gül üstünə xar qonur,
Gül dərdini gəlib mənə danışır.

Yeriyəmmir, dizlərinə duz çökür,
Boylanammır, baxışına buz çökür.
Qarışqanın qarşısında diz çökür,
Fil dərdini gəlib mənə danışır.

Damla düşür, kirpikləri nəmlənir,
Faciəsi göz yaşında cəmlənir.
Əzabları içə-içə dəmlənir,
Lül dərdini gəlib mənə danışır.

Yeyilənlər bu dişlərdən nə çəkdi,
Dağlananlar bu şişlərdən nə çəkdi,
Gur ocaqlar keşişlərdən nə çəkdi,
Kül dərdini gəlib mənə danışır.

Seçmək olmur nə gerçəyi, nə şəri,
Yaman günə kimlər saldı bəşəri?
Bir arvadın on oynaşı, beş əri,
Dul dərdini gəlib mənə danışır.

İnsan başqa, dövran başqa təbdədi,
Ümidimiz dərmandadı, həbdədi.
Aman Allah, qul bazarı dəbdədi,
Qul dərdini gəlib mənə danışır.

Söyə-söyə ocağını, pirini,
Sındırıblar salamatı, dirini.
Əl ağacı vermir əlin yerini,
Şil dərdini gəlib mənə danışır.

Qartal baxar zirvələrdə nəşəyə,
Dağ kəlləri naxış olar meşəyə.
Atdan alıb bürüyüblər eşşəyə,
Çul dərdini gəlib mənə danışır.

Nə olsun ki, soyuq-soyuq yel əsir,
İnsan yenə yaşamağa tələsir.
Diz bükülür, baş titrəyir, əl əsir,
Bel dərdini gəlib mənə danışır.

Kənd alışır, şəhər yanır içimdə,
Qəm qovrulur, kədər yanır içimdə.
Kim nə bilsin nələr yanır içimdə,
Çöl dərdini gəlib mənə danışır.

Dərddi, qəmdi hər tin, döngə, hər dalan,
Nə dərd olsa, mərd daşıyan, mərd alan.
Dərd alanam, dərd alanam, dərd alan,
El dərdini gəlib mənə danışır.

Min pərdəyə, min bir simə danışsın,
Kimi var ki, getsin kimə danışsın?
Dilə gəlib yolsuzların əlindən,
Yol dərdini gəlib mənə danışır.
Az dərdini özgələrlə bölüşən,
Bol dərdini gəlib mənə danışır.

2000, 25 sentyabr

MİLLƏTİN XİLAS YOLU

Yenə qəlbimdə vulkan,
yenə içimdə tufan,
Yenə qanımda atəş,
yenə ruhumda üsyan,
Yenə canımda ağrı,
yenə başımda duman,
Ağrılar gözümüzdən
ələnən yaşdan keçir,
Millətin xilas yolu
bu gün savaşdan keçir.

Düzlərdə büdrəyərsən,
sıldırımlar aşmasan,
Səni milçəklər yeyər,
qaynamasan, daşmasan.
Torpaqdan vətən olmaz,
uğrunda savaşmasan.
Baxma ki, yollarımız
boranlı qışdan keçir,
Millətin xilas yolu
bu gün savaşdan keçir.

"Sən", "mən" arxada qalsın,
bu gün "biz" olmalıyıq,
Dəmir yumruq, daş bilək,
qaya, diz olmalıyıq,
Dalğası şahə qalxan
bir dəniz olmalıyıq.

Gücümüz birləşəndə
sözümüz daşdan keçir,
Millətin xilas yolu
bu gün savaşdan keçir.

Dağ-dağ olur ürəklər,
dönür sızlayan neyə,
Dərdimiz dalğa-dalğa
yüksəlir yerdən göyə.
Bircə qarış torpağı
ələ keçməsin deyə,
İgidlər candan keçir,
şəhidlər başdan keçir,
Millətin xilas yolu
bu gün savaşdan keçir.

Ruh gedir, həvəs gedir,
yaddaş gedir, dil gedir,
Torpaq eldən gedirsə,
dörd əlvan fəsil gedir.
Zaman da baxmır sözə,
il dalınca il gedir.
Biz də ki qocalırıq,
yaş gəlib yaşdan keçir.
Çatıb həqiqətinə
haqqını almaq üçün,
Düşmənin bayrağını
ayağa salmaq üçün,
Qalibiyyət hayqırıb,
qələbə çalmaq üçün,
Millətin xilas yolu
bu gün savaşdan keçir.

MÖHKƏM ADAM

Üstünə dalğa-dalğa
dərd axdı, qəm yeridi,
Yanağa göz yaşları,
kirpiyə nəm yeridi.
Hər zülmün arxasınca,
zülm, sitəm yeridi,
O dözdü, o dayandı,
köklü bir qaya kimi.

Zaman onu sıxsa da,
o, özünü sıxmadı,
Öz yükünü özgənin
kürəyinə yıxmadı.
Öz içində qaynadı,
heç təbindən çıxmadı,
Dərdi gedib çıxsa da,
ulduza, Aya kimi.

Canında qəm qovurdu,
gözündə yaş ətridi,
Qoca dəyirman kimi
bağrında daş əritdi.
Yıxılmazdı, vaxt onu,
yavaş-yavaş əritdi,
Dünyatək cavan idi,
qocaldı dünya kimi.

2002, 17 noyabr

TÜRKÜN RUHU

Bu gün Ay daha nazlı,
ulduz daha nurlu,
gün daha parlaq.
Torpağıma bir Ay ruhu,
ulduz ruhu,
gün ruhu gəldi.
Şahinlərə, ulduzlara
qucaq açdı,
Bakı şəhəri –
Türkün ruhu,
Türkün ruhu,
Türkün ruhu gəldi!

Yerə baxdım, göyə baxdım,
meydana baxdım,
Bu uçuşlarda ötən
dövrana baxdım,
İstanbulu fəth etmiş
Mehmet Sultana baxdım.
Malazgirdə möhür vurmuş
Alp Arslana baxdım.
Torpağıma bir ulduz ruhu,
Ay ruhu, gün ruhu gəldi.
Türkün ruhu,
Türkün ruhu,
Türkün ruhu gəldi!

Bu uçuş karlıqlara, darlıqlara,
qəfəslərə üsyan,
Zəncirlərə, təhqirlərə,
məhbəslərə üsyan.

Haqqı əzən, Allahı danan
nakəslərə üsyan.
Türk oğlu Türk Cavidin
sürgün ruhu gəldi,
Türkün ruhu,
Türkün ruhu,
Türkün ruhu gəldi!

Oğuzumdu, ağ üzümdü,
qopuzumdu bu qüdrət,
Qılıncımdı, qırmancımdı,
toppuzumdu bu qüdrət.
Əbədimdi, tükənməzim,
sonsuzumdu bu qüdrət,
Çılğın ruhu, coşqun ruhu,
gülgün ruhu gəldi,
Türkün ruhu,
Türkün ruhu,
Türkün ruhu gəldi!

Uçaqlardan ucalarda uçdu
ürəklər,
Tamaşaçı yerdə insan,
göydə mələklər,
Hünər gördü, təpər gördü
titrəşdi fələklər.
"Azərbaycan" hayqıraraq
Atatürkün ruhu gəldi,
Türkün ruhu,
Türkün ruhu,
Türkün ruhu gəldi!

2001, avqust

QARABAĞI AZAD EYLƏ

Daha nəyi gözləyirsən,
Döyüşə gir, Vətən oğlu!
Bu vətənin, bu torpağın
Qaya kimi mətinləşən,
Palıd kimi bitən oğlu!
Haqqı-qanın bahasına,
Ulu sevgin, təmiz eşqin,
Saf vicdanın bahasına
Qollarını külüng eylə,
Qeyrətini Fərhad eylə!
Qarabağsız həyat yoxdur,
Qarabağı azad eylə!

Nə zamandır gözləmişik,
Gözləməkdən kar aşarmı?
Vətən əldən gedən günü
Durmaq bizə yaraşarmı?
Düşmən başı əzmək üçün,
Qapaza dön, şilləyə dön.
Düşmən qəlbi deşmək üçün,
Mərmiyə dön, gülləyə dön.
Ümidini, inamını
Dəmir eylə, polad eylə.
Qarabağsız həyat yoxdur,
Qarabağı azad eylə!

Qan içəni, qan soranı,
Zibil kimi süpürməsən,
Gözümüzü çıxardanın
Gözlərinə tüpürməsən,
Nahaq yerə nə hay-küy sal,
Nə hıçqır, nə fəryad eylə.

Qarabağsız həyat yoxdur,
Qarabağı azad eylə!

Yumruğunla yar havanı,
Qəzəbinlə tərpət yeri.
Arxada tək Xəzər qalıb,
Bircə addım atma geri.
Rəva görmə, ümidimiz,
İstəyimiz boşa çıxa.
Rəva görmə, arzuların
Sonu gedib daşa çıxa.
Alçaqların fikrinə bax,
Yağıların məkrinə bax,
Dağıt böhtan yuvasını,
Şər evini bərbad eylə.
Qarabağsız həyat yoxdur,
Qarabağı azad eylə!

Gər sinəni, səndən ötrü
Kəpəz, Qoşqar səngər olsun.
Yerişində, duruşunda
Tanrı boyda ləngər olsun.
Şəhid olmaq zamanıdı,
Ölüm üstə səfər gərək.
Udduğumuz hava kimi,
Bizə ancaq zəfər gərək.
Oğlu ölmüş anaların,
Əri ölmüş sonaların,
Ölümlərin, itimlərin,
Əsirlərin, yetimlərin
Daxmasında işıq yandır,
Ocağını abad eylə.
Qarabağsız həyat yoxdur,
Döyüşə gir, Vətən oğlu,
Qarabağı azad eylə!

MUĞANNA SAZ ÇALIRDI

İsa Hüseynova

Qalxıb yeddinci qata,
Enib yeddinci qatdan,
Bir söhbət başlamışdı
Düşüncədən, həyatdan,
Qolu, qanadı ruhdan,
Mayası Kainatdan.
Sehrlənmiş dünyası
Məni məndən apardı,
Muğanna saz çalırdı!

İncə fikri, xoş sözü,
Şirin xalı sevgidi.
Dünyanın neçə-neçə
Dürlü halı sevgidi.
Bu kişinin ən böyük
İdealı sevgidi.
Min illərin fikrinə,
Xəyalına dalırdı,
Muğanna saz çalırdı!

Qonmuşdum çəməninə,
O – çiçək, mən – ac arı.
Sazsız, sözsüz, havasız,
Görən, kim nə bacarı.
"Qapalı dünya"sının
Tapılmışdı açarı.
"Vərəsə"yə güvənib
Tanrıdan güc alırdı,
Muğanna saz çalırdı!

Kitablardan ayrılıb
Bir az nəfəs alırdı,
Sazla həmsöhbət olub
Səs verib, səs alırdı.
Yerdən güc, göydən qanad,
Səsdən həvəs alırdı.
Mələklər qanadında
Göylərə ucalırdı,
Muğanna saz çalırdı!

Barmağına axırdı
Ürəyinin işığı,
O sazın divanəsi,
Saz onun yaraşığı.
Bir-bir yada düşürdü
Kimlərdi haqq aşığı.
Yunus kimi nurlanır,
Qorqudtək qocalırdı,
Muğanna saz çalırdı!

Zəlimxan da qoşuldu,
Muğannanın eşqinə.
Ulu dərgaha varıb,
Getdi sazın məşqinə.
İki könül bir olub
Düşdü selə, daşqına.
Dəryaların təkinə
Lövbərini salırdı,
Muğanna saz çalırdı!
Muğanna saz çalırdı!

TOFİQ BAYRAM DÜNYASI

Ustad şairimiz, unudulmaz könül dostum Tofiq Bayramın böyük istedad sahibi olan oğlu Zakirin qəfil ölümü məni möhkəm sarsıtdı. Bu acı xəbəri eşidən kimi Tofiq Bayram ailəsinin vəfalı dostu, ağsaqqal alimimiz Camal Mustafayevlə yas yerinə tələsdik. Həmişə bal arısı kimi qaynayan həyətdə ölü bir sükutla ata-oğul – Tofiq Bayram və Zakir yoxluğuyla qarşılaşdıq. Zakirin qardaşları Cahangirlə Cavanşir üç günün içində qocalmışdılar. Şairin əzabkeş ömür-gün yoldaşı Zərifə xanımı görmək ürəyimdən keçsə də, belə ağır gündə onunla görüşməyə cəsarətim çatmadı. Gücüm ancaq Tofiq Bayram dünyasına qayıtmağa, onunla dərdləşməyə çatdı.

Zakir daha mənim üçün
ağrı-acı,
Cavanşirlə Cahangiri
xatırladım.
Baş qaldırdı ürəyimin
ehtiyacı,
Dostum olmuş bir şairi
xatırladım.

Bu dünyaya kimlər gəldi,
kimlər getdi,
Xatırladım bu dünyadan
köçənləri.
Kimlər öldü, kimlər sevdi,
kama yetdi,
Xatırladım olanları,
keçənləri.

Quruluqdan, rəsmilikdən
uzaq idi,
O, bir dünya, bir Kainat
adamıydı.

Şair kimi bir alışan
ocaq idi,
Tofiq Bayram canlı həyat
adamıydı.

Nə kürsüyə sığışırdı,
nə yer-göyə,
Ağıllı söz, yaxşı şeir
silahıydı.
Vurğunlaşdı "Səməd Vurğun"
deyə-deyə,
Üzeyir bəy Tanrısıydı,
Allahıydı.
Füzulini çox sevirdi
Səttar kimi,
Həm Füzuli, həm də
Səttar vurğunuydu.
Dost görəndə gül açırdı
bahar kimi,
Düzdə çiçək, zirvədə qar
vurğunuydu.

Əllər sıxan, əllər tutan
əl olurdu,
Arxasında dağlar yıxan
sel olurdu,
Yurd olurdu, xalq olurdu,
el olurdu,
Tofiq Bayram kürsülərdə
görünəndə.

Söz dilində nəfəs alıb
dirilirdi,
Kaman kimi dartılırdı,
gərilirdi,

Tər budaqdan tər meyvətək
dərilirdi,
Tofiq Bayram kürsülərdə
görünəndə.

Mükafatı al güllərdən
çələng idi,
Şeiri layla, sözü ovsun,
ahəng idi.
Dağlar kimi uca idi,
nəhəng idi,
Tofiq Bayram kürsülərdə
görünəndə.
Masa onun ən vəfalı
dost-həmdəmi,
Kürsü onun iş yeriydi,
səngəriydi.
Nə dəftəri soyuyardı,
nə qələmi,
Ləngər elə Səməd Vurğun
ləngəriydi.

Ağlayanda hönkür-hönkür
ağlayardı,
Qəhqəhəsi dağdan qopan
şəlaləydi.
Sevgi şeiri çeşmə kimi
çağlayardı,
Qəmli şeiri ürək yaxan
bir naləydi.

Cəmiyyətin sağalmayan
ağrıları
Püskürürdü sinəsində
vulkan kimi.

Bir nanəcib daş atanda
Haqqa sarı,
Gah əsərdi, gah coşardı
tufan kimi.

Birmi, beşmi başda ağrı,
canda zədə,
Can atardı dərd qırıla,
ağrı sına.
“Valokordin gətir, ana”
söyləsə də,
Əlac yoxdu ürəyinin
ağrısına.

Dəli-dolu, kələ-kötür,
ərkəsöyün,
Qəlbindəki sevgisiydi
yerin-göyün.
Sevgisi də, nifrəti də
löyün-löyün,
Sərt bir kişi,
mərd bir adam dünyası var,
Qəlbimdə bir
Tofiq Bayram dünyası var.

Xəyalımda varaqlanır
varaq-varaq,
Hər misrası bir çırpıntı,
bir səs-soraq.
Ömrü boyu korun-korun
yanan ocaq,
Yavaş-yavaş sönən bir
şam dünyası var,
Qəlbimdə bir
Tofiq Bayram dünyası var.

Məclisləri bir-birindən
sadə, gözəl,
Zarafatı həddindən
ziyadə gözəl.
Sağlıq gözəl, şərab gözəl,
badə gözəl,
Əldə qədəh, nur dolu
cam dünyası var,
Qəlbimdə bir
Tofiq Bayram dünyası var.

Açıq idi könül evi,
qəlb aynası,
Sevgi idi şah kitabı,
əlifbası.
Bir gecikən məhəbbətə
tutdu yası,
Vaxtın qısa,
ömrün nakam dünyası var,
Qəlbimdə bir
Tofiq Bayram dünyası var.

Sevinciydi hər bir görüş,
hər bir səfər,
And yeriydi
Sabir, Cavid, Müşfiq, Cəfər.
Sevgilisi bütün dünya,
bütün cahan,
Qəlbindəki eşqin adı
Azərbaycan.

Nəyi varsa məhəbbətin,
eşqin idi,
Gur nəfəsi dağ çayından
coşqun idi.

Başı üstdən qara yellər
əsdi onun,
Taqətini küt ağrılar
kəsdi onun,
Gözlərinin odu söndü,
qoru getdi,
Dizlərinin heyi getdi,
zoru getdi.
Qarabağdan deyə-deyə
alovlandı,
Qarabağdan yaza-yaza
tüstüləndi,
Qarabağsız bircə addım
atammadı,
Qarabağdan yaza-yaza
xəstələndi.
Ömrə güldü, bəxtə güldü
acı-acı,
Son ümidi, sadiq dostu
əlağacı.
Ağrıların pəncəsində
gördüm onu,
Ağrılarla yaşamağın
budur sonu.
Onu əldən salan ağrı
mənim doğma ağrım idi,
Onun köz-köz olan bağrı
mənim yanan bağrım idi.
O, yaşamaq istəyirdi,
O, yaşatmaq istəyirdi,
Aradığı, axtardığı
Haqqa çatmaq istəyirdi.
Təpə-dırnaq sevgi idi,
ürək idi,

Gur səsiylə bu millətə
gərək idi.
Çağırıram, əli mənə
yetmir onun,
Bir dost kimi, qardaş kimi,
Arxa kimi, sirdaş kimi,
Mənə olan eylikləri
xəyalımdan getmir onun.
O, "Gecikən məhəbbət"də
yaşayacaq,
O, saf "Qadın ürəyi"ndə
sədaqətdə yaşayacaq!
Bir dost kimi Zəlimxana
inamında yaşayacaq,
Şair kimi Zəlimxanın
ilhamında yaşayacaq.
Nə ki varam bu dünyada,
Ona qarşı ürəyimdə,
Ulu sevgi, saf ehtiram
dünyası var,
Qəlbimdə bir Tofiq Bayram
xatirəsi,
Qəlbimdə bir Tofiq Bayram
dünyası var.
Gur səsiylə salonları
titrətməkdə nadir idi,
Şeiri dağlar zirvəsinə
qaldırmağa qadir idi,
Oxucunu döyüşçüyə
döndərməkdə mahir idi,
O, bir Vətən əsgəriydi,
Vətəndaş bir şair idi.
Sinə sipər, kirpik çəpər,
bir istehkam dünyası var,
Qəlbimizdə Tofiq Bayram dünyası var.

2005, 28 aprel

AY MƏMMƏD ASLAN

Ölüb o yerlərdə qalam deyirdim,
Kaş, onda öləydim, ay Məmməd Aslan.
Ağdaban kəndində keçən ömrümü,
Şəmşirlə böləydim, ay Məmməd Aslan.

Sirdaşı olaydım dumanın, çənin,
Yarpağın, torpağın, sünbülün, dənin.
Kövrəlib dolanda, Güllü nənənin
Göz yaşın siləydim, ay Məmməd Aslan.

Minib Taxtadüzün köhlən atına,
Uçaydım göylərin yeddi qatına.
Bal qatıb Qəmbərin zarafatına,
Danışıb-güləydim, ay Məmməd Aslan.

Qoşa dillənəydi qələm sazımla,
Baş-başa verəydi aləm sazımla,
Fərhad külüngümlə, Kərəm sazımla,
Dağları dələydim, ay Məmməd Aslan.

Bu dərdi düşünən baş qalmayacaq,
Quruyan gözlərdə yaş qalmayacaq,
Nə bilim daş üstə daş qalmayacaq,
Mən hardan biləydim, ay Məmməd Aslan.

Bilirəm, küskünsən sən də dünyaya,
Gör nə zülüm verir bəndə dünyaya.
Kəlbəcər qayıda, mən də dünyaya
Yenidən gələydim, ay Məmməd Aslan.

NECƏ BARIŞDIRIM KÜSƏNLƏRİ MƏN?

Biri taleyindən, baxtından küsür,
Biri zamanından, vaxtından küsür.
Biri Allahının ögeyliyindən,
Biri öz şahının taxtından küsür,
Necə barışdırım küsənləri mən?

Biri boynundakı kəndirdən küsür,
Biri qolundakı zəncirdən küsür.
Birinin ürəyi şüşətək sınır,
Biri bircə kəlmə təhqirdən küsür,
Necə barışdırım küsənləri mən?

Göz qəmli, can üzgün, könül pərişan,
Doğmayla barışmır yadla barışan.
Şeytan öz işində, öz əməlində,
Gülür qarışdıran, sınır qarışan,
Necə barışdırım küsənləri mən?

Çırağı narazı, şamı narazı,
Sarayı narazı, damı narazı.
Bir razı qalana rast gəlmədim mən,
Dağılmış dünyadan hamı narazı,
Necə barışdırım küsənləri mən?

Ahım Ağrıdağın başına çatır,
Gücüm gözlərimin yaşına çatır.
Ömrüm altmışa çatır, ha çatır,
Yaşım peyğəmbərin yaşına çatır,
Necə barışdırım küsənləri mən?

Ozanı, dədəni, ulunu göstər,
Bizi barışdıran qulunu göstər.
Necə barışdıraq, necə barışaq,
İlahi, gəl bizə özün kömək ol,
Bizə barışmağın yolunu göstər,
Necə barışdırım küsənləri mən?
Necə barışdırım küsənləri mən?

2002, 3 aprel

RUHUM

Buludla yağış kimidir,
ruhda canım, canda ruhum,
Can heç nədir, bədən heçdi,
çırpınmasa qanda ruhum.

Uçuş yeri üfüqlərdi,
bəzədiyi şəfəqlərdi,
Bir nəğmədi, bir əsərdi,
hər çırpınan anda ruhum.

Çiçəklərin ətrindədi,
sevənlərin xətrindədi,
Şeirimin hər sətrindədi,
xalis baldı şanda ruhum.

Qarın rəngindəki ağdan,
torpaqdakı yaşıl tağdan,
Rəng alıb, nişan götürüb,
qalıb bu nişanda ruhum.

Göylər kimi meydanı var,
neçə-neçə heyranı var,
Zəncirlənməz, buxovlanmaz
qəfəsdə, zindanda ruhum.

Yuva qurar, yuvalanar,
hava görər, havalanar,
Özünə bir sirdaş tapar,
hər duyan insanda ruhum.

Görüşdüyü mələklərdi,
qovuşduğu fələklərdi,
Həlak olmaz qasırğada,
sarsılmaz tufanda ruhum.

Turi-Sinada Musadı,
çarmıxda Həzrət İsadı,
Həra dağda Məhəmməddi,
dolaşır Quranda ruhum.

Məcnun kimi səhradadı,
Tahir kimi dəryadadı,
Min illərdi qanad çalır,
nağılda, dastanda ruhum.

Tamahları yox eyləyər,
gözü-könlü tox eyləyər,
Nə dərd olsa əlac tapar,
şəfadı dərmanda ruhum.

"Məndə sığar iki cahan!" –
bu bir Tanrı nidasıdır,
Əbədi bir hökmrandı,
hər iki cahanda ruhum.

Ləhni-Davud avazıdı,
Vaqif, Ələsgər sazıdı,
Ölümə meydan oxuyar,
yaşar Zəlimxanda ruhum.

2003, 1 yanvar

ÖLÜM BİZDƏN GÜCLÜ ÇIXIR

Bu, ömür-gün yollarıdı,
varlı keçir, kasıb keçir,
Dərd insandan aralanmır,
hər gün dardan asıb keçir.

Həqiqəti demək eşqi
qismət olmur çoxlarına,
Kimi batır öz içində,
kimi səsin qısıb keçir.

Əl açsaq da, əl yetişməz
Yaradanın ətəyinə,
Kimi Haqqa könül verir,
kimi Haqdan küsüb keçir.

Yüz il sonra torpaq üstə
çəmən kimi göyərsək də,
Ölüm bizdən güclü çıxır,
başımızdan basıb keçir.

2003, 2 yanvar

ALLAHIN SÖZÜNÜ SEVƏNLƏR YAZIR

İlahi hər kəsə bir nemət verir,
Kimi qələmdədi, kimi fırçada.
İnsana nə versə təbiət verir,
Şair sözdə qalır, rəssam parçada.

İz qoymaq istəyir gəlib-gedənlər,
Biri xeyir yazır, biri şər yazır.
Şeytanın sözünü nifrət edənlər,
Allahın sözünü sevənlər yazır.

2003, 8 yanvar

KƏPƏNƏK ZƏRİFLİYİ

Özü bircə dəfə getməyən yerə,
İnsanı min dəfə fikir aparır.
Uçurumlar dibinə, dağlar başına,
Xəyal qəlbimizi çəkir aparır.

Fikirlər qanadlı, duyğular xumar,
Dünyamız genişdi, meydanımız dar.
Ruhda bir kəpənək zərifliyi var,
Yellər qanadına bükür aparır.

Göy bizi tutsa da yağışa, qara,
Bağlanmır bənd-bərə, kəsilmir ara.
Eşqimiz qalxanda ucalıqlara,
Dilində Allaha şükür aparır.

2003, 15 yanvar

CƏZA YERİ

Ruhumuz taxtanı kaman eylədi,
Ahımız od oldu, saza yeridi.
Gördük ki, bu dünya hər addımbaşı,
Fəlakət yeridi, qəza yeridi.

Hər toyun axırı döndü bir vaya,
Mum oldu qaradaş, əzildi qaya.
Sevinc həvəsiylə gəldik dünyaya,
Gələndə gördük ki, əza yeridi.

Kəndiri yağlıdı – asdırmaq üçün,
Torpağı hazırdı – basdırmaq üçün,
İnsanı əbədi susdurmaq üçün,
Qəbir insanların cəza yeridi.

2003, 16 yanvar

AZADLIQ NURUNU GÖRDÜ BU MİLLƏT

Nə yaxşı ulduz var, Günəş var, Ay var,
Dünya işıqlanır gün bahasına.
Bir aydınlıq gəlir hər qaranlığa,
İman bahasına, din bahasına.

Suda boğulmuşuq, odda yanmışıq,
Ömrü vuruşlarda ömür sanmışıq.
Əlləşib bir parça nur qazanmışıq,
Qara saçımızda dən bahasına.

Sağlam toxum olub cücərən oğul,
Qeyrət bağçasını becərən oğul,
Yurda can verməyi bacaran oğul,
Qalar ürəklərdə can bahasına.

Daşıdı ən ağır dərdi bu millət,
Dərdə sinəsini gərdi bu millət,
Azadlıq nurunu gördü bu millət,
Şəhid oğulların qan bahasına.

2003, 22 yanvar

YATANLARIN AYILMAĞI GETDİ TA

Yenə fikrim məğlub olmuş qoşundu,
Nizamı yox, cərgəsi yox, səfi yox.
Bulanmışam boz-bulanlıq sulartək,
Duyğuların durusu yox, safı yox.

Günlərimi bir-bir düzdü qurşuna,
Sinəm gəldi güllələrin tuşuna.
Ömür getdi, vaxt fırlandı boşuna,
Qazancı yox, faydası yox, nəfi yox.

Köçən köçdü, nə ana var, nə ata,
Vida dedi baldan şirin həyata.
Yatanların ayılmağı getdi ta,
Qəbristanın toyçusu yox, dəfi yox.

Dəryaların dərya boyda dərdi var,
Səhraların səhra boyda dərdi var,
Bu dünyanın dünya boyda dərdi var,
Kefi yoxdu, kefi yoxdu, kefi yox.

2003, 27 yanvar

YOLUN ÇƏTİNİ

Durna qatarını pozmaqdan ötrü
Başçını vururlar səfindən əvvəl.
Tanrı bir dərd verir insan oğluna,
Doğranır soğanı kefindən əvvəl.

Sıxır sümüyünü, yeyir ətini,
Haqq görür insanın aqibətini.
Dəfndən sonradı yolun çətini,
Nə varsa yüngüldü dəfndən əvvəl.

İnsan bir quruca bədən olacaq,
Bədən qarışqaya vətən olacaq,
Görüb-görəcəyi kəfən olacaq,
Yazıq nə gördü ki, kəfəndən əvvəl.

2003, 5 fevral

BAŞ AĞRISI

Ürəyin nə üçün ağrıyır demə,
O sənin atdığın daş ağrısıdı.
Qəlbimi qanadan səssiz güllələr,
Gözümü göynədən yaş ağrısıdı.

Hayana üz tutdum, hayana vardım,
Dərdi bir dağ kimi sinəmdə yardım.
Biryolluq kökündən çəkib atardım,
Bilsəydim azarım diş ağrısıdı.

Təntiyir bürküdə, üşüyür qarda,
Nəfs imtahan verir çətində, darda.
Mal-mülk də, ad-san da, dövlət də, var da,
Nə varsa hamısı baş ağrısıdı.

2003, 7 noyabr

MƏNDƏN QORUQÇU ÇIXMAZ

Qoruqçu olaydım bu torpaqlara,
Sinəm sərhədlərə sipər olaydı.
Qəlbim güllələrdən alsa da yara,
Kirpiyim düşmənə çəpər olaydı.

Qoruqçu olaydım bu torpaqlara,
Məzar tapdalanıb, gor itməyəydi.
Analar, bacılar geyinib qara,
Qorqud qoruduğu qor itməyəydi.

Yurdun ağrısı çox, yarası dərin,
Günah özümdədi, özgədə deyil.
Kökü içimdədi çirkinliklərin,
Baxdığım aynada, güzgüdə deyil.

Doğma ola-ola nə qədər yadıq,
Axdıq zaman-zaman kin axarında.
Tanrı birliyinə qovuşammadıq,
Durula bilmədik din axarında.

Çiçək əvəzinə qan qoxuyur, qan,
Yaşıl yamaclarım, qarlı diklərim.
Min dəfə bahadı qazandığımdan,
Min dəfə artıqdır itirdiklərim.

Qoruqçu olsaydım bu torpaqlara,
Dil deyib ruhumda ağlamazdı yaz.
Dil gödək, göz qıpıq, əl boş, üz qara,
Yox, qardaş, yox, məndən qoruqçu çıxmaz!

2003, 11 noyabr

YAZIQ YAŞAYA BİLMƏDİ

Ağrıları ayaqları,
Əzabları başı çəkdi.
Gözlərindən gələn arxı,
Gözlərinin yaşı çəkdi.
Kürəyindən alçaq vurdu,
Ətəyindən naşı çəkdi,
Yazıq yaşaya bilmədi.

Yüklədi qəm şələsini,
Çiynində kəndir yaşadı.
İçi yandı, çölü yandı,
Canında təndir yaşadı.
Qismətində buxov, qandal,
Qolunda zəncir yaşadı,
Yazıq yaşaya bilmədi.

Doğrulmadı ümidləri,
Zaman qaçdı arxasından,
Ayı qara, ili qara,
Dərd yapışdı yaxasından.
Addım atmaq istəyəndə
Fələk dartdı çuxasından.
Göydə ulduzları saydı,
Dərdini saya bilmədi.
Çox can atdı yaşamağa,
Yazıq yaşaya bilmədi!

2003, 27 mart

BELƏ GETSƏ

Bu zamanın ətəyində
namaz qılmağa dəyməz, –
Əl bulaşıq, ətək kirli,
namaz batil olacaq.

Ədaləti öldürübsə,
xəyanətin zərbəsi,
Gələcəyin məhkəməsi
sanma adil olacaq.

Didilirik parça-parça
günahların əlində,
Xırpalandı boğazımız
tamahların əlində.
Allah özü acizdirsə,
“allah”ların əlində,
Əqidələr əlil, şikəst,
inamlar şil olacaq.

Şuxluğunu unudarsan
yük əyəndə qəddini,
Əli sənə yetən deyil,
çağırsan da cəddini.
Şeytan elə qarışdırıb
xeyrin-şərin səddini,
Belə getsə, möminlər də
dönüb qatil olacaq.

2003, 29 mart

ACI HƏQİQƏT

Səni ucaldacaqlar,
sən özündən əvvəli
uca tutduğun qədər.
Səni unudacaqlar,
öz kökünü, soyunu
sən unutduğun qədər.
Zamanın səndən ötrü
ürəyi buz, bağrı daş,
Tarix çox qocalanda
çatmaz köməyə, yaddaş.
Qarşıdadır nə qədər
İmtahanlar, sınaqlar,
Çıxmasan o sınaqdan,
səni unudacaqlar!

Tarixdə tarix boyu
yalanı çox danışıb,
doğrunu az deyiblər.
Çoxlarını unudub,
hədər yerə adına
"unudulmaz" deyiblər.
Yüz də yansın-alışsın,
səngiyəcək sevgilər,
soyuyacaq ocaqlar.
Unutma, unudulmaz
acı bir həqiqəti,
səni unudacaqlar!

Qurudub sularını,
kəsəcəklər çayını,
kəsəcəklər arxını.

Çərxi-fələk tərsinə
fırladacaq çarxını.
Sonra bir az yaş töküb
verəcəklər üçünü,
verəcəklər qırxını.
Bir də açılmayacaq
gəlişini gözləyən
isti qollar-qucaqlar,
Oğulsan unudulma,
səni unudacaqlar!!!

2003, 23 aprel

ARI BƏLƏDÇİDİ ÇƏMƏN YOLUNDA

Qədim kənd yolları çağıra məni,
Yollar dəlisitək yeriyəm gedəm.
Qışda cığırlara yağam qar kimi,
Yazın günəşitək əriyəm gedəm.

Dəli şimşəklərin düşəm oynuna,
Qollarım dolana qartal boynuna,
Çən kimi çəkiləm dağlar qoynuna,
Nəmli ətəyimi sürüyəm gedəm.

Arı bələdçidi çəmən yolunda,
Beşik ilk addımdı kəfən yolunda,
Ölüb şəhid olam Vətən yolunda,
Qara torpağında çürüyəm gedəm.

2003, 5 aprel

YETİŞMƏZ

Yüz harayla əldən çıxan gəncliyi,
O vaxt dönməz, o ərəfə yetişməz.
Min tərəfə fikrin gedər, qayıdar,
Əli gedib bir tərəfə yetişməz.

Cavanların tayı-tuşu cavanlıq,
Şirin ömrün şax duruşu cavanlıq,
Başımızın şahlıq quşu cavanlıq,
Ömür bir də o tərəfə yetişməz.

Keçər gecə, yavaş-yavaş atar dan,
Can üzülər, kəsilərsən tutardan,
Uçan durnan ayrılıbsa qatardan,
Eşqin gedib səfdən-səfə yetişməz.

Dərdi olan yarasını duzladı,
Şaxta vurdu, damar-damar buzladı.
Sədəfli saz sızım-sızım sızladı,
Əl nə saza, nə sədəfə yetişməz.

Sevgi adlı qibləyə tut üzünü,
Nəyin varsa, de, dünyaya sözünü.
Ay Zəlimxan, nahaq yorma özünü,
Heç bir arzun son hədəfə yetişməz.

2003, 29 aprel

ÜRƏKDƏN BİR OD QOPAR

Göz tavana dikili,
Yuxu ərşə çəkili,
Xəstə boynu bükülü,
Xəstəlik şahlıq eylər.

Aparmağın vaxtı var,
Çöldə hazırdır çapar,
Ürəkdən bir od qopar,
Ömrü bir ahlıq eylər.

Can quru kəfəndədi,
Nə dərd var bədəndədi.
Bəndə aciz bəndədi,
Ölüm allahlıq eylər.

2003, 30 aprel

ŞEİRLƏR YETİM QALDI

İçimdə bir dağ uçdu,
Saray çökdü, him qaldı.
Heç bilmədim dünyada
Kim qırıldı, kim qaldı.

Qan, qada, qorxu, hədə,
Canda ağrıdan zədə,
Vurmadığım pərdədə
Çalmadığım sim qaldı.

Vaxt gəldi, vədə yetdi,
Ömrün möhləti bitdi,
Şairlər öldü getdi,
Şeirlər yetim qaldı.

2003, 1 may

HALALLAŞMAQ VAXTIDI

Həyat yaşamaq eşqi,
tale sənə ad verdi,
Gözə işıq, qəlbə nur,
damaqlara dad verdi.
Kəskin zəka, iti söz,
sınmaz bir qanad verdi,
Hazırlaş, insan oğlu!
Görünən zirvələri
bir-bir aşmaq vaxtıdı!

Sevgini verən kişi
əlində cam gətirdi,
Ömrə-günə şirinlik,
dodağa tam gətirdi.
Sevgilinlə qol-qola
nurlu axşam gətirdi,
Hazırlaş, insan oğlu!
Müqəddəs duyğulara
nəğmə qoşmaq vaxtıdı.

Elə ki, xəstələndin,
başın gəldi balınca,
Elə ki, qorxu çəkdin,
boynun dəydi qılınca,
Hazırlaş, insan oğlu!
Deməli, bu həyatla
halallaşmaq vaxtıdı.

2003, 3 may

ÖLÜM DƏ BİR ZARAFATDI

Biz dünyaya gələn gündən
Başımızın üstündədi,
Acı-acı gülməyi var,
Şirin canın qəsdindədi.
Gəzəndə qol-boyun gəzdi,
Yatanda qol-boyun yatdı,
Yenə tutdu bildiyini, –
Ölüm də bir zarafatdı.

Aradabir bizə sarı
Göz vurmağı yaman olur.
Salıb səhra tufanına,
Toz vurmağı yaman olur.
Bir də gördün silkələdi,
Beşiyi məzara qatdı, –
Ölüm də bir zarafatdı.

Ahımız Arazlı, Kürlü,
Göz yaşımız dürlü-dürlü.
Hədəfin nişanı bəlli,
Dərd naxışlı, qəm möhürlü,
Ağına, bozuna baxmaz,
Qışına, yazına baxmaz,
Əli kimə çatdı, çatdı, –
Ölüm də bir zarafatdı.

Adı birdi, növü min bir,
Ucuz ölüm, baha ölüm.
Nə bir yalvarışa baxar,
Nə ağrıya, aha ölüm.

Zərrə qədər fərq qoymadı
Nə qula, nə şaha ölüm.
Bəndənin hökmündə deyil,
Təslimdi Allaha ölüm.
Öz malı, öz müştərisi,
Kimi harda satdı, satdı, –
Ölüm də bir zarafatdı.

2003, 19 may

ŞAİRLƏR

Gözə dayaq, ruha bayraq,
Haqqa silahdı şairlər.
Qaranlıqdan aydınlığa
Çıxan sabahdı şairlər.

Ruhu kövrək, qəlbi zərif,
Ariflərdən qat-qat arif.
Cahanşah, Xətai, Vaqif,
Vəzirdi, şahdı şairlər.

Baxışlara enəndə çən,
Dərd olanda dağlara tən,
Bir millətin sinəsindən
Yüksələn ahdı şairlər.

Özü ulu, sözü baha,
Ona ölüm yoxdu daha.
Ağır gəlməsin Allaha,
Yarımallahdı şairlər.

2003, 23 may

BU TAXTA QƏDƏR

Gec gəlmək yaxşıdı heç gəlməməkdən,
Məni yarıtmadın bu vaxta qədər.
Sən məni duymadın bu qara daşca,
Sən məni duymadın bu taxta qədər.

Bir qara qəpiyəm, qara şahıyam,
Yerin həsrətiyəm, göyün ahıyam.
Mən daha bu gündən dərd allahıyam,
Sən məni qaldırdın bu taxta qədər.

Zəhərli aşından doymuşam daha,
Turşumuş qaşından doymuşam daha,
Qarından, qışından doymuşam daha,
Soyuqsan, bu sazaq, bu şaxta qədər.

2003, 25 may

ŞAİRLƏR GƏLMİŞDİ

Şairlər gəlmişdi bizə bu axşam,
Şairlər gəlmişdi, cahan şairlər.
Ömrün baharında qaynayıb daşan,
Təbii sellər kimi rəvan şairlər.

Arılar işgüzar, pətəklər dolu,
Göz nurdan, söz candan şirə çəkirdi.
Özünə əzizdir hər kəsin yolu,
Hərə öz sevdiyi yerə çəkirdi.

Köksü gah qabarır, gah çəkilirdi,
Duyan can atırdı duyulmaq üçün.
Biri Nəsimini Allah bilirdi,
Dərisi yanırdı soyulmaq üçün.

Sabir fırtınası sədləri yardı,
Köz kimi qaynadı baxışlarında.
Ulu şairlərin işığı vardı,
Dəli şairlərin naxışlarında.

Coşqun, istiqanlı, qaynar, havalı,
Vaqif meyvəsiydi, Vurğun barıydı.
Bayatı ətirli, qoşma yuvalı,
Hər budaq bir kökün yadigarıydı.

Bir şair gəlmişdi çılğın, qaraqaş,
Elə bil Müşfiqin özüydü, Tanrım.
Ruhunda həyəcan, qəlbində təlaş,
Gözləri Müşfiqin gözüydü, Tanrım.

Qurduğu yuvanı boş qoymaz Allah,
Qocalıq dünənim, gənclik sabahım.
Duyğulu ürəklər Haqq adlı dərgah,
Şair səngərimdi, şeir silahım.

Şairlər gəlmişdi bizə bu axşam,
Şairlər gəlmişdi, cavan şairlər.
Ruhları çilçıraq, ürəkləri şam,
Zülmətin gözünü oyan şairlər.

Dilində ilahi bir ləngər olur,
Nəfəsi həmişə təzətər olur.
Oxucu gözündə peyğəmbər olur,
Şeiri Allahıtək sevən şairlər.
Şairlər gəlmişdi bizə bu axşam,
Şairlər gəlmişdi, cavan şairlər.

2003, 30 may

ÇARMIX GÖRƏN TƏKCƏ İSA DEYİL Kİ...

Çarmıx görən təkcə İsa deyil ki,
Biri deyil, yüzü dara çəkiblər.
Astar gedib daldalarda gizlənib,
Nur qaynağı üzü dara çəkiblər.

Həqiqətə "ayaq açma, dur" deyib,
Xəyanətə "hər fəndini qur" deyib,
"Gördüyünü görməzliyə vur" deyib,
Görən kimi gözü dara çəkiblər.

Nağaraçı dəf götürüb, dəflənib,
Xain olan Haqqı görüb, xəflənib,
"Ənəlhəqq"in tufanından xoflanıb,
Fitva verib, sözü dara çəkiblər.

Göylər baxar, yer üzünü seyr eylər,
Doğru Haqqı, şər şeytanı seyr eylər,
Hər əyriyə uyğun gələr əyrilər,
Əyilməyən düzü dara çəkiblər.

Min dərdi var aclığın da, acın da,
Qovrulmuşuq qəmin qızmar sacında.
Allah qalıb öz taxtında, tacında,
Zaman-zaman bizi dara çəkiblər.

2003, 1 iyun

ƏSİR ÖLÜM KÜLƏYİ

Əsir ölüm küləyi,
Budağın gücü çatmır,
Yarpağı saxlamağa.

Əsir qocalıq yeli,
Dözəmmir qoca dünya,
Qonağı saxlamağa.

Əsir ölüm küləyi,
Gedirik yavaş-yavaş,
Torpağı saxlamağa.

2003, 29 iyun

GEDƏRƏM

Dünya bir bulaqdı, qaynar bir bulaq,
Su qalar, gözündən içib gedərəm.
Dünya bir körpüdü – tağsız, dayaqsız,
Yeriyib üstündən keçib gedərəm.

Zaman mənə baxmaz, çağ mənə qalmaz,
Solar çiçəkləri, tağ mənə qalmaz.
Əlimlə saldığım bağ mənə qalmaz,
Qurduğum yuvadan uçub gedərəm.

Vaxtın pəncəsində soyuyan qışam,
Özü öz ömrünü şumlayan xışam.
İsti bir beşikdə xumarlanmışam,
Soyuq bir tabutda köçüb gedərəm.

2004, 2 noyabr

GECİKMİŞ ETİRAF

Dünyanın gözəl yerlərini gördükcə zor və silah gücünə əlimizdən alınan gözəlliklərin itkisi məni dəhşətə gətirir

Arımı yemişəm, ar itirmişəm,
Bir dağam, zirvəmdən qar itirmişəm.
Qarabağ görkəmdə dünya gözəli,
Şuşa yaraşıqda yar itirmişəm, –
Öldürün, öldürün, öldürün məni.

Üstə duz səpilmiş yaramdı dünya,
Mənə yas, düşmənə bayramdı dünya.
Tək bircə Kəlbəcər gedibsə əldən,
Mənim kimisinə haramdı dünya, –
Öldürün, öldürün, öldürün məni.

Günah işlətmişəm, səhv eyləmişəm,
Səhvimlə özümü məhv eyləmişəm.
Torpaq unudulub, yurd yaddan çıxıb,
Qaniçən düşməni əfv eyləmişəm, –
Öldürün, öldürün, öldürün məni.

Qatil sifətinə şilləm olmadı,
Cəllad sinəsinə gülləm olmadı.
Fürsəti boşuna verdim əlimdən,
Ağlım işləmədi, kəlləm olmadı, –
Öldürün, öldürün, öldürün məni.

Kərəmim ağılsız, Əslim günahkar,
Ləläm, tərbiyəçim, nəslim günahkar.
Qələbə çalanı bəyənməsək də,

Məğlub günahkardı, təslim günahkar, –
Öldürün, öldürün, öldürün məni.

Ağladanım çoxdu, güldürənim yox,
Gücüm var, gücümü bildirənim yox.
Gözüm kölgəlidi, başım aşağı,
Çoxdan öləsiyəm, öldürənim yox, –
Öldürün, öldürün, öldürün məni.

Qaldıra bilməsəm igidlərini,
Dirildə bilməsəm şəhidlərini,
Müqəddəs ruhların üstündən keçib,
Düşmən tapdalasa meyitlərimi,
"Qana qan" deyəndə məndən tez durub,
Oğlum eşitməsə öyüdlərimi,
Öldürün, öldürün, öldürün məni.

Düşmən at oynadıb Cıdır düzündə,
Bizi kökümüzdən qoparacaqsa,
Dərib göy çəməndə xarı bülbülü,
Yadlara hədiyyə aparacaqsa,
Zaman götürəndə süpürgəsini
"Qeyrətsiz" damğası vurub üstünə,
Bizi zibil kimi süpürəcəksə,
Gələcək nəsillər Vətənsiz qalıb,
Bulaqsız, yaylaqsız, çəmənsiz qalıb,
Bizim qəbrimizə tüpürəcəksə,
Hər iki cahanda cəhənnəmdəyəm, –
Öldürün, öldürün, öldürün məni!

Məni basdırmağa fürsət verməyin,
Qəbir qazanlara zəhmət verməyin.
Keçməsin heç kəsdən əziyyət mənə,
Qəti layiq deyil bu xidmət mənə.
Atın meyitimi, atın çöllərə,

Qurd-quşa yem olan bir cəmdək kimi.
Məni keçmiş kimi unutsun ellər,
Yadına salmasın gələcək kimi.
Torpaq itirəni torpaq götürməz,
Ancaq igidlərə yer versin Vətən,
Ancaq şəhidlərə yer versin Vətən.
Qarabağ dərdinə dərman yoxdusa,
"Qaytarın!" hökmündə fərman yoxdusa,
Ölmürsə ruhuma qənim olanlar,
Mənim olmadısa mənim olanlar,
Sabahı görməyən sözdədir günah,
Səndədir, məndədir, bizdədir günah, –
Öldürün, öldürün, öldürün məni.

2004,4 noyabr
İstanbul

ÖLÜM MƏNDƏN VAZ KEÇDİ

Zaman axdı aramsız,
Bahar gəldi, yaz keçdi.
Töküldü gözlərimdən,
Kür gəldi, Araz keçdi.

Yum deyir, gözünü yum,
Əcəl ömrə son hücum.
Batil oldu orucum,
Qıldığım namaz keçdi.

İli uzun, ayı bol,
Göz yaşının çayı bol.
Yaman günün payı bol,
Yaxşı günüm az keçdi.

Şumladılar – şum oldu,
Sovurdular – qum oldu,
Yumşaltdılar – mum oldu,
Ömür nataraz keçdi.

Haqdan xeyir... yazıram,
Tanrı deyir, yazıram.
Gördü şeir yazıram,
Ölüm məndən vaz keçdi.

2004, 20 noyabr

YETİMLİK

İnsan təkcə atadan,
Anadan yetim olmur.
Yetimlik sonra gəlir,
Binadan yetim olmur.

Sahibi, yiyəsi yox,
Yuva yalqız, yurd yetim.
Ata-ana tanımaz,
Bədən key, manqurt yetim.

Daş canda, boş ürəkdə,
Nəğmə yaslı, səs yetim.
Sevgilisiz, sevgisiz,
Kim varsa, hər kəs yetim.

Qərib kimi yaşasa,
İnsan Vətəndə yetim.
Allah yiyə durmasa,
Allahsız bəndə yetim.

Silahsız qələm yazıq,
Qələmsiz silah yetim.
Arxası xalq olmasa,
Şair bədbəxt, şah yetim.

2004, 30 noyabr

YALAN ŞEYDİ
ƏBƏDİYYƏT

Bir tərəfi sel uçurur,
bir tərəfi yel dağıdır,
İnsanlığın üzü gülməz,
tufan adlı zülüm varsa.

Yazda açan çiçəklərə
qəmli payız qənim olar,
Bağban yüz də can çürütsün,
solacaqdır, gülüm varsa.

Hər aşın bir ağısı var,
hər canın bir yağısı var,
Nə çəkib qarğadan çəkib,
qan ağlar bülbülüm varsa.

Ölməzlik boş təsəllidi,
kimsə atıb ortalığa,
Yalan şeydi əbədiyyət,
insan üçün ölüm varsa.

2005, 22 yanvar

HALAL DOĞULANLAR

Halal doğulanlar, halal doğanlar,
Gül olur, şeh olur, bulaq olurlar.

Halalla haramın qarışığından,
Dünyaya gələnlər calaq olurlar.

İşıqlı ürəklər, nurlu könüllər,
Çırağı sönənə çıraq olurlar.

Bir köynək Allaha yaxın olanlar,
Min köynək şeytandan uzaq olurlar.

2005, 23 yanvar

“ALLAH” DEYƏ-DEYƏ BÖYÜYÜR İNSAN

Yapışır Haqqından, Yaradanından,
Haqqı öyə-öyə böyüyür insan.
Döyülə-döyülə qalxır, bərkiyir,
Şəri döyə-döyə böyüyür insan.

Körpə ürəyində nə kin, nə acıq,
Qəlbinin qapısı Allaha açıq.
Aranda otaqdı, dağda alaçıq,
“Yurd-yurd” deyə-deyə böyüyür insan.

Kədəri buludda, göz yaşı suda,
Ümidi Yaradan, gümanı Xuda.
Ağrı çəkə-çəkə, dərd uda-uda,
Acı yeyə-yeyə böyüyür insan.

Tənə vurur nadan, daş vurur naşı,
İçinə süzülür gözünün yaşı.
Dəyir ürəyinə dərd addımbaşı,
Dərdə dəyə-dəyə böyüyür insan.

Ayların, illərin ağrısı canda,
Döyünür damarda, çırpınır qanda.
Taxtı çevriləndə, baxtı yatanda,
Bəxtə söyə-söyə böyüyür insan.

Seçir ağıllını, seçir dəlini,
Ələkdən keçirir öz əməlini.
Heç vaxt Allahından üzmür əlini,
“Allah” deyə-deyə böyüyür insan.

2005, 29 yanvar

BİR GÜLLƏ YAZ GƏLİB, BAHAR AÇILMAZ

Yerdən göyə doğru qalxar, ucalar,
Ucalıq gətirər yaş ömürlərə.
Bir güllə yaz gəlib, bahar açılmaz,
Ömrünü eşq ilə qoş ömürlərə.

Zaman ürəkləri şum kimi əkər,
Gah sağa, gah sola fırlanar təkər.
Bahar sevə-sevə nazını çəkər,
Yağdırar qarını qış ömürlərə.

Uca göylər kimi ulu deyilsə,
Yolu, sevənlərin yolu deyilsə,
Tanrı sevgisiylə dolu deyilsə,
Daş yağsın mənasız, boş ömürlərə.

2005, 24 fevral

ACİZLİK

Buz içində dondurdular,
Od vurdular, yandırdılar,
Dönə-dönə sındırdılar,
Dəmir neyləsin, neyləsin?

Kim itirən, kimi tapan,
Yola gəlmir yoldan sapan.
Küt eylədi kündə yapan,
Xəmir neyləsin, neyləsin?

Axan gözlərin yaşıdı,
Ağrı başların daşıdı.
Kababı çəkən naşıdı,
Kömür neyləsin, neyləsin?

Dağla düzün arasında,
Qaşla gözün arasında,
Birlə yüzün arasında,
Ömür neyləsin, neyləsin?

Yelə sovrulub xırmanı,
Yoxdu bu dərdin dərmanı.
Şah yüz də versin fərmanı,
Əmr neyləsin, neyləsin?

2005, 1 mart

YARPAQLAR, BUDAQLAR, KÖKLƏR, GÖVDƏLƏR

Yarpaqlar yalvarır sərt küləklərə:
“Qoparma budaqdan, qoparma məni,
Didəcək yol-yoxuş, udacaq dərə,
Aparma uzağa, aparma məni”.

Budaqlar yalvarır öz gövdəsinə:
“Qurutma, qurutma, qurutma məni”.
Köklər ağız açıb deyir torpağa:
“Unutma, unutma, unutma məni”.

2005, 28 mart

MÜNDƏRİCAT

Ruhum – Tanrım.....5
Yaxşılıq dan yeri, sübh azanıdı.....6
Ömür 7
Vaxt əlində oyuncaqsan 8
Bilmədim 9
Ömür-gün işığında 10
Çaşqınlıq 11
Zamanın insana sözü 12
İlahi bil sevgini 13
Gəlin, dostlarım, gəlin 14
Tanrı "yarat" dedi 16
Haqq eşitdi səsimi 17
Ölüm sahillərə yan almaqdadı.....18
Olmasa 19
İtki-etiraf 20
Ölüm durur 22
Hərəsi bir kökdə çalır havanı 23
Göyçənin gözəl oğlu 24
Oxuya bilmədim axıra qədər 26
Söylə 27
Xatirələr yumağı 28
Heç kim öz yükünü tək çəkə bilmir 29
Mənlə qəbrə gedən sirr 30
İldırım 31
Öldürür 32
Baş götürüb əlli beşə gedirəm 33
Dadaloğluna 34
Dörd yanımız hasar, barı 35
Bütöv Azərbaycan dünəndə qaldı 36
Halımı soruşub necəsən demə 37
Kim bilir? 38
Qoy yatım, yuxudan qaldırma məni 39
İki qapı 40
Ayaq saxlayan olsun 42
Mən nəyinə lazımam? 43

Tək olana arxalan 44
Yollar 45
Öz dilindən çıxdı xata 46
O gəlirsə 47
Çırpın, şair ürəyi 48
İki fəsil 49
Can üstündə 50
Savaş gedir 51
Dözmürəm bu dağın yıxılmağına 52
Qalır 54
Ölü basdırırıq hər gün ürəkdə 55
Ey təzə qəbrin sahibi 56
Bitmədi ki, bitmədi 57
Payızı geydim əynimə 58
Qalıb 59
Ağrı 60
Hər şeyin sahibi, ağası bəlli 62
Yeriniz yaman görünür 64
Yenə bahar gəlib 65
Hüseyn Arif məclisi 66
Hüseyn Arif sağ olaydı 72
Muğannadan gələn səs 73
Haqq adamı 75
Günlərin ağsaqqalı 78
Üzrxahlıq 81
Ramizin övladı 84
Mahmudəli Çöhrəqanlıya 86
Səadət Butaya 88
Nəvələr böyüdən vaxtımız gəlir 90
Nəvəm Turana 92
Nəvələr şəhərdi babalar qala 94
Turanın şeirini Turanda yazdım 95
Turanıma 96
Nəvəm Fatehə 97
Ustalar 98
Bakı vaxtı 101
Başucalığı 102
Telefon danışığı 103
Bədbəxtlik 104
Yuxuda ağ köynək geymişdim, ana 105
Yaradanın yaratdığı 106